RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 224 (9679) 12 oktyabr 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycanın qlobal nüfuzu güclənir

## Ölkələr arasında bütün əlaqələr qarşılıqlı etimad üzərində qurulur

Prezident İlham Əliyev Moskvada "Rossiya-1" televiziya kanalına müsahibə verdi. Dövlətimizin başçısı müxbirin "sanksiyalar siyasətinin prinsipcə hər hansı perspektivləri varmı" sualını cavablandırarkən dedi: "Onun, ümumiyyətlə, mövcud olmağa haqqı yoxdur, xüsusilə də bu sanksiyalar qeyri-qanuni olduqda və tamamilə əsassız və selektiv şəkildə tətbiq edildikdə. Ona görə də biz istənilən sanksiyalara qəti şəkildə qarşıyıq və hesab edirəm ki, beynəlxalq ictimaiyyət öz mövqeyini vahid qaydada bildirməlidir. Biz milli səviyyədə özümüzə qarşı, həm də təkcə bizə deyil, tətbiq olunan bütün sanksiyalara münasibətdə bu mövqeyi ifadə edirik".

Dövlətimizin başçısının son vaxtlarda ABŞ-yə qarşı sərt bəyanatları Ağ Evin ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasına qeyri-adekvat münasibəti, respublikamıza qarşı qondarma insan haqları ittihamları ilə bağlıdır. Məlum olduğu kimi, bu günlərdə 60 ABŞ konqresmeni, dövlət katibi Entoni Blinkenə müraciət edərək, Azərbaycana qarşı addımlar atılmasını tələb etmişdilər. Bu da nə qədər riyakar siyasət yürüdüldüyünü, məsələlərə ikili standartlarla yanaşıldığını göstərir və belə münasibətlər ikrah doğurur.

Azərbaycan Prezidenti, əslində, hər kəsin bildiyi, amma dilə gətirməyə cəsarət göstərmədiyi aydın həqiqətləri özünəməxsus qətiyyətlə dünya ictimaiyyətinin və ABŞ rəsmilərinin diqqətinə çatdırır. Onları öz davranışları barədə düşünməyə, ABŞ kimi böyük bir dövləti ikili standartlarla, riyakar siyasətlə gözdən salmamağa çalışır.

Cənab İlham Əliyevin "Rossiya-1" telekanalına müsahibəsində səsləndirdiyi fikirlər də ümumilikdə Qərbin, xüsusilə ABŞ-nin, regionda göstərdiyi mövqeyə qarşı kəskin reaksiyanın ifadəsidir. Çünki bu ikili standartlar yekun nəticədə heç də xoş məqsədlərə xidmət etmir. Bu mövqeyi sərgiləyən ölkələr öz maraqları naminə bölgəmizi yeni təhlükələrə, təhdidlərə, insan faciələrinə sürükləmək istəyirlər.

Dünya sürətlə dəyişir, ABŞ anlamalıdır ki, birqütblü dünya anlayışı artıq keçmişdir. Bölgələrin maraq dairələrinə bölünməkdə olduğu dünyada, hər ölkənin öz milli maraqlarını təmin etməyə çalışdığı çağda artıq heç bir güc regional bölgə marağını, o cümlədən Cənubi Qafqazdakı regional maraqlarını təzyiq üzərində qura bilməz. Bu həqiqəti anlatmaq Cənubi Qafqazın ən böyük dövləti və əsas söz sahibi olan Azərbaycanın missiyasıdır.

Bu gün qüdrətli orduya, güclü iqtisadiyyata malik olan qalib Azərbaycanı hər hansı sanksiya ilə yolundan döndərmək mümkün deyil. 44 günlük Vətən müharibəsindən sonra Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin və onun əsasını təşkil edən beş fundamental prinsipin təşəbbüskarı məhz Azərbaycan tərəfidir. Ona görə də ölkəmiz yalnız regional sülh gündəliyini dəstəkləyir.

→ 4

## Azərbaycan ilə Tunis arasında əməkdaşlıq münasibətləri daha da genişlənəcək

**Tunis Respublikasının Prezidenti zati-aliləri cənab Kays Sayidə**

Hörmətli cənab Prezident!

Tunis Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Tunis arasında dostluq və əməkdaşlıq münasibətlərinin genişlənməsi və möhkəmlənməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Tunis xalqının rifahı naminə məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 oktyabr 2024-cü il*

## Ersin Tatar Prezident İlham Əliyevin türk dünyasının birliyi məsələsində mövqeyini alqışlayıb

**Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) rəhbəri Ersin Tatar türk dövlətlərinin birliyinə xüsusi önəm verən Azərbaycan Prezidenti İlham Əliyevin mövqeyini yüksək qiymətləndirib.**

AZƏRTAC xəbər verir ki, Ersin Tatar Türkiyənin "Sabah" qəzetinə müsahibəsində türk Kiprinin maraqlarını dəstəklədiyinə və türk dünyasının birliyinə verdiyi töhfəyə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Siyasətçi qeyd edib ki, Lefkoşa Bakı və Ankara ilə "Bir millət, üç dövlət" kəlamı ruhunda dialoq qurur.

ŞKTC Prezidenti Azərbaycana səfərlərini Şimali Kiprin tanınması istiqamətində mühüm addım adlandırıb.

Kipr türklərinin lideri bildirib ki, Azərbaycan dövlətinin başçısı ilə görüşündə Prezident İlham Əliyev türk dövlətlərinin birliyinə və həmrəyliyinə xüsusi əhəmiyyət verdiyini bəyan edib və təşkilatın gələcəyi üçün səylərin birləşdirilməsinin vacibliyini vurğulayıb.

"ŞKTC türk dünyasının ən cənub təmsilçisidir. Ölkəmiz Şərqi Aralıq dənizində türk dünyasının maraqları üçün böyük əhəmiyyətə və dəyərə malikdir", - deyə siyasətçi bildirib.

Adanın yunan icmasının fəal silahlanması fonunda türk Kiprinin təhlükəsizliyinə toxunan Ersin Tatar adanın əlverişli coğrafi mövqeyinə diqqət çəkib: "Türkiyənin Adanadakı aviabazalarından uçan hərbi təyyarələr cəmi 5 dəqiqəyə Kipr sahillərinə çata bilir". Eyni zamanda Şimali Kiprin lideri ŞKTC-də türk hərbi bazasının yaradılması ehtimalını da istisna etməyib.

## III MDB Oyunlarının Azərbaycanda keçirilməsi qərarı ölkəmizə olan yüksək etimadın göstəricisidir

Ötən dövrdə MDB özünü müstəqil dövlətlərin səmərəli əməkdaşlıq platforması kimi təsdiqləyib. Quruma daxil olan dövlətlər bir sıra istiqamətlər üzrə öz fəaliyyətlərini uzlaşdırıblar ki, bu da regional təhlükəsizliyin təmin olunmasına və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığın dərinləşməsinə öz müsbət təsirini göstərib. O cümlədən terrorizm, ekstremizm, narkotiklərin qeyri-qanuni dövriyyəsi, iqtisadi sahədə cinayətkarlıq, qanunsuz miqrasiya, insan alverinə qarşı mübarizə məsələləri MDB-yə daxil olan dövlətlərin qarşılıqlı fəaliyyətinin əsas istiqamətlərini təşkil edib. Ötən dövrdə birliyin hüquq-müqavilə bazası möhkəmlənib.

Oktyabrın 8-də Prezident İlham Əliyevin Moskvada MDB Dövlət Başçıları Şurasının iclasında iştirakı və çıxışı dövlətimizin bu beynəlxalq platformaya verdiyi önəmin göstəricisidir. Təqdirəlayiq haldır ki, MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilib. Prezident İlham Əliyev bununla bağlı çıxışında bildirib. Laçın Azərbaycanın 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmuş şəhərlərindən biridir və demək olar ki, tamamilə dağıdılmışdı. Bu gün Laçın artıq bərpa olunub. Burada yeni həyat başlayıb, keçmiş məcburi köçkünlər qayıdıblar. Laçının MDB-nin mədəniyyət paytaxtı elan edilməsi həm laçınlılar, həm də bütün Azərbaycan xalqı tərəfindən böyük minnətdarlıqla qarşılanıb.

→ 4

## Bakı-Ceyhanın Tbilisi "körpü"sü

### BTC-nin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsindən 20, Gürcüstan hissəsinin istifadəyə verilməsindən 19 il keçir

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsində həm də qarşılıqlı inam məsələsi vardı. Bu, iqtisadi inkişafla yanaşı, insanların bir-birinə sosial-mədəni sahədə daha da yaxınlaşmasına xidmət edirdi. Prezident İlham Əliyev tədbirdəki çıxışında tikilməkdə olan kəmərin əhəmiyyətini vurğulayaraq demişdir: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi həm Azərbaycan üçün, həm Gürcüstan üçün, həm də bütün region üçün çox vacibdir. Bu, ölkəmizə yeni imkanlar yaradacaqdır, xalqlarımız üçün yeni şəraitin yaradılmasını təmin edəcəkdir. Əlbəttə ki, bu, ölkələrimizə böyük həcmdə maliyyə vəsaitinin cəlb olunmasına gətirib çıxaracaqdır. Eyni zamanda bu iqtisadi məsələlərlə yanaşı, regional təhlükəsizlik məsələlərinə də layihə öz töhfəsini verəcəkdir".

Həmin vaxt üç ölkə ərazisində marşrut boyunca tikinti dəhlizi tamamilə təmizlənmiş və açılmışdı. Boruların 97 faizi qaynaqlanmış və 70 faizi torpaqla örtüklənmişdi. BTC-yə vurulacaq ilk nefti "Mərkəzi Azəri" platforması verəcəkdi ki, onun da üst modulları artıq dənizdə quraşdırılmış dayaq bloku üzərində yerləşdirilmişdi. Səngəçaldakı və Ceyhandakı terminallarda nefti qəbul etmək üçün hazırlıq işləri gedirdi və onların əsas hissəsi görülmüşdü.

Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisində kəmərin çəkilişində 21 min insan çalışırdı. Azərbaycanda tikintiyə 5 min nəfər cəlb olunmuşdu. Bu insanların əməyi ilə BTC uğurla irəliləyirdi.



→ 9

## Ermənilərin səslərini qazanmaq istəyən Adam Şiff Azərbaycanın ABŞ-yə etdiyi yaxşılıqları qiymətləndirmir

ABŞ Əfqanıstanda Talibana qarşı vuruşanda da, oradan geri çəkiləndə də həmişə Azərbaycanın dəstəyini, köməyini görüb. Adətən, ABŞ bu cür yaxşılıqlara görə müttəfiqlərinə öz minnətdarlığını bildirir.

Üstəlik, həmin müttəfiq Ukraynada müharibə getdiyi bir vaxtda Avropanın enerji təhlükəsizliyinə yardım əli uzadır. Amma Kaliforniyadan Nümayəndələr Palatasına seçilmiş Demokrat partiyalı Adam Şiff Azərbaycanın ABŞ və Avropa üçün etdiklərini qiymətləndirmir. Hətta ABŞ-nin müttəfiqlərinə ehtiram göstərmək kimi bir dəyərini heçə sayaraq seçki günü ermənilərin səslərini qazanmaq dərdi çəkir.

Bu barədə tanınmış siyasi şərhçi və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham baş qərargahı ABŞ-nin Nyu York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının saytında dərc olunmuş "ABŞ-nin əsl müttəfiqinin müdafiəsi üçün ayağa qalxmaq" sərlövhəli məqaləsində yazıb.

→ 12

# İqtisadi Şuranın növbəti iclası keçirilib






**Oktyabrın 10-da İqtisadi Şuranın növbəti iclası keçirilib.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasda Prezident İlham Əliyevin sədrliyi ilə sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirədəki tapşırıqlardan irəli gələrək "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları", ixrac əməliyyatları zamanı əldə olunmuş vəsaitin qanunvericiliyə uyğun olaraq 180 gün ərzində ölkəyə gətirilməsinin vəziyyəti, ixrac edilən malların sektorlar və ölkələr üzrə təsnifatı, fiziki və hüquqi şəxslər üzrə ölkəyə qaytarılmayan valyuta vəsaitləri, xarici valyuta vəsaitlərinin xaricdən qaytarılmaması ilə əlaqədar inzibati-cinayət məsuliyyəti tədbirləri barədə geniş müzakirələr aparılıb. Məsələ ətrafında Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov, Mərkəzi Bankın sədri Taleh Kazımov və Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev çıxış ediblər.

Gündəliyin ikinci məsələsi - "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyəti ilə bağlı məsələlər də ətraflı müzakirə olunub. İqtisadiyyat naziri Mikayıl Cabbarovun, SOCAR-ın prezidenti Rövşən Nəcəfin və Dövlət Neft Fondunun icraçı direktoru İsrafil Məmmədovun məsələ üzrə məruzələri dinlənilib.

Təqdim olunan məsələlər üzrə İqtisadi Şura üzvləri tərəfindən geniş müzakirələr aparılıb.

İclasın yekununda İqtisadi Şura üzvlərinin təklifləri nəzərə alınmaqla qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 452 QƏRAR Bakı şəhəri, 10 oktyabr 2024-cü il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli 213 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli 213 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 803 (Cild I); 2024, № 2, maddə 235) ilə təsdiq edilmiş "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2.2-ci və 6.1.3-cü yarımbəndlərdə "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 1.2.7-1-ci, 6.1.8-1-ci və 6.1.8-2-ci yarımbəndlər əlavə edilsin:

"1.2.7-1. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi;";

"6.1.8-1. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi:

1. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu maddəsinə uyğun olaraq dini təhsil müəssisələrinin proqramlarına erkən nikah və qohumlar arasında nikahın mənfi nəticələrinə dair mövzular daxil edir;

2. dini təhsil müəssisələrində təhsilalanların, habelə din xadimləri tərəfindən gənclərin erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair məlumatlılıq səviyyəsinin artırılması üzrə tədbirlərin həyata keçirilməsini təşkil edir.

6.1.8-2. Yerli icra hakimiyyəti orqanları gənclərin erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair məlumatlılıq səviyyəsini artıran tədbirlər keçirir.".

3. 1.2.11-ci yarımbənddə və 7.1-ci bənddə "Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası" sözləri "Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 451 QƏRAR Bakı şəhəri, 10 oktyabr 2024-cü il

### "Uçuşların təhlükəsizliyinə nəzarət üzrə tənzimləyici funksiyaların və vəzifələrin ötürülməsi Qaydası"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.22-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Uçuşların təhlükəsizliyinə nəzarət üzrə tənzimləyici funksiyaların və vəzifələrin ötürülməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan ilə İspaniya arasında siyasi məsləhətləşmələr aparılıb

**Oktyabrın 11-də Madrid şəhərində Azərbaycan və İspaniya Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti iclası keçirilib.**

XİN-dən AZƏRTAC-a bildirilib ki, iclasda Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, İspaniya nümayəndə heyətinə isə xarici və qlobal işlər üzrə dövlət katibi Dieqo Belio Martinez rəhbərlik ediblər.

İclas zamanı Azərbaycan və İspaniya arasında siyasi, iqtisadi, humanitar sahələrdə əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Davamlı siyasi dialoqun əhəmiyyəti və bu xüsusda yüksəksəviyyəli görüşlərin və qarşılıqlı səfərlərin həyata keçirilməsinin vacibliyi vurğulanıb.

Müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün müvafiq müqavilə-hüquq bazasının inkişafının önəmi qeyd olunub.

Azərbaycan-İspaniya parlamentlərarası əlaqələrinin əhəmiyyəti də vurğulanaraq bu xüsusda qarşılıqlı səfərlərin, ikitərəfli və çoxtərəfli müstəvidə təmasların intensivləşdirilməsinin faydalı olacağı bildirilib.

İki ölkə arasında münasibətlərdə iqtisadi əməkdaşlığın, bu xüsusda qarşılıqlı ticarətin və ispan şirkətlərinin Azərbaycanda fəaliyyətinin əhəmiyyəti vurğulanıb. İqtisadi əlaqələrin inkişafı üçün ticarətin şaxələndirilməsi, investisiyaların təşviqi, alternativ enerji, nəqliyyat, yüksək texnologiyalar, kənd təsərrüfatı kimi sahələrdə əməkdaşlıq imkanlarından faydalanmağın məqsədəuyğunluğu qeyd olunub.

Humanitar sahədə əlaqələrin, o cümlədən təhsil, mədəniyyət sahələrində əməkdaşlığın, habelə turizm sektorunda mübadilələrin xalqlararası təmasların gücləndirilməsində faydalı olduğu qeyd edilib.

Məsləhətləşmələrdə beynəlxalq gündəlikdə dayanan qarşılıqlı maraq kəsb edən məsələlər, o cümlədən çoxtərəfli formatlarda əməkdaşlığın davam etdirilməsi də diqqət mərkəzində olub. 2024-cü ilin noyabr ayında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyasına (COP29) hazırlıq və görülən işlərlə bağlı qarşı tərəfə məlumat verilib.

Görüşdə qarşı tərəfə postmünaqişə dövründə bölgədəki vəziyyət və davamlı sülhün bərqərar olunması istiqamətində Azərbaycanın atdığı addımlar, habelə işğaldan azad edilmiş ərazilərimizdə mina problemi və orada həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri barədə məlumat verilib.

Səfər zamanı F.Rzayev həmçinin İspaniyanın digər rəsmi şəxsləri ilə görüşüb, tədqiqatçılar və ekspertlərlə "dəyirmi masa" formatında keçirilən müzakirələrdə iştirak edib.

# "Müasir mediada yeni trendlər: informasiya təhlükəsizliyi və peşəkarlıq meyarları" mövzusunda konfrans olub



**Oktyabrın 11-də Bakı Biznes Mərkəzində "Müasir mediada yeni trendlər: informasiya təhlükəsizliyi və peşəkarlıq meyarları" mövzusunda konfrans keçirilib. Konfransda Mətbuat Şurasının (MŞ) İdarə Heyətinin üzvləri, Medianın İnkişafı Agentliyinin rəhbərliyi, media subyektlərinin rəhbərləri və baş redaktorları iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Mətbuat Şurasının təşkilatçılığı ilə keçirilən konfransda əvvəlcə Dövlət himni səsləndirilib, şəhidlərin və dünyasını dəyişmiş jurnalistlərin xatirələri birdəqiqəlik sükutla yad edilib.

Mətbuat Şurasının sədri Rəşad Məcid, Prezident Administrasiyasının sektor müdiri Elmir Vəlizadə və Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov mövzu ilə bağlı fikirlərini bölüşüblər. Çıxışlarda Azərbaycan Prezidenti İlham Əliyevin bəzi beynəlxalq dairələrin ölkəmizə qarşı informasiya savaşı və ideoloji müharibə apardıqlarına dair fikirləri xatırladılıb. Bildirilib ki, jurnalistlər bu kimi çağırışlara, ölkəmizdəki sabitliyi və əmin-amanlığı pozmağa hesablanmış informasiya diversiyalarına adekvat yanaşmalı, hər zaman peşəkarlığı və həssaslığı əsas tutaraq çevik fəaliyyət göstərməlidirlər.

Konfransın əsas məruzəçisi, MŞ sədrinin müavini, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Ziféroğlu Azərbaycana qarşı aparılan informasiya müharibəsi və cəmiyyətin informasiya təhlükəsizliyinin təmin edilməsində medianın rolu mövzusunda çıxış edib.

Sonra MŞ İdarə Heyətinin üzvü, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli dezinformasiya ilə mübarizədə tətbiq edilən mexanizmlər, inzibati və hüquqi modellər barədə danışıb.

MŞ İdarə Heyətinin üzvləri Fərid Pərdəşünas Azərbaycan mediasının rəqəmsal transformasiyası şəraitindəki üstünlüklər və çatışmazlıqlar, Hacıbəy Heydərli isə sosial media ilə rəqabətdə mediadan gözləntilər mövzusunda fikirlərini səsləndiriblər.

Tədbirdə həmçinin Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin doktorantları Nurşərəf Tağıyevanın və Sünbül Zalovanın ölkə mediasında beynəlxalq jurnalistika trendlərinin tətbiqi problemləri mövzusunda birgə təqdimatları olub.

Sonra mövzu ətrafında fikir mübadiləsi aparılıb. Yekunda Azərbaycan Mətbuat Şurasının media subyektlərinə tövsiyələri açıqlanıb. Tövsiyələrdə "Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları"na riayət olunmasının, yeni medianın operativlik, sərhədsizlik, interaktivlik və sair kimi üstünlükləri nəzərə alınaraq, informasiya istehsalının daha da gücləndirilməsinin, dünyada gedən müasir texnoloji inkişafa uyğunlaşmağın və beynəlxalq jurnalistikadakı, xüsusilə Qərb jurnalistikasındakı yeni trend və tendensiyaların mənimsənilməsinin, dövlətin və cəmiyyətin maraq və mənafelərindən irəli gələn, onların uzlaşdırılmasına xidmət edən materialların sayının çoxaldılmasının və keyfiyyətinin yüksəldilməsinin, Azərbaycan dövlət dilinin normalarına əməl edilməsinin, əsasən proqramlar vasitəsilə hazırlanan tərcümə materiallarının keyfiyyətinə diqqətin artırılmasının vacibliyi vurğulanıb.

Tövsiyələrdə həmçinin sosial şəbəkələrdə yayımlanan materialların həqiqətə uyğunluğunun, səhihliyinin ciddi yoxlanılmasının, jurnalistlərin mövcud sahədəki manipulyasiyalara həssas yanaşmalarının, xüsusən yeni texnologiyaların, süni intellekt sistemlərinin dezinformasiya yayımında vasitə olduğunun nəzərə alınmasının zəruriliyi vurğulanıb. Bildirilib ki, media təmsilçiləri məzmun yaradıcılığında yeni texnologiyalardan, o cümlədən süni intellekt proqramlarından asılı duruma düşməməli, milli maraqların qorunması üçün ölkədə vahid və güclü ictimai rəy formalaşdırmalı, beynəlxalq media ilə əməkdaşlığa can atmalı, Azərbaycanın mövqelərini müdafiə edən məqalələrin və reportajların hazırlanmasına səy göstərməli, dünyada gedən aşkar informasiya müharibəsi şəraitində təcrübə mübadiləsinə üstünlük verməlidirlər.

# ICESCO-nun nümayəndə heyəti Ağdam şəhərinə səfər edib





**Oktyabrın 8-10-da ICESCO-nun İslam Dünyası İrs Komitəsinin Şuşada keçirilən 12-ci iclası çərçivəsində iştirakçılar Ağdama səfər ediblər.**

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, ICESCO-nun Mədəniyyət və kommunikasiya sektorunun rəhbəri, Tunisin keçmiş mədəniyyət naziri Məhəmməd Zeynalabdin, ICESCO-nun İslam Dünyası İrsi Mərkəzinin rəhbəri Vebber Ndoro, İslam Dünyası İrs Komitəsinin sədri Məhəmməd Əl-Aydarus, Özbəkistanın Mədəniyyət Araşdırmaları və Qeyri-Maddi Mədəni İrs üzrə Elmi-Tədqiqat İnstitutunun direktoru İroda Dadaşconova və digər rəsmilər, həmçinin komitəyə üzv ölkələrin təmsilçiləri əvvəlcə bərpa edilən İmarət Kompleksi ilə tanış olublar.

Qonaqlara İmarət Kompleksində yerləşən Qarabağ xanları Pənahəli xanın və İbrahimxəlil xanın, Qarabağın sonuncu hakimi Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı, şair, rəssam Xurşidbanu Natəvanın, Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslərin məzarları haqqında ətraflı məlumat verilib. İşğal dövründə erməni vandalizminin qurbanı olan qəbiristanlıq, İbrahimxəlil xanın türbəsi və Xurşidbanu Natəvanın dağıdılmış qəbirüstü abidələri göstərilib, italyan mütəxəssislərlə birgə aparılmış bərpa prosesindən söz açılıb.

İnteraktiv muzey kompleksində müxtəlif zamanlarda Cavanşirlər sülaləsinə həsr olunmuş məlumatlar, Qarabağ xanlığı haqqında tarixi faktlar, Xurşidbanu Natəvanın əl işlərinə və poemalarına həsr olunmuş audiovizual təqdimat, İmarət Kompleksinin işğal dövründə və işğaldan azad olunduqdan sonrakı vəziyyətini əks etdirən fotomateriallar maraqla qarşılanıb.

Sonra qonaqlar bərpa edilmiş Ağdam Cümə məscidinə gəliblər. Məscidin işğal dövründə vəziyyətini əks etdirən fotoşəkillərlə tanış olub, bərpa prosesi barədə məlumatlandırılıblar.

Rəsmilər toplantıya evsahibliyi etdiyinə görə Azərbaycan Respublikasına minnətdarlığını bildirib və törədilmiş vandalizmi pisləyiblər. İslam dünyası irsinin bərpasında və qorunub saxlanmasında kompleksdə həyata keçirilmiş bərpanın, eləcə də ümumilikdə Azərbaycan dövləti tərəfindən Qarabağda aparılan bərpa-quruculuq işlərinin nümunəvi olduğunu vurğulayıblar.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli oktyabrın 11-də Naxçıvan şəhərində vətəndaşların müraciətlərini dinləyib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyində keçirilən qəbulda nazir Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan vətəndaşların müraciətlərini dinləyib.

Vətəndaşlar əsasən mədəniyyət sahəsi ilə bağlı layihələr, təkliflər, məşğulluq və digər məsələlərlə bağlı müraciətlərini diqqətə çatdırıblar.

Mədəniyyət naziri vətəndaşların xahiş və təkliflərini dinləyərək qaldırılan hər bir məsələnin operativ şəkildə araşdırılması, qanunvericiliyə uyğun həlli ilə bağlı addımlar atılacağını bildirib.

Qəbulda iştirak edən şəhid ailələri və qazilərin qeyd etdikləri məsələlərə xüsusi diqqətlə yanaşılması, vaxtında və obyektiv baxılması ilə bağlı tapşırıqlar verilib.

# Sessiyada yeni milli fəaliyyət planlarının qəbul olunduğu bildirilib

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) Aparatının rəhbəri Aydın Səfixanlı ATƏT-in İnsan Ölçüsü Konfransının "Tolerantlıq və ayrı-seçkilik" mövzusunda keçirilmiş, qadınlara qarşı zorakılıq hallarının aradan qaldırılması və gender bərabərliyi mövzularına həsr olunmuş 10-cu plenar sessiyada çıxış edib.

Bu barədə AZƏRTAC-a ombudsman Aparatının Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, A.Səfixanlı çıxışında Azərbaycanda qadınlara qarşı zorakılığın aradan qaldırılması istiqamətində kompleks tədbirlərin həyata keçirildiyini, institusional mexanizmlərin yaradıldığını, yeni milli fəaliyyət planlarının qəbul olunduğunu bildirib.

Ombudsmanın qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmini sahələrində həyata keçirdiyi uğurlu fəaliyyəti barədə məlumat verən aparat rəhbəri ombudsman təsisatı tərəfindən dövlət orqanları, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə müvafiq sahədə sıx əməkdaşlığın mövcud olduğunu, təsisat tərəfindən gender əsaslı təlim mühitinin yaradılması istiqamətində ölkə üzrə maarifləndirmə tədbirlərinin həyata keçirildiyi diqqətə çatdırılıb.

Dünyanın müxtəlif bölgələrində baş verən silahlı münaqişələrin qadın hüquqlarının təmininə ciddi təsir göstərdiyini bildirən aparat rəhbəri Ermənistanın Azərbaycana qarşı işğal və etnik təmizləmə siyasəti nəticəsində qadın hüquqlarının kobud şəkildə pozulduğunu qeyd edib.

Eyni zamanda Birinci Qarabağ müharibəsində 267-si qadın olmaqla, 4 minə yaxın azərbaycanlının itkin düşdüyü bildirilib, İkinci Qarabağ müharibəsi zamanı əhalinin sıx məskunlaşdığı şəhərlərə və digər yaşayış məntəqələrinə edilmiş hücumlar nəticəsində dinc sakinlər, o cümlədən qadınlar və uşaqlar arasında ciddi itkilərin olduğu diqqətə çatdırılıb.

A.Səfixanlı həmçinin işğal dövründə Azərbaycan torpaqlarında minaların basdırıldığını, həmin minaların mülki şəxslərin, o cümlədən qadınların həyat və sağlamlığına təhlükə yaratdığını, eləcə də keçmiş məcburi köçkünlərin azad edilmiş ərazilərə təhlükəsiz qayıdışına, aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə ciddi maneə yaratdığını vurğulayıb.

# Milli Məclisin Sədri Sahibə Qafarova Tacikistan Konstitusiyasının 30 illik yubileyinə həsr olunmuş beynəlxalq parlament konfransında çıxış edib

**Milli Məclisin Sədri Sahibə Qafarova Tacikistan Respublikasına işgüzar səfəri çərçivəsində oktyabrın 11-də Tacikistan Konstitusiyasının 30 illik yubileyinə həsr olunmuş beynəlxalq parlament konfransında iştirak edib.**








Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdən əvvəl beynəlxalq konfransda iştirak edən nümayəndə heyətlərinin rəhbərləri Düşənbə şəhərində yerləşən "Dostluq" meydanında İsmoili Somoninin abidəsi önünə əklil qoyublar.

Sonra Tacikistan parlamentində Beynəlxalq konfrans öz işinə başlayıb.

Tədbirdə çıxış edən Milli Məclisin Sədri dəvətə, göstərilən qonaqpərvərliyə və bu tədbirin yüksək səviyyədə təşkilinə görə Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin Sədri Rüstəmi Emomaliyə və Ali Məclisin Nümayəndələr Palatasının Sədri Mahmadtoir Zokirzodaya minnətdarlığını bildirib. Spiker Sahibə Qafarova parlamentə və bütün Tacikistan xalqına Konstitusiyanın 30 illiyi münasibətilə təbriklərini çatdırıb.

Sahibə Qafarova Tacikistan xalqının Konstitusiyanın qəbulundan əvvəl 90-cı illərin əvvəllərində baş vermiş o çətin günləri heç vaxt unutmayacağını, bu gün isə sabit və dinamik inkişaf edən Tacikistanın ölkə Prezidenti Emoməli Şərifoviç Rəhmonun rəhbərliyi ilə sosial, iqtisadi və digər sahələrdə bir sıra uğurlar əldə etdiyini diqqətə çatdırıb.

Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan Tacikistanın əldə etdiyi bütün uğurları yüksək qiymətləndirir. Çünki Azərbaycan və tacik xalqlarını çoxəsrlik tarix, mədəniyyət, din, ortaq dəyərlər və ənənələr birləşdirir. Xalqlarımız həmişə sülh, əmin-amanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşayıblar.

Spiker bildirib ki, dövlətlərarası münasibətlərimiz məhz bu möhkəm təməl üzərində qurulub. O, bu münasibətlərin yaranmasında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Tacikistan Respublikasının Prezidenti cənab Emoməli Rəhmonun xüsusi rolunu qeyd edib.




Milli Məclisin Sədri diqqətə çatdırıb ki, 1992-ci ildə ölkələrimiz arasında diplomatik münasibətlər qurulandan indiyədək ikitərəfli əməkdaşlığın müxtəlif sahələrində fəal və ardıcıl qarşılıqlı fəaliyyət mövcuddur. Spiker Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti cənab Emoməli Rəhmon arasında şəxsi dostluq münasibətlərinin və qarşılıqlı anlaşmanın ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsinə və inkişafına mühüm töhfələrini xüsusilə qeyd edərək, ikitərəfli əsasda və beynəlxalq tədbirlər çərçivəsində fəal dialoq və müntəzəm görüşlərin keçirildiyini vurğulayıb.

O qeyd edib ki, Prezident İlham Əliyev 2023-cü ilin aprelində Tacikistana dövlət səfəri edib və həmin ilin sentyabrında Düşənbədə Mərkəzi Asiya Dövlət Başçılarının Beşinci Məşvərət Görüşündə fəxri qonaq qismində iştirak edib. Prezident Emoməli Rəhmon 2023-cü ilin noyabrında Bakıda BMT-nin Mərkəzi Asiya ölkələrinin iqtisadiyyatları üzrə Xüsusi Proqramının Sammitində iştirak edib, 2024-cü ilin mayında isə Azərbaycana dövlət səfəri edib. Bu təmaslar zamanı aparılan danışıqlar və əldə olunan razılaşmalar, imzalanmış çoxsaylı sənədlər ikitərəfli əməkdaşlığın bütün sahələrində fəal qarşılıqlı fəaliyyətin inkişafına güclü təkan verib. Emoməli Rəhmonun Azərbaycana dövlət səfəri zamanı "Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə"nin imzalanması isə ölkələrimiz arasında münasibətləri keyfiyyətcə tamamilə yeni səviyyəyə qaldırıb.

Milli Məclisin Sədri bildirib ki, dövlət qurumlarımız yüksək səviyyədə qəbul edilmiş qərarların birmənalı şəkildə praktiki icrasını reallaşdırır ki, bu da iqtisadi, ticarət, nəqliyyat, humanitar və digər sahələrdə ardıcıl işlərdə özünü göstərir.

Spiker Sahibə Qafarova çıxışında onu da qeyd edib ki, ölkələr arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri də parlamentlərin qarşılıqlı fəaliyyətidir. Biz parlamentarilər xalqımızı təmsil edirik, işimiz isə onun iradəsini əks etdirir.

Azərbaycan və Tacikistan parlamentləri arasında əlaqələrdən danışan Sahibə Qafarova bildirib ki, qanunverici orqanlarımız arasında həm ikitərəfli səviyyədə, həm də Parlamentlərarası İttifaq, MDB Parlamentlərarası Assambleyası, İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqı, Asiya Parlament Assambleyası və İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası kimi parlamentlərarası təşkilatlar çərçivəsində çox səmərəli əməkdaşlıq qurulub.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, parlament sədrlərinin qarşılıqlı səfərləri, dostluq qruplarının fəaliyyəti bu əməkdaşlığın inkişafına töhfə verir. Rüstəmi Emomalinin 2022-ci ildə Azərbaycana rəsmi səfəri zamanı imzalanmış "Azərbaycan Respublikasının Milli Məclisi ilə Tacikistan Respublikası Ali Məclisinin Milli Məclisi arasında əməkdaşlıq haqqında Saziş" də bizim ölkələrimiz arasında siyasi, iqtisadi, elmi-texniki, sosial-mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinə, möhkəmlənməsinə kömək etmək niyyətlərimizi təsdiqləyir.

Çıxışının sonunda Milli Məclisin Sədri Sahibə Qafarova bir daha parlamenti və qardaş Tacikistan xalqını Konstitusiyanın 30 illiyi münasibətilə təbrik edib, onlara uğurlar və firavanlıq arzulayıb.

***"Azərbaycan"***

# Azərbaycan-Özbəkistan münasibətləri dinamik inkişaf edir

**Tacikistan Respublikasında işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova Düşənbə şəhərində Özbəkistan Respublikası Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisə seçkilərin uğurla keçirilməsi və yenidən Azərbaycan parlamentinin Sədri seçilməsi münasibətilə Sahibə Qafarovanı təbrik edən Tənzilə Narbayeva əminliyini ifadə edib ki, qarşıdakı dövrdə də iki ölkənin qanunverici orqanları arasında yüksəksəviyyəli əməkdaşlıq və sıx təmaslar davam etdiriləcək.

Görüşdə dost və qardaş ölkələrimiz arasında münasibətlərin dinamik inkişafından məmnunluq ifadə olunub. Qeyd edilib ki, xalqlarımız arasında oxşar dini və mənəvi dəyərlər, dil birliyi əlaqələrimizin daha da genişlənməsinə böyük töhfələr verir. Spiker Sahibə Qafarova Azərbaycan və Özbəkistan arasında münasibətlərin ölkələrimiz müstəqillik əldə etdikdən sonra yeni mərhələyə yüksəldiyini diqqətə çatdırıb. Tərəflər ölkələrimiz arasında bir çox sahələri əhatə edən geniş əlaqələrin inkişafında dövlət başçılarının rolunu xüsusi qeyd ediblər.

Söhbət zamanı dost ölkələrimiz arasında əməkdaşlığın dinamik inkişafının qanunvericilik orqanları arasında da əlaqələrin daha da genişlənməsini şərtləndirdiyi diqqətə çatdırılıb. Parlament sədrləri son illərdə həm Azərbaycanda, həm də Özbəkistanda keçirilən ikitərəfli görüşlərini məmnunluqla xatırlayaraq, qarşılıqlı təmasların, səfərlərin əlaqələrimizə verdiyi mühüm töhfələri vurğulayıblar. Parlamentlərimiz arasında əməkdaşlığın daha da dərinləşməsində cari ildə imzalanan Azərbaycan Respublikası Milli Məclisi ilə Özbəkistan Respublikası Ali Məclisi Senatı arasında parlamentlərarası əməkdaşlığın inkişafına dair 2024-2025-ci illər üçün praktiki tədbirlər planının ("Yol Xəritəsi") əhəmiyyəti xüsusilə qeyd edilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər mövzular haqqında fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Qazaxıstan Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verir



**Tacikistan Respublikası Konstitusiyasının qəbul olunmasının 30-cu ildönümü münasibətilə təşkil olunan Beynəlxalq Parlament Konfransında iştirak etmək məqsədilə bu ölkədə işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova Düşənbə şəhərində Qazaxıstan Respublikası Parlamenti Senatının Sədri Maulen Aşımbayev ilə görüşüb.**

Görüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin inkişafından məmnunluq ifadə olunub.

Senatın Sədri Maulen Aşımbayev Milli Məclisə seçkilərin uğurla keçirilməsi və yenidən Azərbaycan parlamentinin Sədri seçilməsi münasibətilə Sahibə Qafarovanı təbrik edib. O, Azərbaycanın ölkəsi üçün çox mühüm və etibarlı tərəfdaş olduğunu və Qazaxıstanın Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini bildirib. Bu istiqamətdə qanunverici orqanlarımız arasında əməkdaşlığın əhəmiyyəti diqqətə çatdırılıb.

Milli Məclisin Sədri Sahibə Qafarova təbriklərə görə minnətdarlığını bildirərək, Qazaxıstan Respublikası Parlamenti Senatının Sədri ilə bundan əvvəl keçirdiyi görüşləri xatırladıb. O, bu görüşlərin və aparılan danışıqların qanunverici orqanlarımız arasında münasibətlərin dərinləşməsinə töhfə verdiyini bildirib. Spiker Sahibə Qafarova xalqlarımızı ortaq tarix, mədəni və mənəvi dəyərlərin birləşdirdiyini, müstəqillik illərində isə ölkələrimiz arasında münasibətlərin daha da dərinləşdiyini ifadə edib. O, əlaqələrin hazırkı yüksək səviyyədə olmasında dövlət başçılarımızın qarşılıqlı fəaliyyətinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Qeyd olunub ki, dövlət başçılarımızın sıx münasibətləri ölkələrimiz arasında əlaqələrə böyük töhfə verir, ikitərəfli əməkdaşlığın yüksələn xətlə inkişafına və daha da güclənməsinə xidmət edir.

Görüşdə son illərdə parlament rəhbərləri səviyyəsində həyata keçirilən mütəmadi qarşılıqlı səfərlərin və görüşlərin əlaqələrin inkişafına xüsusi töhfəsi qeyd olunaraq, hər iki ölkənin parlamentlərində mövcud olan dostluq qruplarının fəaliyyəti də müsbət qiymətləndirilib. Bildirilib ki, deputatların qarşılıqlı səfərləri, nüfuzlu beynəlxalq parlament təşkilatlarında mütəmadi görüşlərin keçirilməsi əlaqələrimizin daha da inkişafı və tərəfləri maraqlandıran məsələlərin müzakirəsi baxımından əhəmiyyətlidir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Bələdiyyələrdə idarəetmənin effektivliyi artırılacaq

**Oktyabrın 11-də Milli Məclisin Regional məsələlər komitəsinin növbəti iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, komitə sədri Siyavuş Novruzov iclasda üç məsələnin - "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında", "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa Əlavə - "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə, "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələrinin müzakirəyə çıxarıldığını deyib.

Siyavuş Novruzov vurğulayıb ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi bütün sahələrdə olduğu kimi, yerli özünüidarəetmə sisteminin yenidən qurulması prosesinə də təkan verdi. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun rəhbərliyi altında müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi ölkədə demokratiyanın inkişafı, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, idarəetmədə səmərəliliyin artırılması istiqamətində atılan önəmli addımlardan oldu. Məhz yeni Konstitusiyanın qəbulundan sonra Azərbaycanda ilk dəfə müasir yerli özünüidarəetmə institutunun - bələdiyyə orqanlarının əsası qoyuldu, bu sahədə hüquqi bazanın təkmilləşdirilməsini təmin edən və bələdiyyələrin fəaliyyətinin hüquqi tənzimlənməsini müəyyən edən normativ hüquqi aktlar qəbul edildi.

Bildirilib ki, Prezident İlham Əliyev tərəfindən aparılan daxili və xarici siyasət nəticəsində ölkəmizin suverenliyi və ərazi bütövlüyü bərpa edilib, beynəlxalq nüfuzu daha da möhkəmlənib. Torpaqlarımızın işğaldan azad edilməsi Azərbaycan tarixində ilk dəfə olaraq bu ərazilərdə bələdiyyə seçkilərinin keçirilməsinə imkan verir. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü islahatlar müasir dövrdə bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsinə, yerli sosial-iqtisadi məsələlərin həllində onların iştirakının genişləndirilməsinə, bununla da yerli özünüidarəetmədə səmərəliliyin artırılmasına xidmət edir.

İclasda qeyd olunub ki, "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 5 aprel 2024-cü il tarixli Qanuna əsasən, ölkə üzrə sonuncu bələdiyyə seçkilərinin keçirildiyi ildən sonrakı 4 ilin son 2 ili ərzində əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələr onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla Milli Məclisin qərarı ilə digər bələdiyyələrlə birləşdirilir. Bu qanunun tələblərinə əsasən, birləşmə ilə bağlı bələdiyyələrin Milli Məclisə təqdim etdikləri rəylərə baxılmış və nəticədə 1400 bələdiyyənin birləşdirilməsi yolu ilə ölkə ərazisində bələdiyyələrin ümumi sayının 684-ə endirilməsi nəzərdə tutulur.

Siyavuş Novruzov yuxarıda göstərilənlərlə əlaqədar iki sənədin - "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" və "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa Əlavə - "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə qanun layihələrinin hazırlandığını söyləyib. O bildirib ki, bu qanun layihələri bələdiyyələrdə idarəetmənin effektivliyinin artırılmasına, resurslardan qənaətlə istifadə edilməsinə, xidmətlərin keyfiyyətinin artırılmasına, regionların balanslı inkişafının təmin edilməsinə, bələdiyyələr arasında daha sıx əməkdaşlığın qurulmasına hədəflənib.

İclasda habelə "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi də üçüncü oxunuşda nəzərdən keçirilib. Bildirilib ki, qanunvericilik təşəbbüsü qaydasında ölkə Prezidenti tərəfindən təqdim olunan sənəddə bələdiyyələrin fəaliyyəti sahəsində yaranan münasibətlərin tənzimlənməsi, bu istiqamətdə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı dəyişikliklər nəzərdə tutulur.

Müzakirələr zamanı komitənin sədr müavini Nurlan Həsənov, üzvləri Tahir Rzayev, Arzuxan Əli-zadə, Kamran Bayramov, Məzahir Əfəndiyev, Elşən Musayev, Vasif Qafarov, Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin Bələdiyyələrlə iş sektorunun müdiri Fərid Əliyev, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Baş İdarəsinin rəisi Elmin Həsənov çıxış edərək təqdim edilən məsələlər barədə öz fikirlərini, qeyd və təkliflərini açıqlayıblar, ölkəmizdə yerli özünüidarəetmə sahəsində həyata keçirilən davamlı islahatların əhəmiyyətindən bəhs ediblər.

Müzakirələrin sonunda hər üç qanun layihəsi Milli Məclisin iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları

**Hər bir dövlətin apardığı xarici siyasət, beynəlxalq və regional qurumlardakı fəallığı, hamılıqla müəyyən edilmiş dəyər və prinsiplərə münasibəti onun dünyadakı yerini və rolunu müəyyən edir. Hazırda ölkəmiz müstəqil xarici siyasət kursu həyata keçirir, bütün məsələlərdə beynəlxalq güclərin diktəsi ilə deyil, məhz öz maraqları əsasında formalaşmış qətiyyətli mövqe sərgiləyir.**



## Azərbaycanın qlobal nüfuzu güclənir

### Ölkələr arasında bütün əlaqələr qarşılıqlı etimad üzərində qurulur

Azərbaycan uzun illərdir ki, beynəlxalq münasibətlər sistemində həm də etibarlı tərəfdaş kimi tanınır və bu imicini getdikcə daha da möhkəmləndirir. Ölkəmiz həyata keçirilən siyasətin effektivliyi, sosial-iqtisadi uğurları, regional və qlobal proseslərə təsir imkanları, təşəbbüskarı və əsas icraçılarından olduğu layihələri ilə hazırda böyük bir coğrafiyanın çox güclü və nüfuzlu aktoru kimi qəbul edilir. Bu baxımdan respublikamızın Rusiya, Türkiyə, Özbəkistan, Qazaxıstan, Belarus, Çin, Pakistan və başqa dövlətlərlə rəsmi səviyyədə müttəfiqlik münasibətlərinə malik olması, müxtəlif sahələr üzrə bir çox sənədlərin imzalanması ölkəmizin tarixi siyasi nailiyyətidir. Azərbaycan dövləti bununla nəinki tərəfdaşlarının, eyni zamanda siyasi müttəfiqlərinin də coğrafiyasını genişləndirir. Bu ölkələrin Azərbaycanla strateji müttəfiq olmağa böyük maraq göstərməsi isə onun regiondakı həlledici rolunu, dövlətimizə, Prezident İlham Əliyevə böyük inamlarının olduğunun təcəssümüdür.

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının Moskvada keçirilən iclasındakı iştirakı yeni əməkdaşlıq imkanlarına, davamlı perspektivlərə geniş yollar açdı.

#### Tarixi fürsətlər, birgə hədəflər

Rusiya ilə münasibətlərin inkişafı Azərbaycan üçün hər zaman mühüm məsələlərdən olub. Prezident İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında çıxış edərək bu ölkənin dost xalqına yeni uğurlar və nailiyyətlər arzuladı. Daha sonra MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilməsini xüsusi vurğuladı. Laçın Azərbaycanın 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmuş şəhərlərindən biridir və dəmək olar ki, tamamilə dağıdılmışdı. Bu illər ərzində həmin məkan ağrı-acılarımızın, yurd həsrətində qəlbimizdə qövr edən yaraların, nisgilin, qubarın rəmzi idi. Bu gün Laçın artıq bərpa olunub. Onun müasir görkəmi şəhərin nə qədər böyük zövqlə, sevgi ilə qurulduğundan xəbər verir. Həm insanların rahat yaşaması, həm də gözəl məkanın müasir simasının Azərbaycanın nailiyyətləri ilə uyğunluğu üçün böyük sevgi və əzmkarlıq ortaya qoyulur. "Burada yeni həyat başlayıb, keçmiş məcburi köçkünlər öz yurdlarına qayıdıblar. Laçının MDB-nin mədəniyyət paytaxtı elan edilməsi həm laçınlılar, həm də bütün Azərbaycan xalqı tərəfindən böyük minnətdarlıqla qarşılanıb" - Azərbaycan Prezidenti çıxışında xüsusi bildirdi.

Növbəti ildə Azərbaycanda həm də III MDB Oyunları keçiriləcək. Gəncə şəhəri idman paytaxtına çevriləcək. Yarışlar, həmçinin respublikamızın 10-dan çox şəhərində baş tutacaq.

Dövlətimizin başçısı bir aydan sonra Azərbaycanın ən böyük beynəlxalq tədbirə - COP29 iqlim konfransına evsahibliyi edəcəyini vurğuladı: "Biz 200-ə yaxın ölkənin bu konfransın Bakıda keçirilməsi haqqında yekdil qərarını bütün dünya ictimaiyyətinin Azərbaycana hörmətinin əlaməti kimi qiymətləndiririk".

Daha sonra mühüm bir məsələ - MDB dövlət başçılarının İkinci Dünya müharibəsində Qələbənin 80 illiyi ilə bağlı müraciəti qəbul edildi.

#### Dünya tarixinin ən qanlı savaşı

1941-ci ilin 22 iyul günü dünyanın tarixi dəyişəcək an idi. Azərbaycan Prezidenti İlham Əliyev yüz minlərlə Azərbaycan övladının qanı bahasına əldə olunmuş faşizm üzərində qələbə ilə bağlı ölkəmizin mövqeyini həmişə qətiyyətlə dilə gətirir: "Biz Böyük Vətən müharibəsi haqqında həqiqətin təhrif edilməsi, tarixin yenidən yazılması, faşizmin və faşistlərin qəhrəmanlaşdırılması cəhdlərinə qarşı qətiyyətlə mübarizə aparırıq. Bizim mövqelərimiz həm tarixi həqiqətə, ədalətə, həm də buna əsaslanır ki, gələcək nəsillər kimin təcavüzkar və kimin təcavüz qurbanı olmasına, kimin qalib gəlməsinə və bu qələbənin nəyin bahasına qazanılmasına heç vaxt şübhə etməsinlər".

Dövlətimizin başçısı MDB Dövlət Başçıları Şurasının iclasındakı çıxışında bildirdi ki, Azərbaycan qələbəyə sanballı töhfə verib. Həmin dövrdə 3 milyon 400 min əhalisi olan Azərbaycandan cəbhəyə 700 minə yaxın insan yollanıb. Döyüş meydanlarında 350 min nəfər həlak olub, 130 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Müharibə illərində Azərbaycan neftçiləri cəbhəyə neft və neft məhsullarının 80 faizini, hərbi texnika üçün yağların 96 faizini tədarük edib. Bütün bunlar həmin dövrdə Azərbaycanda istehsal olunub, göstərilən məhsulların o vaxtlar SSRİ-də ümumi istehsalının faizidir. Azərbaycanda 130 növdən çox silah, sursat və texnika, o cümlədən məşhur "Katyuşa"lar, "Yak-3" qırıcıları istehsal edilirdi.

Bakıda 41 hərbi hospital fəaliyyət göstərirdi, 440 min yaralı müalicə alırdı. 1942-ci ilin martında, həmçinin Taqanroq adı ilə tanınan 416-cı Azərbaycan atıcı diviziyasının döyüşçüləri Şimali Qafqazdan başlayan döyüş yolunu Berlində başa çatdırdılar. 416-cı Azərbaycan atıcı diviziyası 1945-ci il aprelin 21-də birincilər sırasında Berlinin girəcəyinə daxil oldu. Mayın 2-də diviziyanın döyüşçüləri polkovnik Rəşid Məcidovun komandanlığı altında Qələbə bayrağını Brandenburq darvazası üzərinə sancdılar.

416-cı milli diviziya cəbhədə 30 ay fasiləsiz döyüşlər aparmış, Bakıdan Berlinə qədər minlərlə kilometr yol qət etmiş, 6 Avropa ölkəsindən - Rumıniyadan, Bolqarıstandan, Yuqoslaviyadan, Macarıstandan, Avstriyadan, Çexoslovakiyadan və 50-dən çox böyük və orta çaydan keçərək düşmənin 23 mindən çox canlı qüvvəsini, 28 hərbi təyyarəsini, 113 tankını və zirehli maşınını, 549 səhra topunu, 311 minomyotunu, 1152 pulemyotunu, 200 avtomaşınını, 219 parovozunu, 7400 vaqonunu, 70 anbarını məhv etmiş, küllü miqdarda qənimət ələ keçirmişdi.

Bu diviziyanın döyüş yolu üzərindəki müxtəlif şəhərlərdə onun qəhrəmanları şərəfinə xatirə abidələri ucaldılıb. Taqonroq şəhərinin yaxınlığındakı Sanbek yüksəkliyində diviziyanın xatirə ansamblı yaradılıb. Taqonroqda, Kiyevdə, Nikolayevdə, Odessa şəhərlərində və Moskvada diviziyaya həsr olunmuş şöhrət muzeyləri təşkil edilib. Bütün bunlar Azərbaycan tarixinin daha bir şanlı səhifəsidir. Azərbaycan Prezidenti İlham Əliyev dedi: "Bizim 9 may ümumi Qələbəmiz MDB-yə üzv dövlətlərin gələcək əməkdaşlığının mühüm amilidir. Azərbaycan bu əməkdaşlığa böyük əhəmiyyət verir və bundan sonra da qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcək".

#### Real addımlar

Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü oldu. Rusiya Prezidentinin avqust ayında Azərbaycana dövlət səfəri, Prezident İlham Əliyevlə keçirdiyi yüksəksəviyyəli görüş və müzakirələr, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinin mühüm əhəmiyyəti barədə danışıldı. Həmin səfərdən sonra ikitərəfli münasibətlərin dinamikasının kifayət qədər artdığının nəzərə çarpması qeyd olundu. Görüşdə bildirildi ki, avqust ayında Bakıda qəbul olunmuş qərarların yerinə yetirilməsi çərçivəsində artıq müxtəlif strukturların nümayəndələri səviyyəsində, hökumət üzvləri əsasında çoxlu təmaslar olub.

Son onilliklər ərzində Azərbaycan və Rusiya münasibətlərinin uğurunu təmin edən əsas amillərdən biri budur ki, ölkələrimiz arasında əlaqələr dövlətlərin suverenliyi, ərazi bütövlüyü, bərabərhüquqluq və bir-birinin daxili işlərinə müdaxilə etməmək prinsipləri əsasında qurularaq inkişaf etdirilməkdədir. Ona görə də Azərbaycanla Rusiya arasında dövlətlərarası dialoq yüksək səviyyədədir. Rusiya regionun ən böyük ölkələrindən biridir, Azərbaycan bu ölkə ilə tarixən sıx iqtisadi-ticarət, siyasi, humanitar əlaqələrə malikdir. Dünyanın aparıcı dövlətləri sırasına daxil olan Rusiya BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri kimi çoxqütblü dünya nizamında xüsusi rol oynayır.

İqtisadi-ticari əlaqələrdə sənaye, kənd təsərrüfatı, turizm və tranzit axınının, yük daşımalarının həcminin artması xüsusilə mühümdür. Eyni zamanda buradа məxsusi vurğulanmalı bir məqam da var ki, Azərbaycan Rusiya ilə münasibətlərdə beynəlxalq normaların tələblərinə yüksək həssaslıqla əməl edir, qlobal əməkdaşlıq mühitindəki etibarlı tərəfdaş imicini hər zaman qoruyub saxlayır. Rusiyaya qarşı tətbiq olunmuş beynəlxalq sanksiyaların müəyyən etdiyi çərçivələri, bəzi məhsulların ixracı ilə bağlı məhdudiyyətləri nəzərə alır. Bu baxımdan Rusiya ilə iqtisadi-ticarət əlaqələrinin yüksəlməsi hər hansı kənar amillərə deyil, məhz iki ölkənin mövcud potensialına əsaslanır. Görüşdə xüsusi vurğulandı ki, avqust ayında Bakıda nəzərdə tutulan layihələrin, iki ölkə arasında əldə olunmuş həmin razılaşmaların yerinə yetirilməsi üzrə konkret addımları müəyyənləşdirmək üçün indi yaxşı fürsətdir.

#### Humanitar sahədə əlaqələr inkişaf edir

Azərbaycanla Rusiya arasında humanitar əməkdaşlıq sahəsinə də xüsusi diqqət yetirilir. Avqust ayında hər iki dövlət başçısının mətbuata verdikləri bəyanatlarda əlaqələrin yüksək səviyyədə olduğu qeyd edilir. Hazırda Azərbaycanda rus dilində tədris aparılan 324 məktəb var, onlarda 160 min şagird təhsil alır. 800 mindən çox şagird rus dilini ikinci dil kimi öyrənir. Azərbaycanın 26 ali təhsil müəssisəsində 15 mindən artıq tələbənin təhsil aldığı rus dili bölmələri mövcuddur.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.M.Seçenov adına Tibb Universitetinin filialları uğurla fəaliyyət göstərir.

Bir sözlə, humanitar əlaqələr fəal şəkildə genişlənir. İyun ayında Azərbaycanda Rusiya Mədəniyyəti Günləri uğurla keçirildi, bu çərçivədə sərgilər, konsertlər, teatr tamaşaları, başqa parlaq mədəniyyət hadisələri oldu. Rusiya Prezidentinin bəyanatında xüsusi vurğulandı ki, Azərbaycanda rus dilindən hər yerdə və sərbəst istifadə olunur. Azərbaycan Respublikasının rəhbərliyi bu tendensiyanı hərtərəfli dəstəkləyir.

Geniş tərkibdə görüş əsnasında müzakirə olunan məsələlərdən biri də Bakıda Rusiya-Azərbaycan Universitetinin yaradılması təşəbbüsü idi. Azərbaycan rəhbərliyi tərəfindən bu ideya dəstəklənib. Sankt-Peterburq Dövlət Universiteti layihəyə qoşulmağa hazırdır. Xoş ənənəyə uyğun olaraq, Azərbaycanın nümayəndə heyəti sentyabrda Sankt-Peterburq Mədəniyyət Forumunda iştirak ediblər.

#### Azərbaycan: dialoq məkanı

Rusiya ilə əməkdaşlıq nümunəsi göstərir ki, bu gün Azərbaycan müstəqil siyasətini uğurla davam etdirir, öz milli maraqları çərçivəsində bütün tərəflərlə əməkdaşlığın inkişafına nail ola bilir. Azərbaycan Respublikası çox az sayda dövlətlərdəndir ki, eyni zamanda həm Qərb ölkələri ilə, həm də Rusiya və digər ölkələrlə yaxşı əlaqələrə, qarşılıqlı faydalar yaradan münasibətlərə malikdir. Azərbaycan həm sürətlə inkişaf edən 5 ölkədən ibarət qrupun - Braziliyanın, Rusiyanın, Hindistanın, Çinin, Cənubi Afrika Respublikasının yaratdığı BRICS təşkilatının fəaliyyətində, eləcə də ŞOS kimi platformalarda iştirak edir, həm də Avropa İttifaqı və digər aparıcı Qərb institutları ilə əməkdaşlıq əlaqələrini uğurla inkişaf etdirir. Eyni zamanda ölkəmiz Qoşulmama Hərəkatının fəal üzvlərindən biri kimi hər hansı hərbi-siyasi platformalardan kənar durmağı bacarır.

Azərbaycan münaqişə edən ölkələrə münasibətdə də neytrallığını, obyektivliyini qoruyur. Bütün münaqişəli məsələlərin beynəlxalq hüquq normaları, ölkələrin ərazi bütövlüyü prinsipi, ədalət meyarları əsasında həllinin tərəfdarı kimi çıxış edir. Ölkəmizin hazırda həm Rusiya, həm də Ukrayna ilə yaxın münasibətlərə malik olması Azərbaycan rəhbərliyinin belə məsələlərdə yüksək diplomatik məharətlə davranmasına nümunədir. Bu mövqe beynəlxalq səviyyədə də təqdir olunur və Azərbaycan kimi ölkələrin, cənab İlham Əliyev kimi liderlərin varlığı bir çox halda münasibətlərin nizama salınmasında böyük fayda verir.

Moskvada keçirilən görüşdə Rusiya Prezidenti Vladimir Putin dövlətimizin başçısı cənab İlham Əliyevi oktyabrın 23-24-də Kazanda BRICS xətti ilə BRICS plyus-autriç tədbirlərində gözlədiklərini bildirdi. Göstərildi ki, orada faydalı görüşlər keçiriləcək, bu təşkilatın iştirakçı ölkələrinin bütün liderləri ilə işləmək mümkün olacaq. Bura BRICS-lə əməkdaşlıq etməyə çalışan çox sayda ölkə dəvətlidir. İyirmi beş həmkarımız öz iştirakını təsdiq edib. Ona görə də belə platformalarda işləmək hər zaman rahatdır və bu tədbirin iştirakçılarını maraqlandıran məsələlərin bütöv dairəsi üzrə danışıqlar aparmaq mümkündür. Prezident İlham Əliyev öz iştirakını təsdiq etmiş həmin 25 ölkə arasında olduğunu bildirdi.

#### Ağ Ev ikili standartlardan əl çəkməlidir

Prezident İlham Əliyev Moskvada "Rossiya-1" televiziya kanalına müsahibə verdi. Dövlətimizin başçısı müxbirin "sanksiyalar siyasətinin prinsipcə hər hansı perspektivləri varmı" sualını cavablandırarkən dedi: "Onun, ümumiyyətlə, mövcud olmağa haqqı yoxdur, xüsusilə də bu sanksiyalar qeyri-qanuni olduqda və tamamilə əsassız və selektiv şəkildə tətbiq edildikdə. Ona görə də biz istənilən sanksiyalara qəti şəkildə qarşıyıq və hesab edirəm ki, beynəlxalq ictimaiyyət öz mövqeyini vahid qaydada bildirməlidir. Biz milli səviyyədə özümüzə qarşı, həm də təkcə bizə deyil, tətbiq olunan bütün sanksiyalara münasibətdə bu mövqeyi ifadə edirik".

Bu gün qüdrətli orduya, güclü iqtisadiyyata malik olan qalib Azərbaycanı hər hansı sanksiya ilə yolundan döndərmək mümkün deyil.

Dövlətimizin başçısının son vaxtlarda ABŞ-yə qarşı sərt bəyanatları Ağ Evin ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasına qeyri-adekvat münasibəti, respublikamıza qarşı qondarma insan haqları ittihamları ilə bağlıdır. Məlum olduğu kimi, bu günlərdə 60 ABŞ konqresmeni, dövlət katibi Entoni Blinkenə müraciət edərək, Azərbaycana qarşı addımlar atılmasını tələb etmişdilər. Bu da nə qədər riyakar siyasət yürüdüldüyünü, məsələlərə ikili standartlarla yanaşıldığını göstərir və belə münasibətlər ikrah doğurur.

Azərbaycan Prezidenti, əslində, hər kəsin bildiyi, amma dilə gətirməyə cəsarət göstərmədiyi aydın həqiqətləri özünəməxsus qətiyyətlə dünya ictimaiyyətinin və ABŞ rəsmilərinin diqqətinə çatdırır. Onları öz davranışları barədə düşünməyə, ABŞ kimi böyük bir dövləti ikili standartlara, riyakar siyasətə görə salmamağa çalışır.

Cənab İlham Əliyevin "Rossiya-1" telekanalına müsahibəsində səsləndirdiyi fikirlər də ümumilikdə, Qərbin, xüsusilə ABŞ-nin, regionda göstərdiyi mövqeyə qarşı kəskin reaksiyanın ifadəsidir. Çünki bu ikili standartlar yekun nəticədə heç də xoş məqsədlərə xidmət etmir. Bu mövqeyi sərgiləyən ölkələr öz maraqları naminə bölgəmizi yeni təhlükələrə, təhdidlərə, insan faciələrinə sürükləmək istəyirlər.

Dünya sürətlə dəyişir, ABŞ anlamalıdır ki, birqütblü dünya anlayışı artıq keçmişdir. Bölgələrin maraq dairələrinə bölünməkdə olduğu dünyada, hər ölkənin öz milli maraqlarını təmin etməyə çalışdığı çağda artıq heç bir güc regional bölgə marağını, o cümlədən Cənubi Qafqazdakı regional maraqlarını təzyiq üzərində qura bilməz. Bu həqiqəti anlatmaq Cənubi Qafqazın ən böyük dövləti və əsas söz sahibi olan Azərbaycanın missiyasıdır.

Bu gün qüdrətli orduya, güclü iqtisadiyyata malik olan qalib Azərbaycanı hər hansı sanksiya ilə yolundan döndərmək mümkün deyil. 44 günlük Vətən müharibəsindən sonra Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin və onun əsasını təşkil edən beş fundamental prinsipin təşəbbüskarı məhz Azərbaycan tərəfidir. Ona görə də ölkəmiz yalnız regional sülh gündəliyini dəstəkləyir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

---

## III MDB Oyunlarının Azərbaycanda keçirilməsi qərarı ölkəmizə olan yüksək etimadın göstəricisidir

**"Azərbaycan Respublikası MDB çərçivəsində fəal siyasət həyata keçirir. Ölkəmiz təşkilatın iştirakçı-dövlətləri ilə əməkdaşlığın ikitərəfli əsasda davam etdirilməsinə də üstünlük verir. Bununla yanaşı, Azərbaycan MDB çərçivəsində siyasi, iqtisadi və humanitar sahələrdə ölkəmiz üçün maraq kəsb edən məsələlər üzrə əməkdaşlığın davam etdirilərək, bu təşkilatın iştirakçı-dövlətlər arasında dialoq məkanı kimi önəmini dəyərləndirir".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib.

O bildirib ki, ötən dövrdə MDB özünü müstəqil dövlətlərin səmərəli əməkdaşlıq platforması kimi təsdiqləyib. Quruma daxil olan dövlətlər bir sıra istiqamətlər üzrə öz fəaliyyətlərini uzlaşdırıblar ki, bu da regional təhlükəsizliyin təmin olunmasına və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığın dərinləşməsinə öz müsbət təsirini göstərib. O cümlədən terrorizm, ekstremizm, narkotiklərin qeyri-qanuni dövriyyəsi, iqtisadi sahədə cinayətkarlıq, qanunsuz miqrasiya, insan alverinə qarşı mübarizə məsələləri MDB-yə daxil olan dövlətlərin qarşılıqlı fəaliyyətinin əsas istiqamətlərini təşkil edib. Ötən dövrdə birliyin hüquqi-müqavilə bazası möhkəmlənib.

S.Fətəliyevanın sözlərinə görə, oktyabrın 8-də Prezident İlham Əliyevin Moskvada MDB Dövlət Başçıları Şurasının iclasında iştirakı və çıxışı dövlətimizin bu beynəlxalq platformaya verdiyi önəmin göstəricisidir. Təqdirəlayiq haldır ki, MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilib. Prezident İlham Əliyev bununla bağlı çıxışında bildirib: "Laçın Azərbaycanın 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmuş şəhərlərindən biridir və demək olar ki, tamamilə dağıdılmışdı. Bu gün Laçın artıq bərpa olunub. Burada yeni həyat başlayıb, keçmiş məcburi köçkünlər qayıdıblar. Laçının MDB-nin mədəniyyət paytaxtı elan edilməsi həm laçınlılar, həm də bütün Azərbaycan xalqı tərəfindən böyük minnətdarlıqla qarşılanıb".

Milli Məclisin deputatı qeyd edib ki, MDB dövlətləri arasında əməkdaşlığın mühüm bir istiqaməti humanitar-mədəni sahə təşkil edir. Bütün bunlar isə xalqları bir-birilərinə daha yaxın edir və onları zənginləşdirir. Ötən dövrdə MDB çərçivəsində humanitar sahədə əməkdaşlığın möhkəmlənməsini hədəfləyən, gənclər siyasətinə aid, eləcə də təhsil, səhiyyə, mədəniyyət, idman və turizm sahələrində uğurlu layihələrin reallaşdırılması müsbət haldır. Bu baxımdan, növbəti il Azərbaycanda III MDB Oyunlarının keçirilməsi haqqında qərarın verilməsi də təşkilat çərçivəsində ölkəmizin yüksək nüfuzunun göstəricisidir. Belə ki, 2025-ci ildə Gəncə şəhəri idman paytaxtına çevriləcək.

"MDB dövlət başçılarının Zirvə görüşündə COP29-un ölkəmizdə keçirilməsinə bir daha dəstək ifadə olunub. Eləcə də, sammitdə 1941-1945-ci illər müharibəsində Qələbənin 80 illiyi ilə bağlı MDB xalqlarına və dünya ictimaiyyətinə birgə müraciət qəbul olunub. Prezident İlham Əliyev çıxışında azərbaycanlıların bu qələbədə xüsusi rol oynadığını vurğulayıb. Belə ki, həmin dövrdə Azərbaycandan cəbhəyə 700 minə yaxın insan yollanıb. Döyüş meydanlarında 350 min nəfər həlak olub, 130 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Müharibə illərində Azərbaycan neftçiləri cəbhəyə neft və neft məhsullarının 80 faizini, hərbi texnika üçün yağların 96 faizini tədarük edib. Bütün bunlar qələbənin əldə olunmasında müstəsna əhəmiyyət kəsb edib", - deyə deputat vurğulayıb.




# Bakıda keçirilən Pre-COP29 konfransına yekun vurulub



**Oktyabrın 11-də Bakıda "Ambisiyanı artırmaq və iqlim fəaliyyətinə təkan vermək" mövzusunda keçirilən Pre-COP29 konfransına yekun vurulub.**






AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzində keçirilən konfransın ikinci günündə iqlim və inkişafa dair nazirlər səviyyəsində iclasda çıxış edən COP29-un müəyyən edilmiş prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev iqlim fəaliyyətinə uyğunlaşmanın vacibliyinin göz önündə olduğunu diqqətə çatdırıb. "Qlobal istiləşməni 1,5 dərəcəyə qədər məhdudlaşdırmağı bacarsaq belə, hələ də bütün dünyada iqlim dəyişmələrinin ciddi təsirləri davam edir", - deyə o bildirib.

O qeyd edib ki, cari ilin əvvəlində Tonqada Sakit Okean Adaları Forumunda kiçik adaların və inkişaf etməkdə olan dövlətlərin üzləşdiyi problemin miqyası müzakirə edilib.

"Ümumdünya Meteorologiya Təşkilatının məlumatlarına görə, Sub-Sahara Afrikasında bu onillikdə adaptasiya xərclərinin ildə 50 milyard dollara qədər olduğu təxmin edilir.

Bununla belə, uyğunlaşmanın maliyyələşdirilməsi və həyata keçirilməsində hələ də aydın boşluqlar mövcuddur", - deyə nazir bildirib.

M.Babayevin sözlərinə görə, COP29 sədrliyinin bu il ambisiyaları artırmaq planı var: "Həmin plan Paris Sazişinin bütün şərtləri üzrə kritik irəliləyişləri təmin edəcək".

O qeyd edib ki, istiləşməni məhdudlaşdırmaq və iqlim dəyişikliyinin təsirlərini idarə etmək üçün iqlim planlarında ambisiyaları gücləndirmək lazımdır: "Biz bütün tərəfləri 2025-ci ilə qədər Milli Uyğunlaşma Planları yaratmağa çağırırıq".

Vanuatunun iqlim dəyişmələri naziri Con Salong isə videomüraciətində Pre-COP29-da aparılan müzakirələrin inkişaf etməkdə olan kiçik ada dövlətləri və ən az inkişaf etmiş dövlətlər üçün uyğunlaşmanın sürətləndirilməsi baxımından mühüm bir addım olduğunu vurğulayıb: "Bizim seçim şansımız yoxdur və həyatda qalmağımız üçün uyğunlaşma zəruridir".

O qeyd edib ki, Vanuatu təhlükə altındadır: "Həmin təhlükə raketlərə və ya hərbi təcavüzə görə deyil, bəşəriyyəti və planeti öldürən qalıq yanacaqlardan ayrıla bilməməsi səbəbindən baş verir.

2025-ci ilə qədər uyğunlaşma maliyyəsini ikiqat artırmaq vədi zəruri olsa da, qlobal miqyasda illik 536 milyard maliyyə hədəfinə çatmaq üçün bütün səyləri təcili şəkildə cəlb etmək lazımdır".

COP29-un baş danışıqçısı, Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyev iqlim problemlərinin həlli istiqamətində qarşıya çıxan çətinliklərin, sadəcə, texniki deyil, eyni zamanda siyasi və maliyyə problemləri olduğunu vurğulayıb.

O qeyd edib ki, problemlər maliyyə miqyasına salınmalıdır və sadələşdirilməlidir: "Bu, mücərrəd məqsəd deyil. Həmçinin bir çox xalqların yaşaması üçün zərurətdir. Biz maliyyənin daha sürətli, icmalara birbaşa çatan, proqnozlaşdırılabilən bağlantısını təmin etməliyik. Öhdəlikləri ən çox ehtiyac duyulan yerlərə çatdıracaq maddi hərəkətlərə çevirməyin vaxtıdır".

"Dayanıqlı və davamlı gələcəyin gücləndirilməsi: iqlim fəaliyyətində insan inkişafının rolu" mövzusunda tədbirdə COP29-un İqlim dəyişmələri üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai vurğulayıb ki, iqlim dəyişmələrinin bəşəriyyətin üzləşdiyi ən böyük problem olduğunu hər kəs qəbul etməlidir. "Problemin həlli istiqamətində sadəcə "yaşıl bacarıqlar" zəruri deyil, eyni zamanda süni intellektdən istifadə olduqca önəmlidir", - deyə Nigar Arpadarai bildirib.

O qeyd edib ki, özəl sektor iqlim dəyişikliyi ilə mübarizədə vacib rol oynayır: "Siyasət, iqtisadiyyat, biznes kimi bir çox sahədə uğur qazana biləcək yeni nəsil formalaşdırmalıyıq. Bizə lazım olacaq yeni bacarıqlara ehtiyacımız var. Uşaqlar və gənclər üçün yeni pilot savadlılıq proqramları və ya yeni davamlılıq təcrübələri əsasdır".

"BƏƏ Konsensusunun enerji nəticələrinin izlənməsi" mövzusunda yan tədbirində çıxış edən energetika naziri Pərviz Şahbazov 2030-cu il hədəflərinə çatmaq üçün bərpaolunan enerji mənbələri, elektrik şəbəkələri, saxlama və səmərəliliyə 31,5 trilyon ABŞ dolları həcmində məcmu sərmayə lazım olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, hazırkı səviyyədə bərpaolunan enerji mənbələrinə illik investisiyalar 2024-2030-cu illər arasında hər il tələb olunan 1,5 trilyon ABŞ dollarından azdır. Buna görə də bərpaolunan enerji potensialını və investisiya qoyuluşunu ildə 2 dəfədən çox, enerji səmərəliliyinə investisiyanı isə 7 dəfə artırmaq lazımdır.

Nazirin sözlərinə görə, Azərbaycan dünyada enerji keçidinin sürətləndirilməsi prosesinə rəhbərlik etməklə yanaşı, həm də milli və regional miqyasda bərpaolunan enerji potensialının artırılmasına xidmət edən irimiqyaslı milli və transsərhəd layihələr həyata keçirir.

"2027-ci ilə qədər proqramımızın icrasının birinci mərhələsi çərçivəsində ötən il ölkəmizin bərpaolunan elektrik enerjisi gücü 373,6 MVt artıb. Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan bölgələrində "yaşıl enerji" zonalarının yaradılması ölkə miqyasında xalis sıfır emissiyaya keçid üçün əsas olacaq. 2030-cu ilə qədər 7 gigavat "yaşıl enerji" istehsal etmək planlarımız var. Bunun 70 faizi ixrac ediləcək və biz ardıcıl olaraq 3 böyük "yaşıl interkonnektor" - "Xəzər-Qara dəniz-Avropa", "Mərkəzi Asiya-Azərbaycan-Avropa" və "Azərbaycan-Türkiyə-Avropa" üzərində işləyirik. Həmin "yaşıl enerji" dəhlizləri Mərkəzi Asiyadan Avropaya, daha geniş coğrafiyada "yaşıl enerji" keçidinə mühüm töhfə verəcək. Azərbaycan öz "yaşıl gündəliyi"nə, eləcə də inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq səylərinə sadiqdir", - deyə nazir əlavə edib.

COP29-da İqlim dəyişikliyi və qlobal sülh arasında qarşılıqlı əlaqəyə dair ümumi məsləhətləşmələr zamanı isə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov iqlim dəyişikliyi və dövlətlərarası münaqişələr arasında olan əlaqələrin araşdırılmasının vacibliyini bildirib. E.İsgəndərovun sözlərinə görə, həmin təsirləri aradan qaldırmaq əsas məqsədlərdən biridir.

O qeyd edib ki, qlobal sülh və iqlim təhlükəsizliyi arasında əlaqələr var. Bütün dünya ölkələri kollektiv öhdəliklər götürərək bunun icrası üçün planlar hazırlamalıdır.

"COP29 çərçivəsində 70-ə yaxın beynəlxalq səviyyəli görüşün keçirilməsi planlaşdırılır və bu görüşlərdə fikir müxtəliflikləri müzakirə olunacaq. Əsas məqsədimiz iqlim dəyişmələrinin təsirlərini aşağı səviyyəyə, hətta minimuma endirməkdir. COP29 zamanı Azərbaycan, Misir, Almaniya, İtaliya, Uqanda və digər ölkələrin nümayəndələri sülh və iqlim təşəbbüsü mövzusunda çıxış edəcəklər. Eyni zamanda tədbir çərçivəsində Şamaxıda iqlim dəyişmələri, sülh və insan axınları arasında əlaqələrin araşdırılması müzakirə olunacaq. Bundan əlavə, Afrika qitəsi ölkələrinin yüksəksəviyyəli "dəyirmi masa" görüşü keçiriləcək. Burada həssas ölkələrə iqlim dəyişmələri ilə mübarizə istiqamətində maliyyə dəstəyinin göstərilməsindən danışılacaq", - deyə E.İsgəndərov əlavə edib.

COP29 Azərbaycan Əməliyyat Şirkətinin logistika brifinqində COP29-un keçiriləcəyi Bakı Olimpiya Stadionunda ərazi bölgüsünün necə aparıldığını açıqlayıb. COP29 Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalovanın sözlərinə görə, COP29-un əsas məkanı Bakı Olimpiya Stadionu 5 zonaya bölünüb. Zona A qeydiyyat üçün nəzərdə tutulub. Zona B yan tədbirləri, İqlim Dəyişmələrinə Qarşı Mübarizə Sammiti, COP29 İqlim çempionlarının tədbirləri, ikitərəfli görüşlər üçün nəzərdə tutulmuş məkanları əhatə edir. Zona C nazirlər səviyyəsində keçirilən iclaslar, COP29 sədrliyinin təşəbbüsləri üçün məkanlar, nümayəndə heyətlərinin ofisləri və restoranları əhatə edir.

Zona D-də VIP otaqlar, ikitərəfli görüşlər üçün otaqlar, birinci və ikinci plenar otaqları, Media Mərkəzi, mətbuat konfransı otağı, Zona E-də isə pavilyonlar, QHT-lər, restoranlar yerləşir.

COP29 tədbiri üçün 49 hektarlıq ərazinin ayrıldığını diqqətə çatdıran N.Carçalova bütün rəsmi tədbirlərin keçiriləcəyi məkan olan "Mavi Zona"nın, eləcə də müxtəlif tərəfləri innovativ iqlim yanaşmaları üçün bir araya gətirəcək "Yaşıl Zona"nın qurulması barədə məlumat verərək, işlərin planauyğun şəkildə davam etdirildiyini söyləyib.

"Ötən aylar ərzində komandamız COP29-a hazırlıq prosesi çərçivəsində əzmkarlıqla çalışıb", - deyə N.Carçalova bildirib.

Bununla da Pre-COP29 konfransına yekun vurulub.

# "Dayanıqlı və davamlı gələcəyin gücləndirilməsi: iqlim fəaliyyətində insan inkişafının rolu"

**Oktyabrın 11-də Heydər Əliyev Mərkəzində COP29 sədrliyi tərəfindən Pre-COP29 çərçivəsində "Dayanıqlı və davamlı gələcəyin gücləndirilməsi: iqlim fəaliyyətində insan inkişafının rolu" adlı tədbir təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Ümumdünya Səhiyyə Təşkilatı, UNESCO, BMT-nin İnkişaf Proqramı, UNICEF, Beynəlxalq Əmək Təşkilatı və çoxtərəfli inkişaf bankları, eləcə də vətəndaş cəmiyyəti və xeyriyyəçilik təşkilatları da daxil olmaqla qlobal tərəfdaşlarla məsləhətləşmələr yolu ilə hazırlanmış "İqlim Dayanıqlığı üçün İnsan İnkişafı üzrə Bakı Təşəbbüsü" təqdim olunub və həmin istiqamətdə müzakirələr aparılıb. Tədbirdə insan inkişafının iqlim dayanıqlığı strategiyalarına inteqrasiyası ilə bağlı fikir mübadiləsinin aparılması üçün hökumətlərin, beynəlxalq təşkilatların və vətəndaş cəmiyyətinin nümayəndələri bir araya gəliblər.

Tədbiri giriş sözü ilə açan COP29-un baş danışıqçısı Yalçın Rəfiyev həmin təşəbbüsün məqsədinin uşaqların və gənclərin diqqət mərkəzində saxlanılması ilə təhsil, səhiyyə, sosial müdafiə, "yaşıl iş yerləri" və bacarıqlar vasitəsilə insan inkişafına dəstək vermək və bununla iqlim dəyişmələrinin təsirlərinə qarşı dayanıqlığı gücləndirmək olduğunu vurğulayıb.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreevanın moderatorluğu ilə keçirilən birinci paneldə Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Həsən Həsənli, UNICEF-in Azərbaycandakı nümayəndəsi Saja Farooq Abdullah, Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Troy Dooley, COP29-un BMT-nin İqlim dəyişmələri üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai, Beynəlxalq Əmək Təşkilatının Azərbaycan üzrə koordinatoru Yaşar Həmzəyev və Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı Ölkə Ofisinin təmsilçisi Kamran Maşhadi iqlim dayanıqlığının formalaşdırılmasında təhsil, "yaşıl iş yerləri" və sağlamlığın mühüm rolu, eləcə də uşaqların və gənclərin bu istiqamətdə dəstəklənməsinin vacibliyi ətrafında müzakirə aparıblar.

Asiya İnkişaf Bankının Azərbaycan üzrə ölkə direktoru xanım Sunniya Durrani-Camalın moderatorluğu ilə keçirilən ikinci panel iqlim fəaliyyətində insan inkişafı üçün maliyyələşdirmənin artırılmasına həsr olunub. Paneldə çıxış edən İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzinin direktoru Azər Bayramov, BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Alessandra Rokkasalvo, Dünya Bankının Cənubi Qafqazda insan inkişafı üzrə nümayəndəsi Ahmet Levent Yener, Qlobal Fondun özəl sektor üzrə rəhbəri Con Fairhurst, Avropa Yenidənqurma və İnkişaf Bankının Beynəlxalq siyasət və əlaqələndirmə departamentinin rəhbəri Can-Villem van de Ven və Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının qlobal iqlim siyasəti üzrə koordinatoru Bert De Vel davamlı və dayanıqlı gələcək üçün insan inkişafına investisiyaların genişləndirilməsi məqsədilə innovativ maliyyələşdirmə mexanizmləri ilə bağlı fikir mübadiləsi aparıblar.

Tədbir insan inkişafının iqlim fəaliyyətindəki mühüm rolunu bir daha ön plana çıxarıb. İştirakçıların rəyləri "İqlim Dayanıqlığı üçün İnsan İnkişafı üzrə Bakı Təşəbbüsü"nün daha da təkmilləşdirilməsinə töhfə verəcək.

# COP-a hazırlıq konfransında Azərbaycan sədrliyinin "İqlim və Sülh bağlantısı" mövzusunda təşəbbüsləri geniş dəstək qazanıb



**Oktyabrın 11-də COP29 sədrliyinin təşkilatçılığı ilə iqlim dəyişikliyi və qlobal sülh arasındakı əlaqəyə həsr olunmuş Pre-COP-un paralel tədbiri keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirə üzv ölkələrin hökumət nümayəndələri, BMT agentlikləri və vətəndaş cəmiyyəti təşkilatlarının təmsilçiləri qatılaraq su qıtlığı, ərzaq çatışmazlığı və torpaq deqradasiyası kimi iqlimlə əlaqəli təhdidlərin beynəlxalq sülh və sabitliyə neqativ təsiri və bu sahədə qlobal həllərin vacibliyini müzakirə ediblər.

COP sədrliyinin baş müşaviri, səfir Elşad İsgəndərov iqlim dəyişikliyini "münaqişə təhlükəsini artıran amil" kimi təqdim edərək onun milli resurslar və məcburi köçkünlük üzərindəki mənfi təsirlərini vurğulayıb. O, COP29-un sədrliyinin bu sahədə konkret həlləri nəzərdə tutan təşəbbüslərini, o cümlədən İqlim və Sülh Fəaliyyəti üzrə Bakı mərkəzinin konsepsiyasını təqdim edib. Həmçinin beynəlxalq sülhə iqlimlə əlaqəli təhlükələrin qarşısının alınması sahəsində əməli addımları ehtiva edən Bakı İqlim Üçün Sülh Çağırışının ilkin layihəsi də müzakirə üçün təqdim olunub.

İtaliya, Misir, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, Amerika Birləşmiş Ştatları, Almaniya, Uqanda, İrlandiya və Qırğız Respublikasının nümayəndələri, eləcə də Beynəlxalq Miqrasiya Təşkilatı, BMT-nin İnkişaf Proqramı və digər beynəlxalq təşkilatların nümayəndələri Azərbaycan sədrliyinin həmin təşəbbüslərinin gələcəyin təhdidlərinə qarşı əməli addımlar kimi yüksək qiymətləndirərək dəstəklərini ifadə ediblər.

Eyni zamanda tədbir iştirakçılarına noyabrın 15-də keçiriləcək COP29 İqlim, Bərpa və Sülh (PRR) Gününün məqsədləri haqqında məlumat verilib. Qeyd olunub ki, həmin günün məqsədi iqlim dəyişikliyi və sülh arasındakı əlaqə üzrə tədbirlərin irəlilədilməsidir. Müzakirələrdə COP29 Sülh Günündə uğurlu birgə nəticələrin əldə edilməsi məqsədilə əməkdaşlığın gücləndirilməsinin vacibliyi də qeyd edilib.

# Moldovanın xəbər portalı Pre-COP29 konfransına geniş yer ayırıb

**Moldovanın "Noi.md" xəbər portalında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) barədə məqalə dərc edilib.**

AZƏRTAC xəbər verir ki, rumın və rus dillərində dərc edilən yazı "Ambisiyanı artırmaq və iqlim fəaliyyətinə təkan vermək" mövzusunda Pre-COP29 konfransına həsr olunub. Məqalədə COP29-un prezidenti Muxtar Babayev, COP28-in prezidenti Sultan Əl Cəbir, BMT Baş katibinin birinci müavini Amina Mohammed və Köməkçi icra orqanının (SBI) sədri Nabil Munir və digərlərinin konfransdakı çıxışlarına yer verilib.

Yazıda həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin Pre-COP29-un ilkin iclasının iştirakçılarına müraciətindəki fikirlərə geniş yer verilib. Azərbaycan Prezidentinin fikirlərinə istinadla qeyd olunub ki, iqlim dəyişikliyi bütün qitələrdəki ölkələrə təsir edir. Bununla belə, inkişaf etməkdə olan kiçik ada dövlətləri ən həssasdır. Dəyişikliklər qlobal iqtisadi rifaha mənfi təsir göstərir və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq yolunda irəliləyişə maneədir. Azərbaycan da istisna deyil. Hər il onun çaylarında suyun səviyyəsinin azalması, Xəzər dənizinin dayazlaşması müşahidə olunur. Azərbaycan da su qıtlığı problemi ilə üzləşir, lakin Azərbaycan bu çətinliklərin öhdəsindən gəlmək üçün cəsarətli addımlar atır.

Məqalədə həmçinin konfransda müzakirə olunan məsələlər haqqında ətraflı məlumat verilib.




# Leyla Əliyeva və Arzu Əliyeva Qəbələdə "Gənc arıçı" layihəsinin iştirakçısı ilə görüşüblər






**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva oktyabrın 10-da Qəbələdə "Gənc arıçı" layihəsinin iştirakçısı Rəfiqə Maxsudovanı evində ziyarət ediblər.**

Bu barədə AZƏRTAC-a IDEA İctimai Birliyindən məlumat verilib.

Qeyd edək ki, Leyla Əliyeva görüşdə gənc arıçı ailə ilə səmimi söhbət edib, fəaliyyəti ilə maraqlanıb, arıçılıq sahəsindəki ilk təcrübə və məhsuldarlıqla bağlı təəssüratlarını dinləyib.

Öz növbəsində layihə iştirakçısı Rəfiqə Maxsudova Leyla Əliyevaya göstərdiyi diqqət və dəstəyə görə minnətdarlığını bildirib, süzdüyü ilk balı xüsusi qablaşdırmada hədiyyə edib.

Qeyd edək ki, 2021-ci ildən başlayaraq IDEA İctimai Birliyinin təşəbbüsü və Azərbaycan Respublikasının Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və ABAD publik hüquqi şəxsin tərəfdaşlığı ilə həyata keçirilən "Gənc arıçı" layihəsinin növbəti mərhələsi çərçivəsində Qəbələ rayonunda 20 gənc arıçı dəstəklənib və onlar artıq öz ilk məhsullarını əldə etməyə başlayıblar.

Məqsədi biomüxtəlifliyin qorunmasına töhfə vermək, arıçılıq təsərrüfatının ekosahibkarlıq növü kimi yayılmasını təşviq etmək, təbii bal istehsalını dəstəkləmək və gənc ailələrin maddi rifahını yaxşılaşdırmaq olan layihə çərçivəsində seçilən 20 gəncə peşəkar mütəxəssislərin iştirakı ilə bir aylıq təlim keçirilib. Təlimləri başa vuran gənclər arıçılıq təsərrüfatı üçün lazımi arı ailəsi və pətəkləri, arıçı geyimi, balsüzən aparat və digər ləvazimatlarla tam təchiz olunublar və onlara səmərəli fəaliyyətləri istiqamətində lazımi şərait yaradılıb.

Gənc arıçılar həmçinin məhsulların sertifikatlaşdırılması, brendləşdirilməsi, dizaynı və satışın təşkili dəstəyi ilə təmin ediləcəklər. Bu addımlar bazar iqtisadiyyatı şəraitində rəqabətədavamlı bal istehsalı mərhələsinə çatması üçün gənc arıçıların öz məhsullarını geniş müştəri bazarına çıxarmalarına və satışın səmərəli təşkilinə xidmət edəcək.

# Leyla Əliyeva və Arzu Əliyeva Qəbələdə gənclərin ekoloji düşərgəsinin qonağı olublar







**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Qəbələ rayonunda keçirilən "Gənclərin Yaşıl Təşəbbüsləri" ekoloji düşərgəsinin qonağı olublar.**

Bu barədə AZƏRTAC-a IDEA İctimai Birliyindən məlumat verilib.

"Gənclərin Yaşıl Təşəbbüsləri" ekoloji düşərgəsi IDEA İctimai Birliyi və Gənclərin İnkişaf və Karyera Mərkəzi tərəfindən COP29 çərçivəsində təşkil edilib və oktyabrın 10-da və 11-də Qəbələ rayonunda keçirilir. Təbiət qoynunda keçirilən bu düşərgədə Qəbələ və ətraf rayonlardan olan, ümumilikdə 40 gənc iştirak edir. Düşərgənin əsas məqsədi, noyabr ayında Bakıda keçiriləcək nüfuzlu COP29 tədbiri öncəsində gənclərin ekoloji məsələlərlə bağlı fikirlərini, gözləntilərini və təkliflərini dinləmək, onların bu sahədə fəallığını artırmaqdır.

İki gün ərzində gənclər iqlim dəyişikliyi, ətraf mühitin mühafizəsi və ekoloji təmiz həyat tərzi kimi mühüm mövzularda müxtəlif təlim və vörkşoplarda iştirak edərək ekoloji problemlərə dair yeni yanaşmalar əldə edəcəklər. Düşərgə gənclərin bu mövzular üzrə biliklərini artırmaqla yanaşı, onların ekoloji problemlərin həllində fəal iştirakını təmin etməyi və cəmiyyətin inkişafında mühüm rol oynayacaq fərdlər kimi formalaşmasına dəstək verməyi hədəfləyir.



Düşərgənin ilk günündə gənclər "Ətraf mühitin mühafizəsində gənclərin rolu" mövzusunda təşkil olunmuş vörkşopda qruplara bölünərək problemləri müzakirə edib və müxtəlif ekoloji layihə təklifləri hazırlayıblar. Leyla Əliyeva düşərgə iştirakçılarının hazırladığı layihələri dinləyib və onların ekoloji təşəbbüslərinə yüksək qiymət verib.

Səfər zamanı Leyla Əliyeva və Arzu Əliyeva düşərgənin proqramı ilə yaxından tanış olub, iştirakçıların yaşadıqları çadır şəhərciyini ziyarət edərək onların gündəlik fəaliyyəti və düşərgə həyatına dair təəssüratlarını öyrəniblər.

Görüşün sonunda Leyla Əliyeva və Arzu Əliyeva gənclərlə birgə xatirə şəkli çəkdirərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar. Gənclər isə öz növbələrində düşərgənin təşkilində göstərdikləri dəstək və diqqət üçün Leyla Əliyevaya və Arzu Əliyevaya təşəkkür ediblər.

# IDEA İctimai Birliyi "PASHA Qrupu"nun dəstəyi ilə növbəti təmizlik aksiyası təşkil edib

**IDEA İctimai Birliyinin təşkilatçılığı və "PASHA Qrupu"nun dəstəyi ilə Bilgəhdə sahilyanı təmizlik aksiyası keçirilib. Bu barədə AZƏRTAC-a IDEA İctimai Birliyindən məlumat verilib.**



"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təşkil edilən aksiya ictimai çimərlik ərazisində baş tutub.

Təmizlik aksiyasında IDEA könüllüləri ilə yanaşı, "PAŞA Holdinq" və "PASHA Management Company" tərəfindən idarə olunan şirkətlərin 170-dən çox əməkdaşı, həmçinin "LANDAU School"un şagirdləri olmaqla ümumilikdə 250-dən çox şəxs iştirak edib. Aksiya zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş iştirakçıların topladıqları 2 tona yaxın tullantı "Təmiz Şəhər" ASC-nin Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavoduna təhvil verilib.

"Sahillər təmiz qalsın!" şüarı altında keçirilən aksiyanın əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və insanları dənizətrafı mühitin mühafizəsinə yönələn səylərə cəlb etməkdən ibarətdir. Xəzər dənizinin və Qafqaz regionunun digər su hövzələrinin unikal biomüxtəlifliyinin mühafizəsi məqsədilə IDEA çirkləndirilmiş sahilyanı ərazilərin təmizlənməsinə və bərpası üçün mütəmadi tədbirlər həyata keçirir.




Qeyd edək ki, IDEA İctimai Birliyi mütəmadi olaraq təmizlik aksiyaları təşkil edir və bu aksiyalarda iştirak etmək üçün şirkətləri, təşkilatları və qurumları birgə əməkdaşlığa dəvət edir. Təmizlik aksiyalarının birgə təşkili ilə bağlı IDEA İctimai Birliyinə müraciət edə, ətraf mühitin mühafizəsinə öz töhfənizi verə bilərsiniz. Müraciətlərinizi IDEA-nın "1113" qaynar xətti və ya **info@ideacampaign.org** e-poçt ünvanına göndərməyiniz xahiş olunur. IDEA İctimai Birliyi bir daha hər kəsi planetimizin qarşılaşdığı çoxsaylı problemlərin həlli, indiki və gələcək nəsillərin rifahı naminə birləşməyə və hərəkətə keçməyə, təbiətin bizə bəxş etdiyi nemətlərə həssas yanaşmağa çağırır.

# Londonda "Times" radiosunun canlı efirində COP29-la bağlı müzakirələr aparılıb

**Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov "Times" radiosunun efirində çıxış edib.**




AZƏRTAC xəbər verir ki, diplomat dünya ictimaiyyətinin Azərbaycanın paytaxtı Bakıda böyük iqlim sammitinə toplaşacağını diqqətə çatdırıb.

Səfir qeyd edib: "COP29 böyük əhəmiyyət kəsb edir. Bu, ilk növbədə maliyyə komponenti ilə bağlıdır. Məqsədlərimizə çatmaq üçün kollektiv maliyyə öhdəliklərini müzakirə etməliyik. Özünüz düşünün: iqlim gündəmi ilə bağlı qərar - Paris Sazişi qəbul ediləndə heç bir maliyyə resursları yox idi. Biz çox danışırıq, amma təşəbbüsləri maliyyə resursları ilə dəstəkləyə bilmirik. Bakıda keçiriləcək konfrans insanların iqlim dəyişikliyi ilə bağlı bütün təklifləri üçün real maliyyə zemininin yaradılması baxımından vacibdir. Bunun baş verməyəcəyi təqdirdə bizi nə gözləyir? Hər şey adi söhbətə və ya Dubayda baş verənlərə çevriləcək. Yeri gəlmişkən, bu, bizim Əmirliklərdə olan həmkarlarımızın və ümumilikdə dünya ictimaiyyətinin böyük nailiyyəti idi, amma maliyyə dəstəyi olmadan hər şey ambisiya olaraq qalacaq".

E.Süleymanov konfransın yeri ilə bağlı məsələyə və bəzi dairələrdə bu mövzu ətrafında baş verən səs-küyə toxunub. "Bakı COP29-a evsahibliyi edən yer kimi heç də mübahisəli məkan deyil. Bu məntiqə görə, dünyanın istənilən nöqtəsini "ziddiyyətli" adlandırmaq olar. Hansı yeri "problemli" adlandırmaq olmaz? Hamını tənqid edirlər", - deyə o bildirib.

Diplomat daha sonra vurğulayıb: "Ancaq gəlin, bu barədə düşünək. Biz bəşəriyyətin qarşısında duran ən mühüm problemi - iqlim böhranı məsələsini həll etmək üçün toplaşırıq. Təbii ki, çoxları bunu Azərbaycana hücum etmək üçün əla fürsət kimi görəcək. Bu, onların öz işidir. Amma bu mövzu Azərbaycanla bağlı deyil, onunla heç bir əlaqəsi yoxdur. Əsas məsələ ondan ibarətdir ki, biz problemin özünü həll etmək üçün irəliləməyə razı olaq",- deyə səfir vurğulayıb.

Aparıcı bəzi bədxahlar tərəfindən sifarişlə yazılan məqalələrdə qaldırılan "yaşıl yuma" məsələsini gündəmə gətirməyə çalışıb. O, "bu, "yaşıl yuma" nümunəsidir - iqlim problemindən ölkənin imicini təmizləmək üçün istifadə etməkdir", deyə sözlərinə başlamağa çalışıb, lakin Azərbaycan diplomatı bu ritorikanı dərhal rədd edib.

"Əlbəttə ki, xeyr. Bir ildən az müddət əvvəl COP29-a evsahibliyi edəcəyimizi belə bilmirdik. Biz "yaşıl yuma" ilə necə məşğul ola bilərdik?! Bu tədbiri ölkədə keçirəcəyimizi bilmirdik. Biz "yaşıl keçid" proqramımızı Azərbaycanın COP konfransına evsahibliyi etməyə razılıq verməsindən xeyli əvvəl başlamışıq", - deyən Süleymanov tənqid xətrinə fikir bildirənlərin niyyətini tam başa düşmədiyini qeyd edib.




# *Baş danışıqçı:* "COP29-da qəbul edilməsi vacib olan təxminən 60 qərar var"

**"COP29-da ən böyük gözlənilən yeniliklər danışıqlar prosesində iqlim maliyyəsi ilə bağlı qərarın verilməsidir. İqlim maliyyəsi ilə bağlı ilk dəfə əsaslı bir sənədin qəbulu gözlənilir.**

COP29-da qəbul edilməsi vacib olan təxminən 60 qərar var. Onlardan ikisi xüsusilə vacibdir. Biri iqlim maliyyəsi, digəri karbon bazarlarının formalaşdırılması, tənzimlənən karbon bazarları ilə bağlıdır. Bu da Paris Sazişinin 6-cı maddəsi ilə əlaqədardır. Həmin iki qərarın qəbul edilməsi halında COP prosesi çərçivəsində tarixi nailiyyət hesab olunacaq".

AZƏRTAC xəbər verir ki, bunu COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev jurnalistlərə müsahibəsində deyib.



"Bundan əlavə, biz 14 sədrlik təşəbbüsü irəli sürmüşük. Onların bəziləri COP prosesinə böyük yenilik gətirən təşəbbüslərdir. Bunlara İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondu və COP Atəşkəsi Qlobal Təşəbbüsünü nümunə göstərmək olar. Bu gün etibarilə COP Atəşkəsi Qlobal təşəbbüsünə 127 dövlət qoşulub. Bu, Prezident İlham Əliyevin təşəbbüsü ilə COP tarixində ilk dəfədir ki, irəli sürülüb. İlk dəfədir ki, COP-lar tarixində hərbi fəaliyyətin iqlimə zərər vuran, emissiya yaradan bir fəaliyyət kimi təsbit olunması və buna görə də qlobal atəşkəsin elan olunması barədə qərara gəlinib və belə təşəbbüs irəli sürülüb. Hazırkı kontekstdə çox önəmli bir təşəbbüsdür. 127 dövlətin, 1100-dən artıq beynəlxalq, qeyri-hökumət təşkilatlarının, tanınmış şəxslərin, dini liderlərin həmin təşəbbüsə qoşulması onun əhəmiyyətinin göstəricisidir", - deyə Y.Rəfiyev qeyd edib.

# Xorvatiyada COP29-la bağlı tədbir keçirilib



**Zaqrebdə Azərbaycanın Xorvatiyadakı səfirliyinin və bu ölkədə fəaliyyət göstərən İqlim Dəyişikliyi üzrə Beynəlxalq İnstitutun birgə təşkilatçılığı ilə COP29-la bağlı tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Xorvatiya Xarici və Avropa İşləri Nazirliyinin, Ətraf Mühitin Mühafizəsi və Yaşıl Keçid Nazirliyinin, eləcə də digər dövlət qurumlarının rəsmiləri, bu ölkədə akkreditə olunan diplomatik korpusun rəhbərləri, beyin mərkəzlərinin təmsilçiləri, ölkənin aparıcı şirkətlərinin rəhbərləri, Xorvatiyada iqlim dəyişikliyi üzrə fəaliyyət göstərən ekspertlər, həmçinin media nümayəndələri iştirak ediblər.

Tədbir zamanı, Azərbaycanın Xorvatiyadakı səfiri Anar İmanov, Azərbaycan Xarici İşlər Nazirliyinin idarə rəisinin müavini Şahin Şahyarov, Xorvatiyanın İqlim Dəyişikliyi Məsələləri üzrə baş danışıqçısı xanım Vişnja Qrqasoviç, İqlim Dəyişikliyi üzrə Beynəlxalq İnstitutun rəhbəri Marija Pujo Tadic çıxış edərək iqlim dəyişikliyinin fəsadlarının aradan qaldırılmasında beynəlxalq əməkdaşlığın vacibliyinə toxunub, COP29 zamanı müzakirə olunacaq məsələlər, Azərbaycanın sədrliyinin prioritetləri və irəli sürdüyü təşəbbüslər, beynəlxalq iqlim dəyişikliyinin yaratdığı fəsadlar və onların aradan qaldırılması səyləri, habelə Azərbaycanla Xorvatiya arasında "yaşıl enerji" sahəsində əməkdaşlıq perspektivləri haqqında tədbir iştirakçılarına ətraflı məlumat veriblər. Tədbir zamanı edilən çıxışlar iştirakçılar tərəfindən maraqla qarşılanıb, tədbir geniş müzakirələrlə davam etdirilib.

Həmçinin tədbir zamanı COP29 və Azərbaycan haqqında videoçarxlar nümayiş olunub.

# İtaliyanın Baş naziri COP29-da iştirak edəcək

**"BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) İtaliya nümayəndə heyətinə ölkə hökumətinin başçısı Corcia Meloni rəhbərlik edəcək".**



Bunu "Report"a açıqlamasında COP29-un İqlim şəffaflığı üzrə yüksəksəviyyəli həmkarı, İtaliyanın iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi Françesko Korvaro BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflərin İlkin Konfransı (Pre-COP29) çərçivəsində bildirib.

"İtaliyanı COP29-da ölkənin Baş naziri Corcia Meloni təmsil edəcək. Nümayəndə heyətinin tərkibində ölkənin ətraf mühit naziri Cilberto Piketto Fratin də olacaq", - o qeyd edib.

# *Eamon RYAN:* "COP29-da iqlim dəyişikliyinin təsirlərindən ən çox əziyyət çəkən ölkələri necə maliyyələşdirdiyimizə baxmalıyıq"

**Biz COP29-da maliyyəyə, xüsusən də inkişaf və iqlimi necə bir araya gətirdiyimizə, iqlim dəyişikliyinin təsirlərindən ən çox əziyyət çəkən ölkələrə, onların davamlılığını necə maliyyələşdirdiyimizə baxmalıyıq.**



Bu barədə "Trend"ə özəl açıqlamasında İrlandiyanın ətraf mühit, iqlim danışıqları və nəqliyyat naziri Eamon Ryan deyib.

"Gələn il hamımız iqlim dəyişikliyini dayandırmaq üçün daha çox iş görmək ambisiyamızı kollektiv şəkildə artırmalıyıq. Beləliklə, bu COP29 maliyyə ilə bağlı kritik rol oynayır.

Burada iddialı bir nəticə əldə edə bilsək, bu, gələn il iqlim dəyişikliyini dayandırmaq üçün etməli olduğumuz işləri genişləndirməyə kömək edəcək. Hər şey pulla bağlıdır və bu il burada müzakirə etməliyik", - deyə o bildirib.

# *Françesko KORVARO:* "COP29-un sədri kimi Azərbaycan çətin vəzifənin öhdəsindən uğurla gəlir"

**"COP29-un sədri kimi Azərbaycan ona həvalə edilmiş çətin vəzifənin öhdəsindən uğurla gəlir".**

Bunu "Report"a açıqlamasında COP29-un İqlim şəffaflığı üzrə yüksəksəviyyəli həmkarı, İtaliyanın iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi Françesko Korvaro BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflərin İlkin Konfransı (Pre-COP29) çərçivəsində deyib.

F.Korvaro qeyd edib ki, Bakıda keçiriləcək COP29-da çətin vəzifələr həll edilməli olacaq. O, tərəflərin razılığa gələ biləcəyinə əminliyini ifadə edib:

"Bildiyiniz kimi, bizim qarşımızda iqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədinin (NCQG) müzakirəsi dayanır. İnanıram ki, tərəflər ümumi fikrə gələ və iqlim fondlarının gələcəyi üçün bu istiqamətdə növbəti addımları razılaşdıra biləcəklər".

# COP29-a evsahibliyi Azərbaycanın enerji keçidini dəstəkləməsinin əyani sübutudur

**Azərbaycan noyabrın 11-dən 22-dək hər il fərqli ölkədə keçirilən dünyanın ən əhəmiyyətli və irimiqyaslı beynəlxalq tədbirlərindən olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcək.**



İqlim problemlərinin və onun bəşəriyyətdə yaratdığı təhlükələrin qarşısını almaq məqsədilə hər il keçirilən qlobal əhəmiyyətli COP konfranslarının növbəti müzakirə sessiyasının ölkəmizdə baş tutması Azərbaycanın beynəlxalq statusunun dəyişməsi ilə müşahidə olunur. Rəsmi Bakı bu tip mötəbər tədbirə evsahibliyi etməklə həm dünya ictimaiyyətinə iqlim dəyişikliyi ilə bağlı həll yollarının tapılmasına kömək etməyə hazır olduğunu elan edir, həm də baş verməkdə olan enerji keçidi prosesini dəstəkləməklə yeni - "yaşıl enerji" sahəsində strateji oyunçu statusunu əldə etmək niyyətində olduğunu bildirir. Azərbaycanın sədrliyi ilə keçiriləcək COP29 konfransında dünyanın inkişaf etmiş, inkişafda olan, yoxsul ölkələri arasında müzakirələrin təşkili, iqlim dəyişikliyinin qarşısının alınması üçün maliyyə təminatının həll edilməsi kimi qlobal mövzularda fikir mübadilələrinin təşkili Bakı şəhərinin və Azərbaycan diplomatiyasının nüfuzunun artmasına xidmət edir.

Konfransın mühüm müsbət nəticələrindən biri kimi ölkədə turizm xidmətlərinin keyfiyyətinin daha da yüksəldilməsi göstərilir. Bakı iki həftə ərzində dünyanın mərkəzi olacaq və şəhər təqribən 70-80 min xarici qonağı qarşılayacaq. Həmçinin COP29-un Azərbaycanda keçirilməsi, ilk növbədə, BMT tərəfindən Azərbaycanın iqlim məsələsində üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsinin etirafıdır. Bundan əlavə, COP29-un Azərbaycanda keçirilməsi BMT səviyyəsində ölkədə siyasi və iqtisadi sabitliyin tanınmasından xəbər verir. Azərbaycan getdikcə qlobal əhəmiyyətli müzakirələrin ev sahibinə çevrilir və bu, Azərbaycanın gələcəkdə siyasi mövqelərinin güclənməsinə xidmət edəcək.

COP29-un Bakıda keçirilməsi qərarı, həm də Azərbaycanın "yaşıl enerji" siyasətinə qlobal dəstəyi ifadə edir. Neft-qaz ölkəsi olan Azərbaycan "yaşıl enerji" növlərinin yaradılmasını və "yaşıl enerji"nin dünya bazarlarına nəqlini hazırda enerji siyasətinin yeni prioritet istiqaməti kimi müəyyən edib. Bərpaolunan və "yaşıl enerji" əsasında istehsal edilən elektrikin ixracı Azərbaycanın enerji strategiyasında yeni eranın başlanmasına səbəb olub. Azərbaycanın bərpaolunan enerji potensialı çox yüksəkdir. 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payının Azərbaycanda 30 faizə çatdırılması gözlənilir. Statistik göstəricilərə görə, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavatdır. Dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir.

2020-ci ildə 44 günlük müharibədən dərhal sonra Prezident İlham Əliyev Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanı "yaşıl enerji" bölgəsi adlandırıb və bu istiqamətdə genişmiqyaslı işlərə başlanılıb. Azərbaycanın bütün bölgələrində, eləcə də işğaldan azad edilmiş Kəlbəcər və Ağdərə rayonlarında geotermal və günəş enerjisi ehtiyatları, Laçın, Qubadlı və Zəngilan rayonlarında hidroenerji mənbələri, Şuşa, Xocavənd və Cəbrayıl rayonlarında külək enerjisi, Tərtər, Ağdam, Xocalı rayonlarında bioenerji ehtiyatlarının səmərəli istifadə edilməsi nəticəsində ölkəmiz ümumilikdə "yaşıl enerji" istehsalçısına və istehlakçısına çevrilə bilər. Qarabağ və Şərqi Zəngəzurda külək, günəş və hidroenerji potensialı 10 qiqavatdan çoxdur. Həmin potensial ölkədə ekoloji mühitin yaxşılaşdırılması və turizm cəlbediciliyinin artırılması ilə yanaşı, elektrik ixracı potensialının yüksəldilməsi baxımından da mühüm dividendlər vəd edir. Azərbaycanın "yaşıl enerji" sahəsində reallaşdırdığı layihələrin əsas məqsədlərindən biri də ölkədə elektrik enerjisi istehsalına sərf olunan böyük həcmdə təbii qaza qənaət olunması və Avropaya ixracın həcminin artırılmasıdır.

Ötən il işğaldan azad edilən ərazilərdə olan 12 bölgədə tikilən yarımstansiya və su-elektrik stansiyalarının açılışı olub. Prezident İlham Əliyevin iştirakı ilə Azərbaycan-Türkiyə-Avropa ölkələrarası beynəlxalq enerji dəhlizi layihəsi çərçivəsində tikilən 330 kilovoltluq "Cəbrayıl" qovşaq yarımstansiyası istismara verilib. Həmçinin "yaşıl enerji" strategiyasına uyğun olaraq 2023-cü ildə Kəlbəcər rayonunda 8,33 meqavat gücündə "Çıraq-1", 3,6 meqavat gücündə "Çıraq-2", 6,33 meqavat gücündə "Qamışlı", 5,3 meqavat gücündə "Soyuqbulaq" və 3,4 meqavat gücündə "Meydan" kiçik su-elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub. Paralel olaraq "Azərenerji" tərəfindən Laçında yeni tikilən 110 kilovoltluq "Qorçu" yarımstansiyasının və "Laçın" şəhər qovşaq yarımstansiyasının da ötən il açılışı həyata keçirilib. Bununla yanaşı, Laçın rayonunda yenidən qurulan 8,25 meqavat gücündə "Mişni" və 6 meqavat gücündə "Alxaslı" Kiçik Su-Elektrik stansiyaları yenidən qurularaq istismara buraxılıb. Prezident İlham Əliyev, həmçinin "Azərenerji"nin yeni tikilən 10,5 meqavat gücündə "Cahangirbəyli" Su-Elektrik Stansiyasının açılışında da iştirak edib. Həmçinin ötən ilin dekabr ayında isə 110 kilovoltluq "Ağdam" qovşaq yarımstansiyasının açılışı həyata keçirilib.

Bundan başqa, ötən il işğaldan azad edilən ərazilərdə "Azərenerji"nin 9 elektrik stansiyasının tikintisinə başlanılıb. Bu ilin yanvar-avqust aylarında isə Laçın rayonunda "Zabux" və "Qarıqışlaq" Kiçik Su-Elektrik stansiyaları, Zəngilan rayonunda "Zəngilan" və "Şayıflı" Su-Elektrik stansiyaları istifadəyə verilib. Bundan əlavə, Qarabağ və Şərqi Zəngəzurda ekoloji cəhətdən təmiz "yaşıl enerji" istehsal edəcək su-elektrik stansiyalarının tikintisi davam edir. Göründüyü kimi, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsinə çevrilmək Azərbaycan dövlətinin milli hədəflərindən biridir.

Milli Məclisin deputatı Vüqar Bayramov AZƏRTAC-a açıqlamasında bildirib ki, Azərbaycan regionda təmiz və "yaşıl iqtisadiyyat"ın formalaşmasına töhfə verən ölkələrdəndir.

O vurğulayıb ki, hazırda ümumi enerji istehsalında "yaşıl enerji"nin payı 17 faizdən çoxdur: "Bu da təbii ki, "yaşıl enerji" istehsalının artımı deməkdir. Azərbaycan 2030-cu ilədək bu rəqəmi 30 faizə qədər yüksəltmək niyyətindədir. Eyni zamanda "yaşıl iqtisadiyyat"ın formalaşması ilə yanaşı, karbon emissiyasının azaldılması da Azərbaycanın əsas hədəfləri siyahısındadır. Belə ki, 2030-cu ilədək Azərbaycan karbon emissiyasını 35 faizə yaxın azaltmaq niyyətindədir. 2040-cı ilədək bu rəqəm 50 faizədək yüksələ bilər".

V.Bayramov vurğulayıb ki, Azərbaycanın qlobal karbon emissiyasında payı 0,1 faizdir. "Bu ondan xəbər verir ki, Azərbaycan təmiz və "yaşıl iqtisadiyyat"ı dəstəkləyən ölkələrdəndir. Digər tərəfdən, "yaşıl enerji"nin ümumi enerji istehsalında payı artıb, həmçinin karbon emissiyasının azaldılması istiqamətində də ciddi tədbirlər görülür. Təbii ki, bütün bu və digər amillər COP29 prinsiplərinə uyğun olaraq "yaşıl enerji"nin formalaşmasına töhfəsini göstərən əsas faktlardandır. Bu da ondan xəbər verir ki, COP29-un Azərbaycanda keçirilməsi Azərbaycanın regional və qlobal təşəbbüslərə daha yaxından dəstək verməsi ilə yanaşı, Azərbaycanda müəyyənləşdirilmiş hədəflərin qlobal hədəflərdən üstün olması ilə əlaqədardır. Bu isə bir daha təsdiq edir ki, Azərbaycan enerji sektorunda ənənəvi iqtisadiyyat strukturundan daha innovativ və təmiz iqtisadiyyata keçidi sürətlə həyata keçirir", - deyə o qeyd edib.

Beləliklə, Azərbaycan enerji keçidini dəstəkləməklə yanaşı, həm də yeni - bərpaolunan və ya digər adla "yaşıl enerji" üzrə "qlobal klubun" üzvünə çevriləcək.

# "Dəstədən geridə qalmamaq üçün"

## Azərbaycan QHT-ləri COP29-a ciddi hazırlaşırlar

**COP29 yaxınlaşdıqca onunla bağlı Bakıda keçirilən tədbirlərin sayı və intensivliyi də artır. İştirakçı dövlətlərin nümayəndələri Azərbaycana gəlir, təkliflərini verir, təşəbbüs irəli sürür, hazırlıqlarla tanış olurlar. Eləcə də yerli dövlət qurumları və özəl təşkilatlar öz aralarında tədbiröncəsi COP29-la bağlı görülən işləri müzakirə edir, nəticəsini ictimaiyyətlə paylaşırlar. Bu da təbiidir, çünki qlobal tədbirin başlanmasına artıq sayılı günlər qalır.**

Qeyri-hökumət təşkilatları (QHT) da sıradan geridə qalmamaq üçün COP29 çərçivəsində fəallıq nümayiş etdirirlər. Yeri gəlmişkən qeyd edək ki, COP29-un Təşkilat Komitəsinin tərkibində dövlət qurumları ilə yanaşı, müvafiq profil üzrə işgüzar və ən fəal vətəndaş cəmiyyəti təsisatları təmsil olunurlar. Bu təmsilçilik Azərbaycan dövlətinin QHT-lərə yaratdığı şəraitin, göstərilən böyük etimadın göstəricisidir.

Hələ aylar öncə xarici QHT-lərdən Azərbaycan Milli QHT Forumuna COP29-la əlaqədar çoxsaylı əməkdaşlıq təklifləri irəli sürülüb. Daxil olan təklifləri Milli QHT Forumunun İdarə Heyəti müzakirə etdikdən sonra "COP29 QHT Koalisiyası" yaratmaq təşəbbüsü ilə çıxış edib. Xarici QHT-lər tərəfindən maraqla qarşılanan təşəbbüsə 30 ölkədən 108 əcnəbi QHT qoşulub. Həmçinin koalisiya ilə əlaqədar ABŞ, Böyük Britaniya, Almaniya, Belçika, Niderland, İtaliya, Macarıstan, Avstraliya, Pakistan, Nigeriya, Əlcəzair, Kamerun, Meksika, Hindistandan olan QHT-lər və ictimai fəallar Azərbaycan Milli QHT Forumuna ünvanladıqları məktubda COP29-a evsahibliyi edən Azərbaycana güclü dəstəklərini ifadə ediblər.

Maraqlıdır ki, Azərbaycanda ilk dəfədir belə qlobal formatda və nəhəng miqyasda yerli və xarici QHT-lərin əməkdaşlığı qurulur. Bu, o deməkdir ki, vətəndaş cəmiyyəti COP29-un Azərbaycana bəxş etdiyi unikal imkanları aydın hiss edir. Ona görə də həmin əməkdaşlığın qurulmasına xüsusən gənc QHT-çilər öz töhfələrini verməyə çalışırlar. Bu səbəbdən COP29-un gənc liderləri, könüllülər və QHT-lərin qlobal tədbirə hazırlıqlar çərçivəsində ayrılıqda gördükləri iş həm yerli, həm də beynəlxalq səviyyədə təqdir olunur. Şübhəsiz, tədbirin fəaliyyət göstərəcəyi günlərdə bu, daha qabarıq hiss ediləcək.

Xarici ölkələrin gənclərini də cəlb edən COP29 fəalları ekoloji sağlam cəmiyyətdə yaşamaq istəyirlər. Ona görə də ətraf mühitin mühafizəsi ilə bağlı görülən tədbirlərdə gənclər üstünlüyü əldən vermirlər. Mütəmadi olaraq xarici QHT-lərlə onlayn görüşlər keçirilir, əməkdaşlıq imkanları və qarşıya qoyulan məsələlər müzakirə olunur, nəticələr diqqətə çatdırılır. Məsələn, bu günlər COP29 QHT Koalisiyasının hibrid formatda keçirdiyi görüşdə elan olunub ki, koalisiyanın sıraları hər gün genişlənir və artıq dünyanın 71 ölkəsindən bu qurumda 335 QHT yer alır. Qarşılıqlı müzakirə nəticəsində Azərbaycanın irəli sürdüyü qlobal təşəbbüslər dünyanın aparıcı vətəndaş cəmiyyəti tərəfindən təqdirlə qarşılanıb. COP29 QHT Koalisiyası bir daha dünya dövlətlərini Azərbaycanın COP29 naminə birgə atəşkəs çağırışına qoşulmağa çağırıb. Görüşdə həmçinin ətraf mühit, sağlamlıq və gender məsələlərinin diqqətdə saxlanılması haqqında təkliflər müzakirə olunub. Məlumat üçün bildirək ki, COP29 QHT Koalisiyasında ölkəmizi Azərbaycan Milli QHT Forumu təmsil edir. Adıçəkilən koalisiya da məhz Azərbaycan Milli QHT Forumunun təşəbbüsü ilə yaranıb. Ona görə də forum bu cür hibrid görüşlər zamanı tərəflərin fəaliyyətlərini koordinasiya edir.

QHT-lərin fəaliyyəti təkcə onlayn görüşlərlə məhdudlaşmır, COP29-da iştirak etməyə hazır olan digər həmfikir ictimai qurumlarla, beynəlxalq təşkilatlarla canlı görüşlər keçirilir. Bir gün öncə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən QHT rəhbərləri üçün qlobal tədbir ərəfəsində keçirilən məlumat sessiyası bu qəbildəndir. Tədbirdə dayanıqlılıq siyasətləri, müyəssərlik və inklüzivlik məsələləri, Yaşıl Zonada QHT-lər üçün potensial imkanlar, Azərbaycan QHT-lərinin COP29-da iştirak məqsədləri və gözləntilər, tədbir zamanı proqramlaşdırma məsələləri üzrə tövsiyələr kimi mövzular ətrafında müzakirələr aparılıb, "yaşıl keçid"lə bağlı maarifləndirmə prosesində QHT-lərin mühüm rolu vurğulanıb. 50-dən artıq QHT nümayəndəsinin iştirak etdiyi informasiya sessiyasında Yaşıl Zonada olacaq QHT-lər üçün yaradılan imkanlar mövzusunda da məlumatlar verilib.

Sessiyanın keçirilməsində məqsəd COP29 çərçivəsində təşkil ediləcək fəaliyyətə dair QHT nümayəndələrinin məlumatlandırılması, təklif olunan müxtəlif imkanların müzakirəsi, eləcə də ümumilikdə COP prosesi barədə bilgilərin paylaşılmasıdır. Çünki QHT sektoru COP29 çərçivəsində regional və qlobal səviyyədə indekslərin formalaşmasında, problemlərin həlli istiqamətində ortaya gərəkli bir konsepsiya qoyduğu üçün iqlim dəyişmələri mövzusunda yeni yanaşmanı dəstəkləyirlər. Ona görə də Azərbaycan QHT sektoru qərargah tipli beyin mərkəzi formalaşdırıb və bu mərkəz iqlim dəyişmələri məsələsində "daha nələr etmək olar, atılan addımları hansı istiqamətə yönəltmək mümkündür" mövzusu üzərində işləyir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

**Ermənistan silahlı birləşmələrinin Gəncəni növbəti dəfə raket atəşinə tutmasından 4 il ötür**

# Baş prokuror Kamran Əliyev Gəncədə "Memorial Abidə Kompleksi"ni ziyarət edib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**





Baş Prokurorluğun Mətbuat xidmətindən verilən xəbərə görə, oktyabrın 11-də baş prokuror Kamran Əliyev Gəncə şəhər prokurorluğunun inzibati binasında Gəncə şəhər və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Daha sonra baş prokuror Gəncə şəhər Gülüstan qəsəbəsində "İstiqlal" parkında yerləşən "Memorial Abidə Kompleksi"ni ziyarət edib, önünə gül dəstələri qoyub.

Qəbulda iştirak edən 149 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# Erməni vəhşiliyi













**Dörd il əvvəl işğalçı Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə protokollarını, habelə 2020-ci il oktyabrın 10-u saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini pozaraq mülki əhalinin sıx yaşadığı məntəqələrə zərbələr endirib.**

AZƏRTAC xatırladır ki, 2020-ci il oktyabrın 11-də Ermənistan silahlı qüvvələri cəbhə zonasından kənarda yerləşən Azərbaycanın ikinci böyük şəhəri Gəncəni atəşə tutublar. Gecə saatlarında raket atəşi nəticəsində şəhərin mərkəzi Ələkbər bəy Rəfibəyli küçəsindəki çoxmənzilli yaşayış binasında 5-i qadın olmaqla, 10 nəfər həlak olub, 16-sı qadın, 6-sı azyaşlı olmaqla, 34 nəfər yaralanıb. Həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.

Hadisə yerinə Fövqəladə Hallar Nazirliyinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, eləcə də Təcili Tibbi Yardım Briqadası cəlb olunub. Dağıntılar altından xəsarət almış 17 nəfər və 9 cəsəd çıxarılıb.

Ermənistanın hərbi-siyasi rəhbərliyinin əmri ilə Gəncənin raket atəşinə tutulması ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlayıb.

Ümumiyyətlə, oktyabrın 10-da və 11-də müxtəlif saatlarda Gəncə və Mingəçevir şəhərləri, Goranboy, Tərtər, Ağdam, Ağcabədi, Füzuli və Cəbrayıl rayonlarının kəndləri işğalçı ordu tərəfindən atəşə tutulub. Nəticədə dinc sakinlər həlak olub və yaralanıb, mülki infrastruktura ciddi ziyan dəyib.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin döyüş əməliyyatları aparılan ərazidən xeyli məsafədə yerləşən şəhər və kəndlərimizi raket və artilleriya atəşinə tutmaqda davam etməsi barədə bəyanat yayıb. Həmin gün düşmən gecə saat 4 radələrində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İstilik-Elektrik Stansiyasını da hədəf alıb. Cəbhə zonasından 100 kilometr uzaqda yerləşən Mingəçevirə atılan raketlər Ordumuzun Hava Hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilib.

# Valideyn, dost və qonşu itkisi

## Terrorun şahidləri danışırlar



**2020-ci il oktyabrın 11-də gecə saat 2 radələrində Gəncə şəhəri 4-cü dəfə xain düşmənin raket hücumuna məruz qaldı. Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun gücü qarşısında aciz qalan Ermənistan silahlı qüvvələri uğursuzluqlarını ört-basdır etmək niyyəti ilə yenə dinc sakinləri hədəf aldı.**

Şəhərdə "Qələbə" parkının yaxınlığındakı çoxmənzilli yaşayış binalarının raket atəşinə tutulması nəticəsində 10 nəfər həlak oldu, 34 nəfər yaralandı. Onların arasında qadın və uşaqlar da vardı. Neçə-neçə ailənin bağrına köz basıldı, taleyinə kədər yazıldı.

AZƏRTAC-ın bölgə müxbiri o acı günün şahidi olan ailələrlə görüşüb. Bağırovlar ailəsi erməni terroru nəticəsində təkcə evini itirməyib, ailə başçısı, 1958-ci il təvəllüdlü Bağırov Ramiz Yusif oğlu da şəhid olub. Şəhidin oğlu Yusif Bağırov o dəhşətli gündən geriyə qalan xatirələri bölüşüb. Yusif deyir ki, erməni terroru onu və bacısını atasız qoyub, anasını isə sağlamlığından edib. O günlərin acısı ailə üzvlərində bir ömür unudulmaz izlər qoyub.

"İşimlə əlaqədar Bakıda yaşayırdım, anamla atam isə Gəncədə idi. Ermənilər şəhərə üç dəfə raket atmışdılar. Hadisədən 3-4 gün əvvəl təhlükəsizlik üçün anamı və bacımgili Bakıya apardım, ancaq atam bizimlə gəlmədi, evdə qaldı. Oktyabrın 10-da humanitar atəşkəsə riayət olunması barədə razılıq əldə edildiyindən, anam təkidlə Gəncəyə geri qayıtdı. Bir gün sonra isə məlum hadisə yaşandı", - deyə şəhid oğlu bildirir.

Yusif oktyabrın 11-i gecə saatlarında evlərinin olduğu ərazinin raket atəşinə məruz qalmasını dostundan öyrənib: "Bu xəbəri eşidəndə özümü itirdim. Atamgili yığdım, cavab verən olmadı. Dostlarım isə dedilər ki, raket atılıb, ərazi darmadağın olub, elektrik enerjisi kəsilib, heç kəsdən xəbər yoxdur. Yarım saat sonra anamla əlaqə yarada bildim. Anam yaralanmışdı, atamdan hələ də xəbər yox idi. Sonra mənə əməliyyata alındığını desələr də, belə olmadığını hiss etmişdim. Gəncəyə dönəndə atamın şəhid olduğunu öyrəndim... Anam da xəsarətlər almışdı, gözləri görmürdü, ayağını, kürəyini dəmirlər kəsmişdi, barmaqları qırılmışdı. Qonşularımız, dostum Ülvi ailəsi ilə birgə şəhid olmuşdu".

O, doğulub, boya-başa çatdığı həyətlərini, evlərini görəndə dəhşətə düşdüyünü deyir. "Hər yer dağılmışdı. Atamın cənazəsində şəkil belə tapa bilmirdim, qohumlardan, tanışlardan istəyirdik. Hər şey elə bil ki, o evdə batmışdı. Raket hücumu əzizlərimizi, xatirələrimizi əlimizdən aldı. Bizim ordumuz döyüş meydanında gücünü göstərirdi, ermənilər isə öz adətlərinə sadiq qalaraq dinc sakinləri hədəf alırdılar. Təsəllimiz odur ki, atam Ataüca şəhidlik zirvəsinə yüksəldi", - deyə Yusif vurğulayır.



Erməni terroru zamanı Bağırovların qonşuluğunda yaşayan Allahverdiyevlər ailəsi də bu hadisənin dəhşətini yaşayanlardandırlar. Ailənin oğul övladı Rüfət Allahverdiyev həmin günü belə xatırlayır: "Sanki belə bir hadisənin yaşanacağını əvvəlcədən hiss etmişdik, nəsə narahat idik. Axşam saatlarında qonşularla bayırda söhbətləşdikdən sonra hər kəs evinə dağıldı. Evdə atam, anam, qardaşım və mən idim. Gecə yatdığımız zaman elə bil zəlzələ oldu, divar üzərimizə aşdı, çilçıraq düşdü. Yerimizdə bükülüb, sağ qalıb-qalmayacağımızı gözləyirdik. Atamın üzərinə dolab düşmüşdü, qardaşımla köməkləşib onu və anamı xilas etdik, daha sonra qonşulara kömək üçün yollandıq. Dostumgilin evinə baxdım, evdən əsər-əlamət qalmamışdı. Ətrafı toz-duman almışdı, kimi uşağını, kimi yoldaşını xilas etməyə çalışırdı", - deyən terror şahidi aidiyyəti qurumların köməyi ilə xilas olduqlarını bildirir.

Vətən müharibəsinin davam etdiyi 44 gündə Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinə 5 dəfə (4, 5, 8, 11, 17 oktyabrda) raket və ağır artilleriya ilə hücum edilib. Bu terror aktları nəticəsində 26 mülki şəxs həlak olub, 175 dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alıb.





## 12 oktyabr — ZƏFƏR gündəliyi — 2020-ci il

### İlham ƏLİYEV: "Artıq təmas xətti yoxdur, Azərbaycan Ordusunun xilaskarlıq missiyası davam edir"

Oktyabrın 11-dən 12-nə keçən gecə bütün cəbhəboyu vəziyyət gərgin olub.

Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri itirdikləri mövqeləri geri qaytarmaq məqsədilə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində bir neçə dəfə kiçik qruplarla Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstəriblər.

Həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd T-72 tankı, bir neçə avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb. Əldə olunan məlumata əsasən, döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin 9-cu alayının artilleriya rəisi tabeliyində olan bölmə ilə Hadrut yaşayış məntəqəsi istiqamətindən geri çəkilib, alayın 5-ci taborunun şəxsi heyəti isə təhkim olunmuş texnikanı döyüş mövqelərində qoyub qaçıb. Bundan əlavə, düşmənin 5-ci və 522-ci alayın şəxsi heyəti avtomobil və zirehli texnikalarını ataraq mövqelərindən geri çəkilib.

### Düşmənin tank əleyhinə bölmələri döyüş mövqelərini tərk ediblər

Qırmızı Bazar məntəqəsi istiqamətinə endirilən artilleriya zərbəsi nəticəsində 1-ci alayın daimi dislokasiya məntəqəsində yeraltı sığınacaq və düşmənin geri çəkilən bölməsinin 2 texnikası məhv edilib.

Məlumata əsasən, canlı qüvvə sarıdan xeyli itki verən düşmən ordusunda ölənlər arasında 246-cı alayın tabor komandiri polkovnik-leytenant Artur Qriqoryan da var.

Ermənistan silahlı qüvvələrinin 1-ci alayının müdafiə sahəsində geri çəkilən bölmələr arasında rabitə və qarşılıqlı əlaqənin pozulması səbəbindən özləri bir-birilərinə atəş açıblar. Tank əleyhinə və digər bölmənin şəxsi heyətləri də döyüş mövqelərini tərk ediblər.

### Ermənistan humanitar atəşkəs rejimini pozub

Goranboy, Tərtər və Ağdam rayonlarının ərazisi humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulublar.

### İlham Əliyev "Haber Global"a müsahibəsində Ermənistanı bir daha ifşa edib



Prezident İlham Əliyev Türkiyənin "Haber Global" televiziya kanalına müsahibə verərək qeyd edib ki, Ermənistan atəşkəs rejimi tətbiq olunandan sonra da öz çirkin əməllərini davam etdirib. Azərbaycan isə hər zaman olduğu kimi, sözünə sadiq qalıb:

"Bir halda ki, bu atəşkəs haqqında açıqlama verilmişdir, biz ümid edirdik ki, bundan sonra Dağlıq Qarabağ məsələsi siyasi yollarla həll ediləcək. Çünki hesab edirdik ki, hərbi mərhələ artıq başa çatıb, təcavüzkar döyüş meydanında dərsini alıb və bundan sonra reallıqlarla hesablaşıb, diplomatik müstəvidə müsbət yanaşma göstərəcək. Ancaq təəssüf ki, biz bunu görmədik və saat 12-dən qüvvəyə minməli olan atəşkəs Ermənistan tərəfindən pozulmuşdur".

İlham Əliyev deyib ki, gecə saatlarında mülki şəxslərə qarşı dəhşətli cinayət törədilib. Gəncə şəhəri bombardman edilib. Şəhər "Toçka-U" raketləri ilə atəşə məruz qalıb və bunun nəticəsində mülki vətəndaşlar həlak olub və yaralanıblar. Bunu erməni faşizminin eybəcər sifətinin növbəti təzahürü adlandıran Azərbaycan Prezidenti artıq dünya erməniliyi, Ermənistanın havadarları, onların hamiləri və islamofob dairələrin bu cinayəti gizlədə bilməyəcəklərini vurğulayıb: "Çünki artıq hər şey göz qabağındadır. Dünən o hadisə yerində təşkil olunan mətbuat açıqlamaları və bu gün oraya gedən xarici səfirliklərin nümayəndələri öz gözləri ilə hər şeyi görürlər. Bir daha görürlər ki, bu münaqişənin səbəbkarı kimdir. Kim təcavüzkar siyasət aparır, kim mülki əhaliyə qarşı cinayət törədir. Ermənistan dövləti terror dövlətidir, faşist dövlətidir və insanlığa qarşı törədilmiş bu cinayət bunu bir daha göstərdi".

Ali Baş Komandan bir daha qeyd edib ki, artıq təmas xətti yoxdur və Azərbaycan Ordusunun xilaskarlıq missiyası davam edir.

### Ermənilər özləri-özlərini aldadıblar

Müdafiə Nazirliyi məlumat yayaraq bildirib ki, Ermənistan tərəfinin guya Azərbaycan Ordusunun Hadruta daxil olmaq məqsədilə bu istiqamətdə xeyli sayda qüvvə cəmləşdirməsi və gərgin döyüşlərin getməsi barədə yaydığı məlumat açıq-aydın dezinformasiyadır.

Hadrut artıq bir neçə gün bundan əvvəl Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunub.

Azərbaycan Ordusu humanitar atəşkəs rejiminə ciddi riayət edir və heç bir aktiv döyüş fəaliyyəti həyata keçirmir.

### Tovuzda və Ağdamda düşmənin 3 PUA-sı məhv edilib

Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmənin 2 PUA-sı, Ağdam rayonu istiqamətində isə 1 PUA-sı hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

### Döyüş bölgələrinə yaxın səyyar təminat və məişət xidməti məntəqələri yaradılıb



Döyüş əməliyyatlarında iştirak edən şəxsi heyətin təminat və təchizat məsələləri diqqət mərkəzində saxlanılıb və dərhal həll olunması ilə bağlı tədbirlər görülüb. Qoşunların hərbi texnika, silah-sursat, yanacaq-sürtkü materialları, ərzaq və əmlakla təmin edilməsi müvafiq idarə və xidmətlər tərəfindən sutka ərzində fasiləsiz həyata keçirilib. Bu məqsədlə döyüşlər gedən ərazilərə yaxın yerlərdə səyyar təminat və məişət xidməti məntəqələri yaradılıb.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## "PASHA Holding" dünyanın aparıcı şirkətlərini, startapları və innovatorları bir araya gətirdi

### Bu, holdinqin ölkədə innovativ sənayenin inkişafı üçün atdığı növbəti addımdır





**Xəbər verildiyi kimi, "PASHA Holding"in təşkilatçılığı ilə Bakıda "INMerge İnnovasiya Sammiti" (INMerge Innovation Summit 2024) keçirilib. İkigünlük sammitdə müasir texnologiya və biznesin gələcəyini formalaşdıran müxtəlif transformativ sahələr diqqət mərkəzində olub. Tədbirdə "fintech", telekommunikasiya, e-ticarət, süni intellekt, marketinq, "insurtech" kimi önəmli və hazırda trend sayılan mövzular müzakirə edilib. Bundan əlavə, "yeni iqtisadiyyat" vertikalında qabaqcıl texnologiyaların istehsal innovasiyasını necə idarə etdiyi kimi mövzular da tədbirin gündəliyində yer alıb.**

"INMerge İnnovasiya Sammiti" "Bakı İnnovasiya Sammiti" adı ilə ilk dəfə 2022-ci ildə yeni trendlər və innovasiyalara əsaslanan tədbir kimi Azərbaycanda keçirilib. "INMerge" Qafqaz, Mərkəzi Asiya, Şərqi Avropa, Orta Şərq və Şimali Afrikadakı 25-dən çox ölkədən spiker, investor və əməkdaşı birləşdirir. Ötən il Bakı Konqres Mərkəzində keçirilən sammit "PAŞA Holdinq"in təşkilatçılığı ilə baş tutub. Sammitə 20 ölkədən 3000-ə yaxın iştirakçı, 50-dən çox investor, 150-dən çox startap qatılıb. Əsas məqsədi Azərbaycanda, o cümlədən regionda startap mühitini dəstəkləmək və innovativ sənayeni inkişaf etdirmək olan tədbirdə ən yaddaqalan çıxışlardan birini "Apple"nin həmtəsisçisi Stiv Voznyak edib. O, sözün əsl mənasında, nümunə göstəriləsi insan, amma bir o qədər də təzadlı, elm və texnologiya ilə yeni bir dövrün başlanğıcını qoyan sirli dünya azarkeşi, realist, eyni zamanda eqoist, gələcəyi düşünən, həmçinin sabit fikirli olan universitet dostu Stiv Cobs haqqında fikirlərini tədbir iştirakçılar ilə bölüşüb: "Stiv Cobsu "Apple"nin yaradılmasından beş il əvvəl tanıdım. Əyləncə sevən yeniyetmə idi. O, həyatı dəyişdirən insanlara pərəstiş edirdi. Mənim icad etdiyim kompüteri görəndə bunun yeni biznes imkanı olduğunu dedi və yeni şirkət yaratmaq ideyasını təklif etdi. "Apple" şirkəti beləcə yarandı. O bu ideyanı verməsə idi, mən elə bu günə qədər mühəndis olaraq qalmışdım".

Budəfəki tədbir dünyanın aparıcı texnologiya şirkətlərini, sahənin liderlərini, startapları və innovatorları bir araya gətirib. Beynəlxalq sammit bu gün rəqəmsal ekosistemin inkişafına töhfə vermək, eləcə də innovasiya ekosisteminin bütün iştirakçıları arasında fikir və təcrübə mübadiləsi aparmaq, faydalı əməkdaşlıq qurmaq üçün mükəmməl bir platformaya çevrilib.

Sammitdə "PAŞA Bank" Əlavə Dəyər Xidmətlərinə (Value-Added Services, VAS) həsr olunmuş vertikalın sponsoru idi. Əlavə Dəyər Xidmətləri dünyada geniş istifadə edilən qeyri-maliyyə xidmətləridir. Onlar şirkətin və ya bankın əsas məhsul və xidmətlərini tamamlayır. Bu, istifadəçi təcrübəsini artıraraq və biznes sahiblərinə əlavə rəqabət üstünlüyü verərək əsas məhsul və xidmətlərin dəyərini yüksəldir. Əlavə Dəyər Xidmətləri gündəlik tələbat malları, telekom, bankçılıq və digər sahələrdə fəal şəkildə istifadə olunur. "PAŞA Bank", Azərbaycandakı biznes sahiblərinə Əlavə Dəyər Xidmətlərinin üstünlüklərini tanıtmaq və yerli bazarda məlumatlılığı artırmaq üçün "Nestle", "KOOP Ventures", "SupplierPlus", "International Dgpays Group" və bir sıra qlobal şirkətləri təmsil edən aparıcı beynəlxalq ekspertləri sammitə dəvət etmişdi.

Tədbir zamanı mütəxəssislər Əlavə Dəyər Xidmətlərinin inkişaf perspektivləri, Azərbaycan bazarında istifadəsi və konkret nümunələri müzakirə edib və bu sektorun nümayəndələrinin suallarını cavablandırıblar. Yeri gəlmişkən, qeyd edək ki, etibarlı maliyyə tərəfdaşı olan "PAŞA Bank" Əlavə Dəyər Xidmətləri seqmentini inkişaf etdirərək Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafını təmin etmək məqsədilə layihələrin və ideyaların həyata keçirilməsini davam etdirməyi planlaşdırır.

Bütün region üçün innovasiya ekosistemini gücləndirmək öhdəliyini götürən sammit 100-dən çox startap qrupu bir araya gətirib. Onların hər biri müxtəlif sənaye sahələrində yeni perspektivlər və gələcəyi formalaşdıracaq qabaqcıl ideyalar verirlər. Startaplar davamlılığa və inkişafa açıq olan, təklif etdikləri xidmət üçün texnologiyadan istifadə edən və paydaşlarına təqdim edən, fərqli və müxtəlif auditoriyalarda üstün olan, xidmətlər ilə yeni bir ehtiyac yaradan təşəbbüskar fikir sahibidirlər.

Sammit həmçinin istedadlı insanları imkanlarla, sahibkarları investorlarla birləşdirən bir platformadır. Bu səbəbdən tədbirdə iştirak edən investorların, startapların, digər qonaq və ziyarətçilərin sayı hər il artır. Bu, o deməkdir ki, "INMerge İnnovasiya Sammiti" hər kəsin irəliyə doğru getmək və peşəkar inkişaf etmək istəyinə hədəflənmiş tədbirdir.

Sammitdə yeni "INMerge Vençur" kapital fondu təsis edilib. Fondun təsisçi tərəflərindən olan "PASHA Innovations" şirkəti, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, Azərbaycan İnvestisiya Şirkəti, eləcə də "Trendyol" şirkətlər qrupunun rəhbərləri öz çıxışlarında fondla bağlı fikirlərini söyləyərək yeni yaranmış bu təsisatın parlaq ideyaları dəstəkləyən əsas alətlərdən birinə çevriləcəyinə inandıqlarını bildiriblər. Fond çərçivəsində Qafqaz, Mərkəzi və Şərqi Asiya, eləcə də Yaxın Şərq və Şimali Afrika regionlarından olan startaplara yatırımların edilməsi nəzərdə tutulur.

Müzakirələrdə "Yutub" şirkətinin həmtəsisçisi Stiv Çen, "Amazon" kompaniyasının vitse-prezidenti və texniki direktoru Verner Foqels, Harvard Biznes Məktəbinin professoru, "Paradox Strategies" və "Innovation-Force" şirkətlərinin təsisçisi Linda Hill, "Starbucks" şəbəkəsinin həmtəsisçisi Zev Siql və "Waze" kampaniyasının rəhbəri Uri Levin, "Bakcell"in baş icraçı direktoru Klaus Müller, həmçinin Azərbaycandan "PASHA Holding"in baş icraçı direktoru Cəlal Qasımov, "Kapital Bank"ın baş icraçı direktoru Fərid Hüseynov, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin sədri İnarə Vəliyeva və "4SIM"in icraçı direktoru Fariz Cəfərov çıxış ediblər.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

## Süni intellekt yeni sahələrin yaranmasına kömək edir

**"Süni intellekt yeni sahələrin və gələcək peşələrinin yaranmasına kömək edir". "Trend" xəbər verir ki, bu barədə Verizon şirkətinin analitika və məlumatlar şöbəsinin rəhbəri Ansar Kassim Bakıda "PASHA Holding" tərəfindən təşkil edilən "INMerge" İnnovasiya Sammitində deyib.**

"Gələcəkdə süni intellektə əsaslanan yeni sahələr yaranacaq, necə ki bir zamanlar elektrik əsasında yeni sahələr ortaya çıxdı. Bu, bir çox yeni iş yerlərinin yaranmasına səbəb olacaq. 10 ildən sonra məşğul olacağınız peşələrin çoxu bu gün hələ mövcud deyil. Mənim süni intellekt sahəsindəki indiki işim də 10 il əvvəl yox idi. O vaxt yalnız kiçik laboratoriyalar var idi ki, burada süni intellektlə eksperimentlər aparılırdı, amma bu, indiki qədər geniş miqyasda deyildi. İndi yeni peşələrin yaranması üçün təxminən 8 il lazımdır və zaman keçdikcə bu müddət qısalacaq", - o qeyd edib.

Onun sözlərinə görə, əmək məhsuldarlığı 2 əsas ixtira - elektrik və informasiya texnologiyaları sayəsində xeyli artmışdır.

"Bu gün süni intellekt də məhsuldarlığın artmasına kömək edir və bunun nəticələri yaxın gələcəkdə nəzərə çarpacaq", - o deyib.

## ƏƏSMN-də UNICEF-in Azərbaycandakı nümayəndəsi ilə görüş keçirilib



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəsi Saca Faruq Abdullah ilə görüş olub.**

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov ölkəmizdə uşaqların müdafiəsi, habelə əlillik və inklüzivlik, həssas qruplara aid uşaqların və ailələrin sosial müdafiəsi sahələrində UNICEF-lə əməkdaşlığa xüsusi önəm verildiyini vurğulayıb.

Uşaq qayğı sisteminin gücləndirilməsi istiqamətində son illər aparılan islahatlar, "Himayədar ailə" qayğı modelinin tətbiqi işləri barədə məlumat verilib. Dövlət uşaq müəssisələrindən uşaqların ailələrinə reinteqrasiyasına yönələn tədbirlər, uşaqların həmin müəssisələrə düşməsinin qarşısının alınması məqsədilə aparılan işlər diqqətə çatdırılıb.

Ötən dövrdə qeyd olunan sahələrdə, habelə sosial işçilərin bacarıqlarının təkmilləşdirilməsi, əlilliyi olan gənclərin məşğulluq imkanlarının artırılmasının dəstəklənməsi və s. istiqamətlərdə birgə layihələrin əhəmiyyəti qeyd edilib. Cari ilin iyun ayında nazirliklə UNİCEF arasında imzalanmış 2024-2025-ci illər üçün iş planı əsasında görülən işlərdən bəhs olunub.

S.F.Abdullah ölkəmizin uşaq qayğı sistemində aparılan islahatlar və bu islahat prosesində UNICEF-lə davamlı əməkdaşlığın həyata keçirilməsini müsbət dəyərləndirib.

Görüşdə gələn ay Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP29) çərçivəsində UNICEF-lə də əməkdaşlıqda təşkil olunması nəzərdə tutulan tədbirə, həmçinin gələcək əməkdaşlıq istiqamətlərinə dair fikir mübadiləsi aparılıb.

## Azərbaycan neftinin qiyməti 80 dolları ötüb



**AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,36 dollar və ya 1,72 faiz artaraq 80,38 dollar olub.**

Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

## Pensiya ödənişlərinə 4,8 milyard manatdan çox vəsait yönəldilib

**Cari ilin 9 ayında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 14 faiz (584 mln. manat) çox olmaqla 4 mlrd. 860 mln. manat vəsait yönəldilib.**




Həmin dövrdə ölkə üzrə pensiyaların orta aylıq məbləği 13 faiz artaraq 491 manata, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 525 manata çatıb.

Yanvar-sentyabr aylarında 29 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən 131 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada aparılıb.

## İqtisadiyyat Nazirliyinin Çağrı Mərkəzinə 350 minə yaxın müraciət olub

**Cari ilin yanvar-sentyabr ayları ərzində İqtisadiyyat Nazirliyinin 195-1 Çağrı Mərkəzinə 350 minə yaxın müraciət olub.**

Vətəndaşların İqtisadiyyat Nazirliyinə və qurumlarına müraciətinin daha da asanlaşdırılması və vətəndaş məmnunluğunun yüksəldilməsi məqsədilə yaradılmış 195-1 Çağrı Mərkəzinə 2024-cü ilin yanvar-sentyabr ayları ərzində 305 130 canlı rejimdə, qalanları isə səsli menyu xidməti vasitəsilə olmaqla ümumilikdə 346 485 müraciət olub.

Müraciətlər əsasən istehlakçı hüquqları, sahibkarlıq fəaliyyəti, lisenziyaların verilməsi, vergilərin ödənilməsi, vergi ödəyicisinin hüquq və vəzifələri, daşınmaz əmlakın dövlət qeydiyyatına alınması, dövlət əmlakının özəlləşdirilməsi, həmçinin İqtisadiyyat Nazirliyinin səlahiyyətlərinə və fəaliyyət istiqamətlərinə dair digər məsələləri əhatə edib.

## Bakı-Ceyhanın Tbilisi "körpü"sü

### BTC-nin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsindən 20, Gürcüstan hissəsinin istifadəyə verilməsindən 19 il keçir

**2004-cü il oktyabrın 16-da Azərbaycanın Ağstafa rayonunun Böyük Kəsik kəndində - Gürcüstanın Qardabani rayonu ilə sərhəddə Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin bu iki ölkədən keçən hissələrinin birləşdirilməsi münasibətilə tədbir keçirildi.**

Bu birləşdirmə BTC-nin çəkilişi boyu həyata keçirilən 15 min qaynaq əməliyyatından biri idi. Lakin bu, adi qaynaq deyildi. Bununla zəmanəmizin möhtəşəm layihələrindən biri, nəhəng inşaat və mühəndis qurğusu olan BTC-nin tamamlanmasına doğru növbəti mühüm addım atılırdı.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsində həm də qarşılıqlı inam məsələsi vardı. Bu, iqtisadi inkişafla yanaşı, insanların bir-birinə sosial-mədəni sahədə daha da yaxınlaşmasına xidmət edirdi. Prezident İlham Əliyev tədbirdəki çıxışında tikilməkdə olan kəmərin əhəmiyyətini vurğulayaraq demişdir: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi həm Azərbaycan üçün, həm Gürcüstan üçün, həm də bütün region üçün çox vacibdir. Bu, ölkəmizə yeni imkanlar yaradacaqdır, xalqlarımız üçün yeni şəraitin yaradılmasını təmin edəcəkdir. Əlbəttə ki, bu, ölkələrimizə böyük həcmdə maliyyə vəsaitinin cəlb olunmasına gətirib çıxaracaqdır. Eyni zamanda bu iqtisadi məsələlərlə yanaşı, regional təhlükəsizlik məsələlərinə də layihə öz töhfəsini verəcəkdir".

Həmin vaxt üç ölkə ərazisində marşrut boyunca tikinti dəhlizi tamamilə təmizlənmiş və açılmışdı. Boruların 97 faizi qaynaqlanmış və 70 faizi torpaqla örtüklənmişdi. BTC-yə vurulacaq ilk nefti "Mərkəzi Azəri" platforması verəcəkdi ki, onun da üst modulları artıq dənizdə quraşdırılmış dayaq bloku üzərində yerləşdirilmişdi. Səngəçaldakı və Ceyhandakı terminallarda nefti qəbul etmək üçün hazırlıq işləri gedirdi və onların əsas hissəsi görülmüşdü.

Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisində kəmərin çəkilişində 21 min insan çalışırdı. Azərbaycanda tikintiyə 5 min nəfər cəlb olunmuşdu. Bu insanların əməyi ilə BTC uğurla irəliləyirdi.

Beləliklə, 2005-ci il mayın 25-də Səngəçal terminalından kəmərə ilk neft vuruldu. Başqa sözlə, boru xəttinin Azərbaycan hissəsi istifadəyə verildi. Bundan sonra növbə Gürcüstan hissəsinin idi. 2005-ci il oktyabrın 12-də Gürcüstanın Qardabani rayonunda yerləşən 1 nömrəli nasos stansiyasının ərazisində BTC-nin bu ölkədəki hissəsinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirildi. Yeri gəlmişkən, qeyd edək ki, BTC-nin 8 nasos stansiyası və digər yerüstü obyektləri də var. Nasos stansiyalarının 2-si Azərbaycanda, 2-si Gürcüstanda, 4-ü isə Türkiyədə yerləşir. Səngəçaldakı bu qəbildən olan qurğu, ümumiyyətlə, kəmərin baş nasos stansiyasıdır. Ölkəmizdəki digər nasos stansiyası Yevlax rayonunun ərazisində yerləşir.

2005-ci ilin sözügedən dövründə kəmərin iki ölkədəki hissəsi neftlə doldurulmuşdu, Türkiyə hissəsinə də artıq neft vurulurdu. Xətti tam doldurmaq üçün 10 milyon barel neft tələb olunurdu. Elə bu tədbirdə də qeyd edildi ki, BTC dünyanın böyük enerji layihələrindəndir.

Prezident İlham Əliyev bu transmilli layihənin geniş əməkdaşlıq şəraitində gerçəkləşdiyini bildirərək demişdir: "Bu layihənin həyata keçirilməsində çoxlu insan iştirak edibdir. Biz hamımız - çoxlu şirkətlər, dövlətlər, maliyyə qurumları, adi fəhlələr bunu birlikdə etmişik. Ancaq hamımız xatırlayırıq ki, bu nəhəng transmilli layihənin təməli 1994-cü ildə Bakıda "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanmışdır. Azərbaycan rəhbərliyinin, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin qətiyyəti, cəsarəti, Azərbaycan xalqının dəstəyi bizə imkan verdi ki, ölkəmiz öz zəngin neft, qaz yataqlarını işə sala bildi və bu gün bizim təbii ehtiyatlarımız dünya bazarlarına çıxarılır".

BTC-dən sonra ölkəmizdə bir sıra digər qlobal layihələr də gerçəkləşib və bu layihələrdə də Azərbaycanla Gürcüstan birlikdə olublar. Söhbət Bakı-Tbilisi-Ərzurum qaz kəmərindən, Bakı-Tbilisi-Qars dəmir yolundan, TANAP-dan (Trans-Anadolu Qaz Boru Kəməri) və digər layihələrdən gedir.




İndi dünya "yaşıl enerji"yə keçid edir. Azərbaycan və Gürcüstan bu sahədə də sıx əməkdaşlıq edirlər. Belə ki, yaxın gələcəkdə ölkəmizdən Avropaya uzanacaq "yaşıl enerji" dəhlizi də Gürcüstandan keçəcək. 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb.

Bir sözlə, qonşu və dost ölkə olan Gürcüstanla enerji əməkdaşlığının tarixi zəngin, gələcəyi böyükdür. Təsadüfi deyil ki, Gürcüstanın Baş naziri İrakli Kobaxidze bu ilin mart ayında ölkəmizə rəsmi səfəri zamanı mətbuata bəyanatında bir daha xatırlatmışdır ki, bizim birlikdə təməlini qoyduğumuz bir sıra layihələr var və onlar strateji əhəmiyyət daşıyır. Gələcək üçün də çox böyük planlar mövcuddur. O cümlədən nəqliyyat, energetika sahələrində çox mühüm potensialımız var: "Bu işlər davam etdiriləcək. Qarşılıqlı səfərlər davam edəcək. Nümayəndə heyətlərinin görüşləri davam edəcəkdir ki, bu sahələrdə də bizim əməkdaşlığımız dərinləşdirilə bilsin. Biz bu əməkdaşlığı irəliyə aparmağa tam şəkildə hazırıq".

*Flora SADIQLI, "Azərbaycan"*

# Məktublar: problemlər, rəylər, təkliflər...



● RAZILIQ

## Şəmkirdə şəhid övladlarına xüsusi diqqət var



**Şəmkir Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayonumuzda şəhid övladları üçün mütəmadi olaraq sosialyönümlü "Onlar bizə əmanətdir" adlı layihə həyata keçirilir.**

Layihə çərçivəsində müxtəlif yerlərə ekskursiyalar təşkil olunur, uşaqların dünyagörüşünün formalaşması üçün intellektual oyunlar təşkil edilir.

Bu günlər layihə çərçivəsində daha bir tədbir keçirilmişdir. Şəhid övladlarının Göygöl Milli Parkına ekskursiyası təşkil olunmuşdur. Səfər çərçivəsində uşaqlar Gəncədəki İstirahət və Əyləncə Mərkəzində də olmuş, maraqlı anlar yaşamışlar. Uşaqlar olduqları bütün yerlərdə xatirə şəkli çəkdirmişlər.

Hörmətli redaksiya! Şəhid balalarına göstərilən diqqət və qayğıya görə əməyi olan hər kəsə minnətdarlığımızı bildiririk.

*Akif ALMƏMMƏDOV,*
*Şəmkir rayonu, şəhid atası*

● Təhsil

## Var olsun suveren, bütöv Azərbaycan

**Cari tədris ili məktəbimizin kollektivi üçün sevincli hadisələrlə yadda qaldı - dərslərə Elm və Təhsil Nazirliyi tərəfindən əsaslı təmir olunan binada başladıq.**



Məktəb binasının özü ilə yanaşı, bütün avadanlıqlar da yenilənib. Sinif otaqlarında, idman zalında, fizika laboratoriyasında uşaqların yaxşı oxumaları və sağlam böyümələri üçün hər cür şərait yaradılıb.

Qeyd edim ki, şagirdlərimizdə elmə maraq çox yüksəkdir. Cari il məktəbi bitirən 18 məzundan 9-u universitetlərə, 2-si kolleclərə, 1 nəfər isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olub.

Sentyabrın 20-də Prezident İlham Əliyevin Xankəndidə olmasını, orada tələbələrlə görüşünü maraqla izlədik. Qürur hissi ilə bildirmək istəyirəm ki, bizim məktəbin də bir məzunu bu universitetdə təhsil alır.

Universitetdə çıxışı zamanı dövlət başçısı vətənpərvərlik tərbiyəsində iki amili xüsusilə vurğuladı - ailə və müəllimi. Çoxillik müəllimlik təcrübəm bu sözlərin nə qədər düzgün olduğunu təsdiqləyir.

Dövlətimiz yaşamaq, işləmək və təhsil almaq üçün hər cür şərait yaradıb. Bu günlər Azərbaycanın Suverenlik Gününün təsis edilməsini sevinc hissi ilə qarşıladıq. Bütün bunlara görə deyirik: Var olsun suveren, bütöv Azərbaycan!

*Məmməd MƏMMƏDOV,*
*Tərtər rayonundakı Bəyimsarov kənd tam orta məktəbin riyaziyyat müəllimi*

AZƏRBAYCAN-a cavab verirlər

## Vəsaitin ayrılması ilə bağlı müraciət olunacaq

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə Kürdəmir-Şamaxı avtomobil yolunun əsaslı təmir olunması barədə daxil olmuş 19 sentyabr 2024-cü il tarixli məktubunuza aidiyyəti üzrə baxılmışdır.**

Bildiririk ki, Şamaxı-Göylər-Çöl-Padar avtomobil yolunun texniki istismar vəziyyətinin yaxşılaşdırılması və nəqliyyat vasitələrinin normal hərəkətinin təmin olunması məqsədilə mütəmadi olaraq müvafiq cari təmir işləri aparılır.

Bildiyiniz kimi, avtomobil yolları şəbəkəsinin inkişafı ilə bağlı respublikamızın ərazilərində həyata keçirilən təmir-tikinti işləri qəbul edilmiş dövlət proqramlarına əsasən prioritetlik əsasında ayrılan maliyyə vəsaiti hesabına mərhələlərlə həyata keçirilir.

Bu baxımdan Şamaxı-Göylər-Çöl-Padar avtomobil yolunda nəqliyyat vasitələrinin hərəkət intensivliyi və yolun asfalt-beton örtüyünün üst aşınma layının yenidən tikintisinə yaranmış ehtiyac nəzərə alınaraq yolun üst aşınma qatının tikintisinə maliyyə vəsaitinin ayrılması istiqamətində müvafiq tədbirlərin görülməsi ilə bağlı müəyyən olunmuş qaydada aidiyyəti üzrə müraciət olunması nəzərdə tutulmuşdur.

## Zədələnmiş su xətləri aidiyyəti qurumlar tərəfindən təmir edilməlidir

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ünvanladığınız "Azərbaycan" qəzetinin 7 sentyabr 2024-cü il sayında dərc edilmiş "Qaş düzəltdikləri yerdə göz çıxarıblar" sərlövhəli oxucu məktubunda qeyd olunan Salyan rayonunun Boranıkənd və Şorsulu kəndlərində yol-təmir işləri aparılan zaman həmin kəndlərdə gedən zədələnmiş su xətlərinin bərpası istiqamətində müvafiq tədbirlərin görülməsi barədə müraciətinizə aidiyyəti üzrə baxılmışdır.**

Bildiririk ki, "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun 15-1-ci maddəsinin 1 və 2-ci bəndlərinə əsasən, ümumi istifadədə olan avtomobil yollarının mühafizəsi, perspektiv inkişafı, təmiri, yenidən qurulması, saxlanılması üçün nəzərdə tutulmuş, habelə yolkənarı xidmət obyektlərinin yerləşdiyi ərazini əhatə edən qorunma (mühafizə) zolaqları müəyyən edilir.

Həmin maddənin 6-cı bəndinə əsasən, ümumi istifadədə olan avtomobil yollarının qorunma (mühafizə) zolaqlarında avtomobil yollarının tikintisi, saxlanılması, təmiri, yenidən qurulması və sərnişin və yükdaşımaları sahəsində nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının fəaliyyəti ilə əlaqədar olan tikililər və qurğular, habelə yolkənarı xidmət obyektləri istisna edilməklə, digər tikililərin və qurğuların yerləşdirilməsi qadağandır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinun "Dövlət mülkiyyətində olan avtomobil yollarının qorunma (mühafizə) zolaqlarının ölçüləri"nin təsdiq edilməsi haqqında 2015-ci il 11 sentyabr tarixli 298 nömrəli qərarının 1-ci bəndinə əsasən, respublika əhəmiyyətli avtomobil yollarında yolun hər bir hərəkət istiqaməti üzrə hərəkət hissəsinin mərkəzindən 30 metr, yerli əhəmiyyətli avtomobil yollarında yolun hər bir hərəkət istiqaməti üzrə hərəkət hissəsinin mərkəzindən 12,5 metr enində qorunma (mühafizə) zolaqları müəyyən edilmişdir.

"Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin 5 və 6-cı bəndlərinə əsasən, kommunikasiyaların çəkilməsi və ya yenidən qurulması işlərinə başlamazdan əvvəl bu kommunikasiyaların mülkiyyətçiləri avtomobil yollarının saxlanılmasını həyata keçirən yol təsərrüfatı orqanları ilə müvafiq müqavilə bağlamalıdırlar. Avtomobil yollarında mühəndis kommunikasiyaların çəkilməsini həyata keçirən sifarişçilər avtomobil yolunun əvvəlki vəziyyətinə gətirilməsini təmin etməli və bu işlərlə bağlı bütün xərcləri ödəməlidirlər.

Qeyd olunanları və sözügedən su xətlərinin "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun 15-1-ci maddəsinin tələbləri pozulmaqla Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin balansında olan yerli əhəmiyyətli avtomobil yollarının təhkim və qorunma (mühafizə) zolağında qeyri-qanuni yerləşdirildiyini nəzərə alaraq, zədələnmiş su xətləri aidiyyəti qurumlar tərəfindən bərpa olunmalıdır.

*Əvəz QOCAYEV,*
*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini*

## Tövsiyə və tapşırıqlar verilmişdir

**"Azərbaycan" qəzetinin 18 sentyabr 2024-cü il tarixli sayında dərc edilmiş "Unutmayaq ki, ziyarətgahlar həm də tariximizdir" sərlövhəli oxucu məktubunda qaldırılmış məsələ ilə əlaqədar rayon icra hakimiyyətinə daxil olmuş 19 sentyabr 2024-cü il tarixli məktubunuza baxılmışdır.**

Bildiririk ki, rayon icra hakimiyyəti başçısının Zarat kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin, Zarat bələdiyyəsi sədrinin, Siyəzən Rayon Polis Şöbəsinin əməkdaşlarının, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 5 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin əməkdaşları ilə birlikdə rayonun Zarat kəndi ərazisində yerləşən "Xıdır Zində" məscidinin ətrafında inşa edilmiş obyektlərin sahibləri ilə maarifləndirmə işləri aparılmış və tullantıların ətraf ərazilərə atılmaması, ərazidəki zibil qutularından istifadə edilməsi ilə əlaqədar onlara müvafiq tövsiyə və tapşırıqlar verilmişdir.

Tərəfimizdən rayon icra hakimiyyəti başçısının Zarat kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinə, Zarat bələdiyyəsinin sədrinə və digər aidiyyəti qurumlara ərazidə abadlıq və səliqə-sahman işlərinin aparılması, eləcə də ərazidə olan obyektlərin sahibləri ilə təkrar maarifləndirmə işlərinin aparılması və müvafiq tədbirlərin görülməsi üçün tövsiyə və tapşırıqlar verilmişdir.

*Elvin KƏRİMOV,*
*Siyəzən RİH Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri*

● **Bakı bu gün**









*Gündən-günə gözəlləşən, müasirləşən Bakını vəsf etməkdən doymaq olmur. Paytaxtımız bənzərsiz memarlığı, tarixi abidələri ilə dünyanın məşhur şəhərləri sırasındadır.*

*Müasir memarlıq nümunələri, cəlbedici göydələnlər, gözoxşayan yamyaşıl parklar şəhərimizin gözəlliyinə fərqli çalarlar qatır. Dənizkənarı Milli Park isə xarici turistlər üçün əsl cənnətdir. Şəhərin gecəsi də əsrarəngizdir. Parlaq işıqlar və işıqlandırılan binalar gecəni aydınlığa çevirir. Dağüstü parkdan baxdıqda şəhərin gözəlliyi daha aydın görünür.*

*Hər zaman ziyarətçilərin yaddaşında qonaqpərvər insanları ilə unudulmaz izlər buraxan Bakı müxtəlif layihələr və təşəbbüslərlə dünyaya "yaşıl" bir gələcək təqdim edir. Əminliklə demək olar ki, yaxın zamanda dünyanın hər tərəfindən Bakımıza toplaşacaq insanların yaddaşında bu gözəl şəhər əbədi olaraq xoş təəssüratlarla qalacaqdır.*

*Fotolar İlham BABAYEVİNDİR*

● PROBLEM

## Əkin suyu sarıdan çətinlik çəkirik



**Hörmətli redaksiya, sizi narahat etdiyimizə görə bəri başdan üzr istəyirik. Müraciətimizin səbəbi əkin sahələrimizi suvara bilməməyimizdir. Susuz əkin aparmaq, yaxşı məhsul əldə etmək isə çox müşkül məsələdir.**

Bu məsələ ilə bağlı dəfələrlə Cəlilabad Rayon İcra Hakimiyyətinə müraciət etmişik. Sağ olsunlar, onlar da bizə kömək etmək üçün əllərindən gələni edirlər. Hətta Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə məktub da yazıblar. Cavab isə belə olub: "Cəlilabad rayonu ərazisində 4 mərhələdə 17 subartezian quyusu qazılması nəzərdə tutulmuşdur. Bu məqsədlə yaşayış məntəqələri üzrə bölgü aparılmışdır. 1-ci mərhələdə nəzərdə tutulmuş 3 quyu qazılıb istifadəyə verilmişdir. Qalan digər 14 subartezian quyusunun mərhələlərlə qazılması planlaşdırılmışdır".

3 quyuya görə minnətdarlığımızı bildiririk. Qalan 14 quyunun isə konkret nə vaxt qazılacağı haqqında bizə bir söz demirlər. 2024-cü il də artıq başa çatmaq üzrədir. Ancaq, necə deyərlər, gözümüz yolda, qulağımız səsdədir. Növbəti ildə vəziyyət düzələcəkmi? Hələlik bu barədə bir xəbər yoxdur.

Bu işə cavabdeh olan vəzifəli şəxslər bilməlidirlər ki, biz daha çox kənd təsərrüfatı məhsulları yetişdirib həm özümüz yaxşı yaşamaq, həm də ərzaq proqramının yerinə yetirilməsində yaxından iştirak etmək istəyirik. Bunun üçün də bizə əkin suyu lazımdır. Əbəs yerə deməyiblər ki, su həyatdır, bolluqdur, firavanlıqdır.

*Asim İMANOV,*
*Nasir YARIYEV,*
*Cəlilabad rayonunun Əliqismətli və Üçtəpə kənd sakinləri*

● ŞİKAYƏT

## Zibil konteynerləri vaxtında boşaldılmır

**Sakini olduğum Yeni Yasamal yaşayış massivi, Əsəd Əhmədov küçəsinin problemləri o qədərdir ki, sadalamaqla bitməz. Nəqliyyat problemi, tıxac, binaların bir-birinə çox yaxın məsafədə inşası, yaşıllığın, sakinlərin istirahət yerlərinin az olması, ticarət obyektlərinin küçələri zəbt etməsi və s.**

Müraciətimin məqsədi isə məhəlləmizi basan zibilliklərdir. Bizim ərazidə əsas küçə hər gün süpürülüb təmizlənsə də, ara məhəllələrin təmizliyinə nəzarət edən yoxdur. Binaların ətrafı, məhəlləarası yollara toplanan zibillər vaxtlı-vaxtında daşınmır. Odur ki, konteynerlər dolub daşdığından külək olan kimi zibillər ətrafa səpələnir, üfunət iyi bütün massivi bürüyür. Rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin işçiləri isə bu mənzərəni görməzdən gəlir, sanki heç nə baş vermir. Mən hələ meyvə-tərəvəz satılan səyyar dükanların ətrafındakı acınacaqlı vəziyyəti demirəm, onlar bir başqa dərddir.

Hörmətli redaksiya! Yaranmış vəziyyətin aradan qaldırılmasında bizim səsimizi əlaqədar qurumlara çatdırmağınızı xahiş edirik. Ən azından nəzərə alsınlar ki, bir neçə həftədən sonra bütün dünyanın ekoloqları Bakıya gələcəklər. Kim zəmanət verə bilər ki, onların yolu bizim Yeni Yasamal massivindən düşməyəcək?!

*Nərminə QULİYEVA,*
*Yasamal rayonunun Ə.Əhmədov küçəsinin sakini*





Jurnalist araşdırması

# Mərəzə çevrilən dəb: Plastik əməliyyatlar



## Tibbi zərurət, fiziki ehtiyac, yoxsa zamanın tələbi?

**Vətəndaşlarımızın, xüsusən qadınların ən çox üz tutduğu həkimlərdən biri də estetik cərrahlardır. Son dövrlərdə bu əməliyyatlara müraciət edənlərin sayının artmasının əsas səbəbi sosial şəbəkələrdə davamlı reklam, müraciət və estetik əməliyyatlara çağırışlarla bağlıdır. Bəs bu qədər cərrahi əməliyyata ehtiyac varmı? İnsanları bu "xəstəliy"ə sürükləyən kompleksdir, yoxsa "qonşudan geri qalma" düşüncəsidir?**

**Biz də bu "yoluxucu" tendensiyasının səbəblərini araşdırdıq.**

### Pasiyentlər arasında artıq kişilər də çoxluq təşkil edir

Öncə statistikaya nəzərə salaq. Dövlət Statistika Komitəsindən sorğumuza cavab olaraq bildirildi ki, ötən il Azərbaycanda 14647 plastik əməliyyat icra olunub ki, onlardan da 9441-i estetik əməliyyatlardır. Bunun 1254-ü üz nahiyəsində, 490-ı göz qapaqlarında, 27-si qulaqlarda, 10452-si burunda, 354-ü ağız nahiyəsində, 52-si visseral kəllə sümüklərində, 1341-i isə süd vəzisində həyata keçirilib.

Estetik əməliyyatlara olan marağı nəzərə alaraq ilk olaraq bu sahənin mütəxəssisinin fikirlərini öyrəndik.

Almaniyanın Bad Salzungen şəhər xəstəxanasının qulaq, burun, boğaz və üz plastik cərrahiyyə şöbəsinin müdiri, Yena Universitetinin doktorantı Cavid Hüseynzadə deyir ki, estetik əməliyyatlara müraciətlərin sayının artması həm də sosial rifahın yüksəlməsi ilə bağlıdır. Onun sözlərinə görə, son illərdə Azərbaycanda insanların yaşam səviyyəsi yüksəldiyindən sağlamlıqlarına, qidalanmalarına diqqət etdikləri kimi, estetik görünüşlərinə də önəm verirlər. "Müxtəlif kosmetoloji prosedurlarla yanaşı, cərrahi əməliyyatlara müraciət edənlərin də sayı artıb. Azərbaycanda, ümumilikdə MDB ölkələrində vəziyyət, demək olar ki, eynidir - insanların plastik cərrahiyyəyə marağı və istəyi çox yüksəkdir. Yaşadığım və fəaliyyət göstərdiyim Almaniyada da estetik əməliyyatlara maraq bu ölkələrdən geri qalmır. Sadəcə olaraq, Almaniyada insanlar etdirdikləri prosedurları gizli saxlamağa daha çox üstünlük verirlər. Ona görə də Almaniyada çalışan həkimlər estetik əməliyyatların şəkillərini internet saytlarında və ya sosial şəbəkələrdə az paylaşırlar", - deyə həkim bildirir.

Şöbə müdiri qeyd edir ki, əvvəllər estetik əməliyyatlara daha çox qadınlar müraciət edirdilərsə, son illərdə pasiyentlər arasında kişilər də çoxluq təşkil edir. Amma cins kateqoriyasına görə onların estetik əməliyyat istəkləri fərqli olur. Yaş qrupuna gəlincə isə plastik əməliyyat üçün, adətən, 19-20 yaşdan yuxarı şəxslər müraciət edirlər. "Üz gərmə əməliyyatlarının populyarlaşmasından sonra daha yuxarı - 50-54 yaş qrupundan olan xanımlar da çox müraciət edirlər. Normalda burun əməliyyatlarını 17-18 yaşdan sonra icra edirik, çünki bu yaşa qədər burun tam şəkildə formalaşır və etdiyimiz müdaxilə və dəyişikliklər artıq uzunmüddətli olur. 17 yaşa kimi isə burunda nəfəsalmada problem olduğu halda əməliyyat edirik", - deyə həkim əlavə edir.

Həm qadınlarda, həm də kişilərdə ən çox icra olunan əməliyyatın rinoplastika (burun estetik əməliyyatı) olduğunu qeyd edən C.Hüseynzadə deyir ki, bu zaman yalnız estetik deyil, həm də burunun funksionallığı, yəni daha yaxşı nəfəs alması təmin edilir. Nəfəs almanın çətinləşməsinə səbəb həm çəpər əyriliyi, həm də burunətrafı ciblərdə yaranan problemlərdir. "Burun çəpəri əhalinin 80-85 faizində var, sadəcə olaraq, şikayəti olan şəxslər üzərində əməliyyat aparılır. Nəzərə alsaq ki, son illərdə ekologiyanın çirklənməsi - istər avtomobillərin ətrafa yaydığı qaz, istərsə də ətrafda olan tikintilər nəticəsində selikli qişamız daim qıcıqlanır, beləliklə, balıqqulaqları şişkinləşir. Bu da nəfəs almada ciddi problemlər yaradır", - deyə həkim əlavə edir.

C.Hüseynzadə qeyd edir ki, hər bir əməliyyat istər cərrahi, istərsə anesteziya baxımından riskli ola bilər. Bu gün tibdə istifadə olunan cihazlar, narkoz preparatları müasir standartlara tam cavab verdiyinə görə, hər hansı ağırlaşmaya demək olar ki, çox az təsadüf edilir. Bununla belə bu, əməliyyatdır, bəzən pasiyentlərin bədənləri sağalma dövründə fərqli reaksiyalar verə bilər.

Azərbaycanda estetik cərrahiyyənin inkişafından söz açan C.Hüseynzadə deyir ki, ölkədə müasir standartlara cavab verən klinikalar fəaliyyət göstərirlər. Xaricdə təhsil alıb, çalışsaq da, Azərbaycana gələrək qazandığımız bilik və təcrübəni bu tibb müəssisələrində rahat şəkildə tətbiq edə bilirik.

### Bəs əməliyyatlara üz tutanlar nə düşünür?

Müşahidələr göstərir ki, estetik əməliyyatlara üz tutanların çoxu görünüşü ilə bağlı kənardan deyilənlərin nəticəsində kompleksə düşərək maddi imkanından asılı olmayaraq, belə bir addım atırlar.

Rinoplastika etdirən Nurgün İsmayılova deyir ki, əməliyyatı birbaşa olaraq kənar müdaxilə nəticəsində etməsə də, uşaqlıqdan ailə üzvlərinin və ya ətrafındakıların dediklərindən sonra yaranan istək olub: "Zamanla üst-üstə yığılan komplekslərdən insan nəticə çıxarır. Qafqaz xalqlarında forma olaraq burun sümüyünün iriliyi, onun görünüşü gözəllik standartlarına uyğun gəlmir. Ətrafımda burun estetik əməliyyatı etdirənlərin də nəticəsinin yaxşı olduğunu görüb həvəsləndim. Əgər yaxşı həkim seçimi etmisənsə, nəticəsi də yaxşı olur. Hazırda bu prosedur hər kəs üçün daha əlçatandır və cəmiyyət tərəfindən rahat qəbul olunur".

Müsahibimiz qeyd edir ki, ümumiyyətlə, gözəllik standartları dəyişməli, cəmiyyət bu baxımdan maariflənməlidir: "Oxuduğum bir araşdırmada qeyd olunmuşdu ki, estetik əməliyyatların geniş yayıldığı yerlər təhsil səviyyəsi aşağı olan ölkələrdədir. Təbii ki, bunu birbaşa estetik əməliyyatlara üz tutanların təhsil səviyyəsi ilə əlaqələndirmirəm, çünki istənilən halda insana cəmiyyətin təsiri var və bu da bizdə müəyyən kompleks və travmalar yaradır. Özümüz buna görə nəticə çıxarmalı oluruq. Birbaşa kənar müdaxilə sayəsində əməliyyat etdirməsəm də, dolayısı ilə müəyyən təsirlərdən sonra gəldiyim qənaət bu oldu ki, mən əməliyyat etdirməliyəm".

Estetik əməliyyatlara daha çox qadınlar üz tuturlar. Amma indi vəziyyət dəyişir. Əgər əvvəllər bu prosedurları etdirən kişilər, əsasən, şou-biznes aləmindən olurdularsa, hazırda onlar arasında sadə vətəndaşların da sayı artıb. Görünür ki, tendensiya dəyişib.

Rinoplastika əməliyyatı olunanlardan biri də 25 yaşlı Ramal Cavadovdur. Artıq 7 ildir ki, burun estetik əməlliyyatı etdirib və hazırda görünüşündən razıdır: "Uşaqlıqdan burnumun üzümə yaraşmadığını düşünmüşəm və bu da məndə kompleks yaradırdı. 18 yaşım olduqdan sonra rinoplastika əməliyyatı etdirdim. Bəzən estetik əməliyyat etdirən kişilərə yanaşma fərqli olsa da, düşünürəm ki, bu, yanlışdır. Kim özünü necə rahat hiss edirsə, komplekslərdən azad olursa və daha gözəl görünürsə, bu proseduru tətbiq etməlidir. Mən gözəllikdən yanayam..."

### Estetika istəyi - bulinq, dismorfiya, "ideal qadın və kişi" imici...

Təbii ki, gözəl görünüş hər kəsin arzusudur, ona görə də cərrahiyyənin müəyyən risklərinə baxmayaraq, estetik əməliyyatlara üz tutanların sayı artır. Hər kəs komplekslərindən azad olmağa çalışır. Bəs estetik əməliyyatlara bu qədər marağın altında yatan psixoloji səbəblər nədir?

Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri, psixoloq Elnur Rüstəmov da estetik əməliyyatlara üz tutanların sayının artdığı qənaətindədir. O bildirir ki, belə əməliyyatlar zamanı müraciət edənlərin mövcud psixoloji vəziyyəti mütləq nəzərə alınmalıdır: "Məlumdur ki, depressiya və digər psixoloji narahatlıqlar estetik prosedurları həyata keçirən və keçirmək istəyən fərdlərdə daha çox rast gəlinir. Bu istək müxtəlif komplekslərdən dolayı yaranan mənfi düşüncələr, ətraf mühitdə bullinqə məruz qalmaq, xarici görünüşlə bağlı təzyiq, depressiya, bədən dismorfiyası və günümüzün əsasını təşkil edən sosial medianın təbliğ etdiyi qəlibləşdirilmiş "ideal qadın və kişi" imici kimi psixososial amillərdən dolayı ortaya çıxır. Buna görə də belə əməliyyatlara üz tutan xəstənin psixoloji vəziyyətini tam başa düşmək çox vacibdir".

Mütəxəssis vurğulayır ki, araşdırmalar göstərir ki, əməliyyatdan sonra bədən quruluşu və əhvali-ruhiyyə yaxşılaşsa belə, depressiya və narahatlıq halları daha da artır. Plastik cərrahlar üçün xəstələrə effektiv məsləhət vermək, gözləntiləri aydın şəkildə nəzərə çatdırmaq və xəstələrin cərrahi müdaxilə üçün uyğun namizəd olub-olmadığını qərarlaşdırmağa kömək etmək çox vacibdir.

Plastik cərrahların anadangəlmə və ya travmatik zədə nəticəsində yaranan qüsurları düzəltmək üçün rekonstruktiv prosedurlar da həyata keçirdiyini deyən psixoloq qeyd edir ki, bu prosedurlar əhəmiyyətli psixoloji yaxşılaşmanı əhatə etsə də, belə müdaxilə yalnız estetik prosedurlarla məhdudlaşır və fərdin travmasının kök saldığı yerləri korreksiya etmir: "Bir insanın istər estetik əməliyyatlar, istərsə də digər önəmli qərarlar verərkən psixoloji vəziyyətinin qiymətləndirilməsi ona belə seçimlərin səbəbini araşdırmaq imkanı verir. Belə qiymətləndirmə sağlam psixi quruluşa sahib olmağı təmin etmək üçün vacib və əhəmiyyətli bir addımdır. Psixoloji vəziyyətin dəyərləndirilməsi təkcə çətin və ya həll olunmayan situasiyalara deyil, bütün idrak proseslərinin tənzimlənməsinə aiddir".

### Şəxsin görünüşü ilə bağlı xoşagəlməz fikirlər, əsasən, başqalarının "səsi"dir

Bu gün insanlarda konkret düşüncə xətaları olduğunu vurğulayan E.Rüstəmov deyir ki, belə düşüncələr həmin şəxsdə fiziki görünüşü ilə bağlı xoşagəlməz fikirləri inkişaf etdirir. Adətən, insanın özünü tənqid etdiyi belə vəziyyətlərdə bu kimi fikirlər onun özünün deyil, həyatında olan hansısa bir şəxsin "səsi"dir. Belə səs, ya məktəb mühitində sinif yoldaşlarının, ailədə valideynlərin, münasibətdə olduğu insanın, ya da hər hansısa bir insanın onu alçaldan, təhqir edən və ya kimləsə müqayisə edən düşüncəsidir. Psixoloji qiymətləndirmədən keçərkən məhz belə səbəblərə görə də pasiyentlər estetik əməliyyat prosesində ətraf mühit faktorları ilə yanaşı, sağlam psixi fəaliyyət proseslərini də anlamağa başlayır.

Psixoloqun sözlərinə görə, estetik əməliyyatlar və bu kimi digər prosedurlar tamamilə mənfi bir şey deyil, tibbi zərurət yarandıqda sağlam prosedur sayılır, lakin bu hal yalnız xəstənin öz istəyi ilə, heç bir kənar müdaxilə olmadan həyata keçirildiyi zaman müsbət nəticə göstərir: "Digər narahatlıq doğuran bir mövzu isə estetik əməliyyata qərar verdikdən sonra da stres və narahatlıq dövrünün başlamasıdır. Belə narahatlıq, demək olar ki, hər bir insanda müşahidə olunan haldır. Fərdin sağlam dəstək sisteminin köməyi ilə bu qərarı verməsi, həm də stres və narahatlıq kimi çətin vəziyyətlərlə daha sağlam şəkildə mübarizə aparmağa imkan yaradar. Fərd bütün təfərrüatları lazımi mənbələrdən öyrənərsə, onu narahat edən bütün suallarına cavab taparsa, estetik prosedurdan sonra onun psixologiyasında heç bir ciddi problem yaşanmaz. Əksinə, proses haqqında kifayət qədər məlumat əldə edə bilmədiyi şəraitdə isə yaşadığı stres və narahatlıq səviyyəsinin artacağını bilmək mütləqdir".

Mütəxəssis bildirir ki, estetik əməliyyatlar narahatlığa səbəb olan məsələ deyil, belə fəaliyyətlər mövcud olan imkanların genişlənməsi ilə əlaqədardır. Burada verilməli və cavablandırılmalı olan sual insanın konkret əməliyyata getmə seçiminə hansı amillərin təsir etməsidir. Bu təsirin baş verməsi fərd üçün nə deməkdir? Belə suallar təkcə cavab deyil, həm də dəqiq təhlil tələb edir. Məhz belə halda mütəxəssisdən dəstək almaq fərd üçün daha faydalı və sağlam olur, reallığa əsaslanan qərar verməyə kömək edir. Əgər estetik əməliyyatlarla bağlı verilən qərarlara xarici faktorlar təsir edirsə, fərd, ilk növbədə, özünə kifayət qədər vaxt ayırmalı və həqiqətən öz istəyi ilə əməliyyat qərarını verib-vermədiyini anlamalıdır. Belə əməliyyatları ünsiyyətdə olduğunuz insanların iradəsinə görə deyil, öz istəyinizlə etmək istəyirsinizsə, bu, sağlam bir qərar verdiyinizi göstərir. Daxildən istəmədiyiniz bir şeyi etmək həm sağlam olmayan, həm də fiziki və psixoloji çətinliklərə bağlı prosesdir.

Psixoloq tövsiyələrini də verdi: "Unutmayın ki, həyatınızın qalan hissəsinə təsir edəcək əhəmiyyətli seçimlər edərkən, ilk növbədə, nə istədiyinizi müəyyənləşdirmək, sonra buna uyğun hərəkət etmək vacibdir. İnsanın düşüncəsi onun dünyasıdır. Hər bir psixoloji narahatlıq, kədər və hətta xoşbəxtliyin özü belə məhz insanın öz düşüncəsinin məhsuludur. Beləliklə, özünü deyil, düşüncəni dəyişmək - istədiyin həyatı yaşamaq üçün kifayətdir".

Görünür ki, hər şey insanın psixologiyasından qaynaqlanır. Elə kənar şəxslərin sözləri ilə özümüzə illərlə dərd etdiyimiz müxtəlif komplekslər də... Təbii ki, insana müxtəlif amillər təsir edə bilir, amma cəmiyyətin təsiri daha güclü hiss olunur. Xüsusən yeniyetməlik dövründəki belə təsirlər illər keçdikcə şüuraltımızda qəlibləşir və bunu dəyişmək üçün isə daha uzun vaxt, möhkəm iradə tələb olunur və özgüvənə ehtiyac yaranır. Bu müddətdə isə gözəl görünmək üçün çoxları özünü "qurban" verir. Özünü "qurban" vermədən öncə isə həkim məsləhətini, daha doğrusu, vicdanlı mütəxəssis rəyini hökmən dinləmək lazımdır.




**Cavid Hüseynzadə, cərrah:**

- Estetik əməliyyatlara müraciətlərin sayının artması həm də sosial rifahın yüksəlməsi ilə bağlıdır. Onun sözlərinə görə, son illərdə Azərbaycanda insanların yaşam səviyyəsi yüksəldiyindən sağlamlıqlarına, qidalanmalarına diqqət etdikləri kimi, öz estetik görünüşlərinə də önəm verirlər. "Müxtəlif kosmetoloji prosedurlarla yanaşı, cərrahi əməliyyatlara müraciət edənlərin də sayı artıb. Azərbaycanda insanların plastik cərrahiyyəyə marağı və istəyi çox yüksəkdir.

Əvvəllər estetik əməliyyatlara daha çox qadınlar müraciət edirdilərsə, son illərdə pasiyentlər arasında kişilər də çoxluq təşkil edir. Amma cins kateqoriyasına görə onların estetik əməliyyat istəkləri də fərqli olur.



**Elnur Rüstəmov, psixoloq:**

- Estetik əməliyyatlara üz tutan xəstənin psixoloji vəziyyətini tam başa düşmək çox vacibdir. Estetik əməliyyatlar narahatlığa səbəb olan məsələ deyil, belə fəaliyyətlər mövcud olan imkanların genişlənməsi ilə əlaqədardır. Burada verilməli və cavablandırılmalı olan sual insanın konkret əməliyyata getmə seçiminə hansı amillərin təsir etməsidir. Bu təsirin baş verməsi fərd üçün nə deməkdir? Belə suallar təkcə cavab deyil, həm də dəqiq təhlil tələb edir. Məhz belə halda mütəxəssisdən dəstək almaq fərd üçün daha faydalı və sağlam, reallığa əsaslanan qərar verməyə kömək edir. Əgər estetik əməliyyatlarla bağlı verilən qərarlara xarici faktorlar təsir edirsə, fərd, ilk növbədə, özünə kifayət qədər vaxt ayırmalı və həqiqətən öz istəyi ilə əməliyyat qərarını verib-vermədiyini anlamalıdır.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Dünyada tibbi xidmət hüququnun təmini sahəsində problemlər mövcuddur

**"Dünyada tibbi xidmət hüququnun təmini sahəsində problemlər mövcuddur və həlli kompleks yanaşma tələb edir".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Rusiya Federasiyasının Moskva şəhərində "İnsan hüquqları müdafiəsinin problemləri: Ombudsmanların müsbət təcrübələrinin bölüşülməsi" mövzusunda təşkil olunan VIII beynəlxalq elmi-praktik konfransda çıxışında deyib.

O, Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı torpaqlarımızda ətraf mühitə ziyan vurduğunu, su resurslarını kimyəvi tullantılarla çirkləndirdiyini, ekosid, urbisid cinayətləri, mina terroru törətdiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Müvəkkil işğal dövründə torpaqlarımızda basdırılmış minaların dəqiq xəritələrinin ölkəmizə təqdim edilməməsinin həmin bölgədə yaşayan insanların həyat və sağlamlığına, eləcə də sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin olunmasına ciddi maneə yaratdığını bildirib. Rəqəmsal texnologiyaların səhiyyə sahəsində istifadəsinə toxunan ombudsman süni intellektin bacarıqlarından yararlanmaqla müvafiq sahədə görülən işlərin səmərəliliyinin artırıla biləcəyini vurğulayıb. Bununla yanaşı, rəqəmsal səhiyyə xidmətlərinin geniş miqyasda tətbiqinin internetə və rəqəmsal texnologiyalara çıxışı olmayan bəzi həssas əhali qrupları üçün səhiyyə xidmətlərinin göstərilməsində müəyyən məhdudiyyətlər yaratdığı da qeyd edilib.

# Dondurulmuş qidalardan necə istifadə edilməlidir?

**Dondurulma qidanın saxlanması üçün ən qədim və çox istifadə olunan üsullardan biridir. Dondurulmuş meyvə-tərəvəzlərdə mikroorqanizmlərin inkişafı dayanır, fermentlərin fəaliyyəti və kimyəvi reaksiyaların sürəti azalır. Bu da onları xarab olmadan uzun müddət mühafizə edir.**

### Tərəvəzi dondurmağın qaydaları

Mövsümə xas qidaların dondurulması, onların həm təbii dadının, görünüşünün, həm də qida dəyərinin qorunmasını təmin edir. Dondurulmuş məhsulların keyfiyyəti xammalın seçilməsindən, dondurulma şəraitindən, qablaşdırmadan və düzgün saxlanma şəraitindən asılıdır.

Bəs meyvə-tərəvəzləri dondurarkən nələrə diqqət edilməlidir? Qablaşdırma, temperatur və bu qidaların istehlakı necə olmalıdır?

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən qida məsələləri üzrə mütəxəssis Ağa Salamovun sözlərinə görə, bütün meyvə-tərəvəzlər mövsümünə uyğun kodlaşdırıldığı üçün onları məhz öz fəslində yemək faydalıdır: "Bəzi mövsümi meyvə-tərəvəzlər digər aylarda istifadə üçün buzluqda saxlanılır. Dondurma prosesini düzgün həyata keçirdikdə bu məhsullar qida dəyərini, faydasını itirmir. Bu üsulla qışda olmayan moruq, qarağat, çiyələk, şaftalı, ərik kimi meyvələri, brokoli, kök, gül kələmi kimi tərəvəzləri qışa tədarük etmək olar".

Mütəxəssis bildirib ki, tərəvəzləri dondurucuya qoymamışdan öncə onları "blanch" texnologiyası ilə şoklamaq lazımdır: "Tərəvəzlər donduqda rəngini itirir, lət olur. Rəng, dad və görüntü keyfiyyətini saxlamaq üçün tərəvəzləri 8-10 saniyə dərin qabda isti suya salıb şoklamaq lazımdır. Daha sonra onlar isti sudan çıxarılıb buzun üzərinə qoyulmalıdır. Dondurulacaq meyvə və tərəvəzlərin hər biri saf şəkildə olmalı, xarab məhsuldan istifadə edilməməlidir".

### Təkrar dondurma məhsulun keyfiyyətini aşağı salır

A.Salamov deyib ki, meyvə-tərəvəzlər maksimum mənfi 18 dərəcədə dondurulmalıdır: "Buzladılmış meyvə və tərəvəzlərin 3 ay müddətində istehlak olunması məsləhətdir. Dondurucuya qoyulan qidaların qablaşdırılması olduqca önəmlidir. Bəzən buzluğa 1 kq məhsul qoyub sonra 200 qram lazım olduqda hamısının donunu açır, qalanını yenidən dondururlar. Bu yolverilməzdir. Dondurulan məhsul elə qablaşdırılmalıdır ki, donu açılandan sonra yalnız bir dəfə istifadə edilsin. Təkrar dondurulub buzu açılan məhsulun həm qida dəyəri aşağı düşür, həm də temperatur dəyişikliklərinə məruz qaldığına görə onların tərkibində mikrobioloji və kimyəvi proseslər gedir. Bu da qida zəhərlənməsinə səbəb ola bilər".

Dondurucuya qoyulacaq meyvə-tərəvəzlərin qablaşdırılmasına diqqət yetirməyin vacibliyini qeyd edən mütəxəssis bildirib ki, qablaşdırma zamanı buzluq üçün nəzərdə tutulmuş birdəfəlik paketlərdən istifadə olunmalıdır: "Bu zaman paketin içərisindəki oksigeni çıxarmaq üçün vakuum aparatından da istifadə edilə bilər. Vakuumlaşmış qidalar daha uzun müddət və keyfiyyətli mühafizə edilir. Vakkum aparatlarından ev şəraitində istifadə mümkündür. Dondurucudan çıxarılan məhsulun donu otaq temperaturunda yox, soyuducunun digər rəflərində və ya axar suda açılmalıdır. Dünyadakı şirin su qıtlığını nəzərə alsaq, ikinci üsul tövsiyə edilmir".

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*



Yeni nəşr

# "Mühəndislik düşüncələrinin inkişaf mərhələləri"

**Dünyaşöhrətli azərbaycanlı alim, mexanik-filosof, texnika elmləri doktoru, professor Əhəd Canəhmədovun "Mühəndislik düşüncələrinin inkişaf mərhələləri" kitabı çapdan çıxıb.**

AZƏRTAC xəbər verir ki, nəşrin elmi redaktoru Azərbaycan Mühəndislik Akademiyasının prezidenti, Milli Aviasiya Akademiyasının rektoru akademik Arif Paşayevdir.

Kitabdakı materiallar mühəndislik elminin və düşüncələrinin bir neçə istiqamətini əhatə edir və oxucular üçün maraq kəsb edən bir sıra məsələlər nümunələr əsasında diqqətə çatdırılır.

Mühəndisliyin əsas inkişaf mərhələlərini əhatə edən materiallar kitabda "Mühəndislik düşüncələrinin yaranmasının qısa tarixi", "Orta əsr Şərq və Avropada mexanika", "Neft sənayesinin formalaşmasında mühəndis düşüncələri (XIX-XX əsrlər)", "Aviakosmik texnikanın yaranma və inkişaf tarixi", "Tribologiya elminin inkişafının qızıl dövrü" fəsillərində, habelə proloq, epiloq və əlavədə öz əksini tapıb.

Kitab oxucuda mühəndisliyin inkişaf mərhələlərinə dair geniş təsəvvür yaradır. Professorun fikrincə, mühəndisliyin ilkin inkişaf mərhələsi - Paleolit dövründə odun əldə edilməsi, Yuki və Tuya məqbərəsində tapılan qədim döyüş arabalarında strukturların yaradılması və s. eramızdan əvvəl IV minillikdə təkərin ixtirası kimi parlaq kəşflərlə yadda qaldı. Eramızdan əvvəl I minilliyin əvvəllərində qaldırıcı mexanizmlərin mühüm elementinə çevrilən bloklar meydana çıxdı və təxminən eramızdan əvvəl 700-cü illərdə ip ötürülməsinin bir variantı olan bir polispast icad edilmişdir. Markus Vitruvius Pollio eramızdan əvvəl I əsrdə mövcud olan müxtəlif komponentləri və dişləri olan taxta dəyirmanı təsvir etdi. Digər kiçik mühəndislik ixtiraları da var idi. İntibah dövrü isə mühəndisliyin inkişafına təsir etdi.




Müəllif yazır: "Mənim üçün xüsusilə çox böyük əhəmiyyət kəsb edir ki, müasir dövrdə elm və texnologiya intensiv inkişaf edir, bir-birini tamamlayır, çox qədim və maraqlı bir sənətin - mühəndisliyin inkişafına əhəmiyyətli dərəcədə müsbət təsirini göstərir.

Bu kitabda mən mühəndislik düşüncələrinin inkişafının əsası kimi mexanika, fizika və tribologiyanın xarakterini və mahiyyətini müəllimlərimin əxz etdiyi kimi çatdırmağa çalışdım".

Xatırladaq ki, professor Əhəd Canəhmədov Azərbaycan Milli Aviasiya Akademiyasının Nəqliyyat mexanikası kafedrasının müdiri, Azərbaycan Mühəndislik Akademiyasının vitse-prezidenti, "Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri" jurnalının baş redaktorunun müavinidir.

Xarici ölkələrin bir sıra akademiyalarının həqiqi üzvü, 40-dan çox monoqrafiyanın, 3 elmi kəşfin və 500-ə yaxın elmi məqalənin və patentin müəllifidir. Rusiyanın Əməkdar mühəndisidir. O, "Elm Cəngavəri" rütbəsinə layiq görülüb. Elm və təhsil üzrə bir sıra beynəlxalq müsabiqələrin laureatıdır. Onun fundamental əsərləri ingilis dilinə tərcümə edilib, ABŞ, Almaniya və digər ölkələrdə nəşr edilib və beynəlxalq səviyyədə tanınıb.

# *ABŞ mətbuatı:* Ermənilərin səslərini qazanmaq istəyən Adam Şiff Azərbaycanın ABŞ-yə etdiyi yaxşılıqları qiymətləndirmir

**ABŞ Əfqanıstanda Talibana qarşı vuruşanda da, oradan geri çəkiləndə də həmişə Azərbaycanın dəstəyini, köməyini görüb. Adətən, ABŞ bu cür yaxşılıqlara görə müttəfiqlərinə öz minnətdarlığını bildirir.**

Üstəlik, həmin müttəfiq Ukraynada müharibə getdiyi bir vaxtda Avropanın enerji təhlükəsizliyinə yardım əli uzadır. Amma Kaliforniyadan Nümayəndələr Palatasına seçilmiş Demokrat partiyalı Adam Şiff Azərbaycanın ABŞ və Avropa üçün etdiklərini qiymətləndirmir. Hətta ABŞ-nin müttəfiqlərinə ehtiram göstərmək kimi bir dəyərini heçə sayaraq seçki günü ermənilərin səslərini qazanmaq dərdi çəkir.

AZƏRTAC xəbər verir ki, bu barədə tanınmış siyasi şərhçi və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham baş qərargahı ABŞ-nin Nyu York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının saytında dərc olunmuş "ABŞ-nin əsl müttəfiqinin müdafiəsi üçün ayağa qalxmaq" sərlövhəli məqaləsində yazıb.




Bildirilib ki, bu yaxınlarda Nümayəndələr Palatasının üzvü Adam Şiff ABŞ-dəki Azərbaycana məxsus aktivləri hədəfə alan və onları İkinci Qarabağ müharibəsində, eləcə də sonrakı hərbi əməliyyatlarda köçən ermənilərə vermək məqsədi güdən qanun layihəsini Konqresə təqdim edib. Bununla da, erməni seçicilərin səslərinə Amerikanın milli maraqlarından daha artıq dəyər verdiyini nümayiş etdirib.

Məqalədə amerikalıları Adam Şiffi terrorizm və dini radikalizmlə mübarizədə ABŞ-nin müttəfiqi olan Azərbaycanı hədəf almasına görə qınamağa çağıran politoloq qeyd edib: "ABŞ yaxşı olardı ki, Kaliforniyada ermənilərin səsini qazanmaq üçün keçmişdə Amerikaya dəstək verən müttəfiqlərini özündən uzaqlaşdırmasın. Axı Amerikanın milli maraqları istənilən lobbidən əvvəl olmalıdır".

# İsrail mətbuatı Niderland parlamentini Azərbaycana qarşı qərəzli mövqeyinə görə qınayıb

**Dünyadakı münaqişələrə birtərəfli yanaşmada BMT Baş Assambleyası tək deyil. Belə ki, Niderland parlamentinin hazırladığı proqramda Azərbaycan ərazilərinin azad edilməsi "Dağlıq Qarabağın ələ keçirilməsi" adlandırılır. Bədnam qətnamədə Azərbaycan həmçinin "etnik təmizləmə və mədəni irsə ziyan vurmaqda" ittiham olunur.**

AZƏRTAC xəbər verir ki, bu barədə tanınmış politoloq və siyasətçi, İsrailin keçmiş rabitə, peyk və kibertəhlükəsizlik naziri, İqtisadi Sülh Mərkəzinin prezidenti Ayub Kara ölkəsinin populyar "Israel Ha-Yom" nəşrində dərc olunmuş "BMT Baş Assambleyası və Niderland: münaqişənin həllinə mane olan eyni yolun iki yolçusu" sərlövhəli məqaləsində yazıb.

Müəllif Azərbaycan və Ermənistan arasında sülh danışıqlarının aparıldığı və şübhəsiz ki, ümidverici nəticələrin əldə edildiyi indiki dövrdə Niderland parlamentində belə bir sənədin ortaya çıxmasını siyasi ehtiyatsızlığın və məsuliyyətsizliyin bariz nümunəsi adlandırıb. Təəssüf hissilə bildirilib ki, Azərbaycan torpaqlarının işğal altında qaldığı, bir milyon azərbaycanlının qaçqın və məcburi köçkünə çevrildiyi 30 ildə Niderland parlamentinin üzvləri bir dəfə də olsun səslərini çıxarmayıblar. Ötən müddət ərzində işğalçıları açıq və ya gizli dəstəkləyən niderlandlı deputatlar bu gün uzun illərdir münaqişədə olan iki dövlət arasında münasibətlərin normallaşması prosesinə xələl gətirən hərəkətləri təqdir edirlər.

Politoloq Ermənistandan və vaxtilə işğal olunmuş Azərbaycan ərazilərindən azərbaycanlıların qovulmasına, eləcə də Azərbaycan mədəni irsinin kütləvi şəkildə məhvinə göz yuman Niderland parlamentinin indi kökündən böhtan xarakterli mövqe nümayiş etdirməsinə diqqət çəkib. İki ölkə arasında münasibətlərin normallaşdırılması, o cümlədən sərhədlərin müəyyənləşdirilməsi istiqamətində addımlar atıldığı bir vaxtda xarici dövlətlərin zərərli müdaxiləsini yolverilməz adlandırıb.

# Raket və artilleriya bölmələrində atəş tapşırıqları icra olunub

**Bu ilin hazırlıq planına uyğun olaraq, Quru Qoşunlarının raket və artilleriya bölmələrində atəş tapşırıqları icra olunub.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, plana əsasən atəş dəstəyi həyata keçirəcək bölmələr daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılaraq atəş mövqelərini tutublar.



Real döyüş şəraitinə uyğun keçirilən təlimdə şərti düşmən hədəflərinin aşkarlanaraq sərrast atəşlə məhv edilməsi üzrə tapşırıqlar yerinə yetirilib.

Təlimin keçirilməsində əsas məqsəd raket və artilleriya bölmələrində komandirlərin idarəetmə vərdişlərinin təkmilləşdirilməsi, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, eləcə də döyüş əməliyyatları zamanı fəaliyyətlərin planlaşdırılması və digər qoşun növləri ilə qarşılıqlı əlaqənin inkişaf etdirilməsidir.



## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə 2024-cü il üçün abunə yazılışı davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
"Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın təsdiq edilməsi haqqında
"Biz fəxr edirik ki, Cənubi Qafqazda və daha geniş regionda ilk COP Azərbaycanda keçiriləcək"
Gözlərindəki tiri görməyənlər
COP29 çərçivəsində elan edilən "Birgə Atəşkəs Çağırışı" Qoşulmama Hərəkatı tərəfindən dəstəklənib
İrəvanın sülh məkri

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*

## "BANK RESPUBLİKA" ASC SƏHMDARLARININ NƏZƏRİNƏ!

"Bank Respublika" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 15 noyabr 2024-cü il saat 12:00-da Xaqani küçəsi, 21 ünvanında yerləşən bankın Baş ofisində keçiriləcək.

**Gündəlikdəki məsələlər:**
1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. "Bank Respublika" ASC-nin törəmə təsərrüfat cəmiyyətinin gələcək fəaliyyəti ilə bağlı qərarın verilməsi haqqında.

***"Bank Respublika" ASC***

## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar Cəlilabad, Salyan, Biləsuvar rayonlarının inzibati ərazisində 15.10.2024-cü il tarixdə gecə saatları ərzində zənglərin həyata keçməsində və internet xidmətindən istifadə zamanı müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bu istiqamətdə tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcəkdir.



# "Kirk" qasırğası Avropanı vurub

**Yolboyu gücünü bir qədər itirməsinə baxmayaraq, Atlantikada formalaşan "Kirk" qasırğası Avropanın bir neçə ölkəsini vuraraq ciddi fəsadlar törədib. Güclü fırtına Portuqaliya və İspaniyada dağıntılara səbəb olub. Fransa, İsveçrə, Belçika, Niderland, Danimarka, Norveç və Almaniyanın şimalının da yaxın günlərdə qasırğanın təsirini hiss edəcəyi gözlənilir.**



Fırtınanın quruya çıxmasının güclü külək və leysan yağışla müşayiət olunacağı gözlənildiyi üçün Fransa yüksək hazırlıq vəziyyətinə gətirilib. Velluire merinin müavini Alen Beneto təbii fəlakətlə bağlı deyib:

"Bəndlərimiz gücləndirilib və qaldırılıb. Lazım gələrsə, qayıqları yığışdırıb bütün əhaliyə xəbərdarlıq edəcəyik".

Atlantik okeanı üzərində əmələ gələn "Kirk" qasırğası Bermud və Azor adaları arasından keçərək qısa müddət ərzində 4-cü kateqoriyaya çatıb. Lakin sonra post-tropik fırtına gücünədək zəifləməsinə baxmayaraq, Portuqaliyada daşqınlara səbəb olub və 300 min insanı işıqsız qoyub. Küləyin sürəti saatda 200 kilometrə çatıb.

Ölkənin mülki mühafizə idarəsi 600 insident qeydə alıb ki, onların da əksəriyyəti yıxılan ağaclarla bağlıdır.

İspaniyada da güclü külək və leysan yağışları aviasiya reyslərinin gecikməsinə və təxirə salınmasına səbəb olub. Yerli medianın məlumatına görə, ölkənin bəzi bölgələrində hündürlüyü 7 metrə çatan dalğalar sahilə zərbə endirib.

Euronews telekanalı xəbər verir ki, "Kirk" qasırğası artıq Fransa və Belçikanı da vurub.

Fransanın Seine-et-Marne departamenti hələ də mümkün daşqınla bağlı qırmızı xəbərdarlıq səviyyəsində qalır. Çünki yaxın günlərdə yenidən yağış gözlənilir.

Yerli KİV məlumat yayıb ki, Fransada "Kirk" qasırğası nəticəsində bir nəfər ölüb. Bundan əlavə, təbii fəlakət səbəbindən 70 minə yaxın ev işıqsız qalıb. Ölkənin şimalında yollar və binaların aşağı mərtəbələri su altında qalıb.

"Kirk" qasırğası Fransanın qonşusu Belçikaya da təsir edib. Ən çox yağıntı krallığın cənubuna düşüb. Kuven şəhərinin mərkəzini su basıb. Şəhərdə və ətrafında çətin vəziyyət qalmaqdadır, burada insanlar və heyvanlar hərbi helikopterlərlə təxliyə edilir.

Son məlumata əsasən, yerli hakimiyyət orqanları hesab edirlər ki, ən pisi arxada qalıb və indi fəlakətin nəticələri aradan qaldırılmalıdır.

Oktyabrın 11-də axşam saatlarında məlum olub ki, "Kirk" qasırğası Baltik dənizinin cənubuna, Danimarka boğazlarına yaxınlaşıb və şimala doğru irəliləməkdə davam edir. Bu barədə xəbər verən Sankt-Peterburqun baş sinoptiki Aleksandr Kolesov özünün Teleqram kanalında qasırğanın artıq siklona çevrildiyini bildirib.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Araik Arutyunyanın, David Babayanın və digərlərinin həbs müddəti uzadılıb

Azərbaycan Respublikasının Qarabağ bölgəsinin və digər suveren ərazilərinin Ermənistanın hərbi təcavüzü nəticəsində işğal olunduqdan sonra yaradılmış qondarma qurumun "prezidentləri" olmuş Arkadi Qukasyan, Bako Sahakyan, Araik Arutyunyan, sabiq "xarici işlər naziri" David Babayan, eləcə də "parlament sədri" David İşxanyan, generallar David Manukyan və digərlərinin barəsində seçilmiş həbs qətimkan tədbirlərinin müddətinin uzadılması ilə bağlı Baş Prokurorluğun İstintaq idarəsinin vəsatətlərinə və Azərbaycan Respublikasının baş prokurorunun təqdimatlarına Binəqədi Rayon Məhkəməsində baxılıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidməti daxil olmuş sorğulara cavab olaraq bildirib.

İstintaqı Baş Prokurorluğun rəhbərlik etdiyi, Hərbi Prokurorluq, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi və digər istintaq qurumlarının peşəkar əməkdaşlarından ibarət birgə istintaq qrupu tərəfindən aparılan cinayət işi üzrə separatçı rejimin ümumilikdə 14 nəfər üzvü Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə məsuliyyətə cəlb olunub.

Məhkəmənin qərarına əsasən, qeyd olunan şəxslərin barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti uzadılıb.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

İxtiyar Hüseynli istefada olan polis polkovniki Namiq İsmayılova oğlu
**CAVİD İSMAYILZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4173
Sifariş 2286

Qiyməti 60 qəpik